RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 32 (9777) 13 fevral 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## “Mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm”



### Prezident İlham Əliyev Davosda Çinin CGTN telekanalına müsahibə verib

- Ölkəmiz üçün son illərin ən mühüm nailiyyəti ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası oldu. Biz bunu beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, BMT Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həyata keçirdik. Demək olar ki, 30 il ərzində bu, bizim milli ideyamız idi və biz hədəfimizə nail olmaq, ədaləti bərpa etmək üçün bütün səylərimizi səfərbər etdik.
- Biz güclü iqtisadiyyat, yeri gəlmişkən, özünü təmin edən iqtisadiyyat qurduq. Ümumi daxili məhsula (ÜDM) nisbətdə xarici borcun səviyyəsi çox aşağıdır, cəmi 6,9 faizdir. Buna əsaslanaraq biz regionda bağlantılar yaradan genişmiqyaslı layihələr həyata keçirmişik və aid olduğumuz Cənubi Qafqaz və Xəzər regionunda etibarlı mövqe tutmuşuq.
- Azərbaycanın öz milli maraqlarını müdafiə edən və bütün dünyada yaxşı əlaqələr quran ölkə kimi nümunəsi onu göstərir ki, cəmiyyətdə sabitlik, birlik varsa, siz öz maraqlarınızı müdafiə edə bilərsiniz.
- Bizim hədəfimiz Azərbaycanın dünyanın siyasi və iqtisadi xəritəsində öz yerini tutmasından ibarət idi. Təxminən 200 ölkəni bir araya gətirən iqlim konfransına evsahibliyi etmək böyük çağırış, böyük məsuliyyət, eyni zamanda böyük nailiyyət idi.
- Azərbaycanın iqtisadiyyatı özünü təmin edir. Bizim ÜDM-ə münasibətdə ən aşağı səviyyəli xarici borcumuz var. Bizim konvertasiya oluna bilən valyuta ehtiyatlarımız xarici borcumuzu 14 dəfə üstələyir.
- Ötən il Çin və Azərbaycan rəsmi olaraq strateji tərəfdaş oldular. Ötən yay mənim Çinin Sədri ilə görüşümdən sonra strateji tərəfdaşlıq üzrə müvafiq bəyannamə qəbul edildi və bu, bizim ikitərəfli əlaqələrdə çox mühüm siyasi addımdır.
- Şanxay Əməkdaşlıq Təşkilatının və BRICS-in bütün üzv dövlətlərinin Azərbaycanla çox yaxşı və dost münasibətləri var.
- Qlobal Cənubun bir hissəsi olaraq biz Qlobal Cənubun maraqlarını müdafiə etmişik və yeri gəlmişkən, COP29-a qayıdaraq bizim ideyalarımızdan biri Qlobal Cənubla Qlobal Şimal arasında daha möhkəm körpülər qurmaq idi.
- Bakıda keçirilən COP29-da ən mühüm tədbirlərdən biri inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Zirvə görüşü idi. Orada Azərbaycan bu ölkələrə əməli dəstək göstərmək üçün çox iddialı gündəlik irəli sürdü.
- Biz sabit iqtisadiyyat qurmuşuq, sabit siyasi sistemimiz var, insanların yaşayış səviyyəsini yaxşılaşdıran çoxlu sosial proqramlar həyata keçiririk, yoxsulluq səviyyəsini təxminən 5 faizə endirməyə nail olmuşuq və müxtəlif beynəlxalq aktorlarla güclü tərəfdaşlıq və əlaqələrlə biz müəyyən vasitəçi rolunu oynayırıq.
- Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşlıq bəyannaməsi imzalamışıq. Türkiyə, Özbəkistan və Rusiya ilə müttəfiqlik bəyannaməsi imzalamışıq. Şaxələnmiş bu xarici siyasət istiqaməti, sadəcə, siyasətə deyil, mahiyyətə əsaslanır. Hər bir sahədə bizim əməli nəticələrimiz, əməkdaşlıq proqramlarımız var. Digər ölkələr kimi bizim də xarici siyasətimiz, sadəcə olaraq, daxili siyasətimizin davamıdır.
- İqtisadiyyat hər şeyin əsasını təşkil edir. İdeologiya, iqtisadiyyat və milli ideyalar - bunlar hamısı birlikdə Azərbaycanı bizim layiq olduğumuz yerə gətirib çıxardı.
- Biz investorlar üçün yaxşı investisiya mühitini yaratdıq. Bizim 2027-ci ilə qədər olan hədəfimiz 2 giqavat həcmində Günəş və külək elektrik enerjisini hasil etməkdir. 2030-cu ilə qədər isə bu hədəf 6 giqavatdır. Bu, Azərbaycanda enerji sahəsində bir inqilab olacaqdır.
- Azərbaycanın külək və Günəş enerjisi potensialı artıq bəllidir və bu, bizim təsəvvürə gətirə biləcəyimizdən qat-qat artıqdır.
- 17 il hakimiyyətdə olandan sonra biz, nəhayət, vəd etdiklərimizi yerinə yetirdik və suverenliyimizi, ərazi bütövlüyünü və ləyaqətimizi bərpa etdik. Beləliklə, ictimaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə məsləhətim o olardı ki, həmişə həqiqəti söyləyin və beynəlxalq təzyiqdən, beynəlxalq mediadan asılı olmayaraq, haqqınızda nə dediklərindən, sizi necə adlandırdıqlarından, sizi necə təhqir etmələrindən asılı olmayaraq, ölkəniz üçün doğru olanı edin. Beləliklə, siz özünüz və ölkəniz uğur qazanmış olacaqsınız.

5-6

## Azərbaycan - Somali dostluq münasibətlərində yeni səhifə



Somali Prezidenti Hasan Şeyx Mahmudun Azərbaycana rəsmi səfəri

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmudun fevralın 12-də rəsmi qarşılanma mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud ilə təkbətək görüşü olub.

Azərbaycan Respublikası ilə Somali Federativ Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Somali Prezidenti Hasan Şeyx Mahmudun iştirakı ilə mübadiləsi mərasimi olub.

Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud ilə lanç əsnasında geniş tərkibdə görüşüb.

Həmin gün ölkəmizdə rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Daha sonra Somali Federativ Respublikasının Prezidenti "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub və Bakıda Zəfər parkını ziyarət edib.

2-4

## Zəfər silsiləsi

### 2025-ci ili "Konstitusiya və Suverenlik İli" kimi təntənə ilə qeyd edəcəyik




Prezident İlham Əliyev Azərbaycanda 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında sərəncam imzalayıb.

Tədbirlər Planında 20 sentyabr-12 noyabr tarixləri ərzində Azərbaycan Dövlət Suverenliyi Gününün və Azərbaycan Konstitusiyasının qəbulunun 30 illiyinin geniş qeyd olunması, bununla əlaqədar yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi əksini tapıb. İl ərzində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda silsilə tədbirlərin, Milli Məclisin "Suverenlik və Konstitusiya İli"nə həsr olunmuş xüsusi iclasının keçirilməsi nəzərdə tutulub.

Həmçinin il ərzində "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş forumların, konfransların, simpoziumların, "dəyirmi masa"ların, seminarların, müsabiqələrin, müxtəlif mədəni-kütləvi tədbirlərin təşkili, vətənpərvərlik mahnılarının (marşların) yazılması, beynəlxalq turizm sərgilərində Azərbaycan milli stendində "Konstitusiya və Suverenlik İli" haqqında məlumatların təqdim edilməsi, Azərbaycanın diplomatik nümayəndəlikləri tərəfindən "Suverenlik və Konstitusiya İli"nə həsr olunmuş, həmçinin Azərbaycan diaspor təşkilatları, koordinasiya şuraları, Azərbaycan evləri və həftəsonu məktəbləri tərəfindən "Suverenlik və Konstitusiya İli"nə həsr olunmuş tədbirlərin, Azərbaycanın şəhər və rayonlarında "Suverenlik və Konstitusiya İli"nə həsr olunmuş ağacəkmə aksiyalarının keçirilməsi nəzərdə tutulub.

8

## "Maskaları çıxarın! Azərbaycanda USAID-in fəaliyyətinə yer yoxdur"

### Ölkəmizin bir il öncə USAID-lə bağlı tutduğu mövqeyi belə idi




Uzun illərdir ki, dünyanın ayrı-ayrı bölgələrində qarışıqlıq salmaqla, müstəqil xarici siyasət yürüdən dövlətlərin daxili işlərinə müdaxilə etməklə tanınan ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin (USAID) nəhayət ki, fəaliyyəti dayandırıldı. ABŞ-nin yeni hökuməti artıq USAID-in fəaliyyətini araşdırmağa başlayıb.

Bir neçə gün əvvəl "federal hökumətdə fırıldaqçılıq nəticəsində itkilər bütün ödənişlərin həcminin, demək olar ki, 10 faizini təşkil edir ki, bu da ildə təxminən 700 milyard dollara bərabərdir. Maskın hesablamalarına görə, ödənişlərin ən azı 15 faizi təxminən 1 trilyon dollar Amerika rəsmiləri tərəfindən mənimsənilir" açıqlaması ilə məşhurlaşan ABŞ hökumətinin Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin (DOGE) rəhbəri İlon Mask "X" sosial şəbəkəsində etdiyi paylaşımında vurğulayıb ki, USAID seçkilərə təsir etmək üçün "şübhəli vasitələrdən" istifadə edib: "USAID-in gördüyü işlərin çoxu seçkilərə təsir etmək, yoxlamalara tab gətirməyən şübhəli üsullarla seçkilərə təsir etmək məqsədi daşıyırdı. Agentlik səriştəsiz və çox korrupsionerdir".

Yanlış və qərəzli siyasət yürüdən USAID müxtəlif yollarla ələ keçirdiyi mediaları saxlamaq və genişləndirmək üçün hər il milyardlarla pul xərcləyirdi. Eyni zamanda müxtəlif ölkələrdə rəngli inqilablara sponsorluq etməsi artıq sirr deyil.

9

◆ Somali Prezidenti Hasan Şeyx Mahmudun Azərbaycana rəsmi səfəri

# Azərbaycan - Somali dostluq münasibətlərində yeni səhifə

## Rəsmi qarşılanma mərasimi





**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmudun fevralın 12-də rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Somali Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Somali Prezidenti Hasan Şeyx Mahmudu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Somali Prezidentinə raport verdi.

Somali Federativ Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Somali Prezidenti Hasan Şeyx Mahmudun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.





## Azərbaycan Prezidentinin Somali Prezidenti ilə təkbətək görüşü



Fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud ilə təkbətək görüşü olub.

## Azərbaycan ilə Somali arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi olub

**Fevralın 12-də Azərbaycan Respublikası ilə Somali Federativ Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Somali Prezidenti Hasan Şeyx Mahmudun iştirakı ilə mübadiləsi mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Somali Federativ Respublikasının Prezidentinin Ofisi arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və Somali Prezident Aparatının rəhbəri Abdihakim Mohamed Yusuf mübadilə etdilər.

"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Somali Federativ Respublikasının Energetika və Su Ehtiyatları Nazirliyi arasında "yaşıl enerji" sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Somalinin energetika və su resursları naziri Abdullahi Bidham Varsame mübadilə etdilər.

"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Somali Federativ Respublikasının Təhsil, Mədəniyyət və Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Somalinin xarici işlər naziri Əhməd Moalim Fiqi mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın müdafiə naziri Zakir Həsənov və Somalinin müdafiə naziri Əbdülkadir Mohamed Nur mübadilə etdilər.





◆ Somali Prezidenti Hasan Şeyx Mahmudun Azərbaycana rəsmi səfəri

# Azərbaycan - Somali dostluq münasibətlərində yeni səhifə

## Azərbaycan və Somali prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**









### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Dəvətimi qəbul edərək ölkəmizə rəsmi səfər etdiyinizdən olduqca məmnunam. Bu, tarixi səfərdir və ölkələrimiz arasında ikitərəfli münasibətlərin tarixində ilkdir. Əminəm ki, səfər ölkələrimiz arasında sıx dostluq münasibətlərində yeni səhifə açacaq. Bu gün Prezidentlə görüşümüz zamanı biz qarşılıqlı maraq doğuran kifayət qədər böyük sayda məsələləri artıq müzakirə etdik. Bu gün müzakirələrimizi nümayəndə heyəti üzvlərinin iştirakı ilə davam etdirəcəyik.

Bu gün imzalanmış sənədlər ikitərəfli əlaqələrimizi çox sahələrdə inkişaf etdirməkdə qarşılıqlı iradəmizi aydın şəkildə nümayiş etdirir. Əminəm ki, hazırda Bakıda imzalanmış bütün razılaşmalar həyata keçiriləcək və münasibətlərimizi daha yüksək səviyyəyə qaldıracaq.

Biz regionlarımızda geosiyasi vəziyyəti, ölkələrimizin üzləşdiyi çağırışları geniş şəkildə müzakirə etdik, ölkələrimizin ərazi bütövlüyünə və suverenliyinə qarşılıqlı dəstəyimizi, eləcə də terrorçuluğa və ekstremizmə qarşı mübarizədə ortaq mövqeyimizi bir daha vurğuladıq. Əlbəttə, hər bir ölkə üçün siyasi sabitlik inkişafı təmin edən ilkin şərtdir. Mən 1990-cı illərdən və bu əsrin əvvəlindən tutmuş beynəlxalq səviyyədə tanınmış ərazilərimizin erməni işğalından azad edilməsinə qədər Azərbaycanın üzləşdiyi ağır dövr barədə cənab Prezidentə məlumat verdim.

Mən həmçinin Azərbaycana sərmayələrin cəlb edilməsində və müsbət işgüzar mühitin yaradılmasında təcrübəmizi bölüşdüm. Müzakirə etdiyimiz və edəcəyimiz sahələr sırasında düşünürəm ki, ən vaciblərindən biri təhsil sahəsidir. Bu gün həmin sahədə artıq ilkin nailiyyətlərimiz var. Somalidən bir sıra tələbə Azərbaycanda Heydər Əliyev adına təqaüd əsasında təhsil alır. Bu gün imzalanmış sənəd onların sayını artırmaq imkanını yaradacaq. İlkin mərhələdə on tələbə, sonra isə onların sayı daha çox ola bilər. Bir sözlə, onların universitetlərimizdə müasir təhsil proqramlarına çıxış əldə etmək imkanı olacaq və belə fürsət Somalinin iqtisadi inkişafına fayda verəcək.

Biz həmçinin Somalidə sərmayə imkanlarını müzakirə etdik. Bildiyiniz kimi, cənab Prezidentin səfərindən əvvəl Azərbaycanın böyük nümayəndə heyəti bir həftə öncə Somaliyə səfər etmiş, əsasən, səfərin hazırlanması və eyni zamanda gələcəkdə güclü iqtisadi, siyasi və mədəni əlaqələrin qurulması üzərində çalışmışdır. Düşünürəm ki, həmin proses davam etməlidir. Düşünürəm ki, Prezidentin rəsmi səfəri nəticəsində biz digər heyəti konkret hədəf və məqsədlərlə sərmayə sahələrini müəyyən etmək, eləcə də Azərbaycanın sərmayələri qəbul oluna biləcək və faydalı olacaq konkret layihələri qeyd etmək üçün Somaliyə ezam etməliyik. Məsələn, bu sahələr infrastruktur, liman qurğuları və kənd təsərrüfatı ola bilər. Cənab Prezident kənd təsərrüfatında böyük potensialın olduğu barədə mənə məlumat verdi. Mən həmçinin Azərbaycanda özünü təmin edən kənd təsərrüfatının yaradılması ilə əlaqədar hədəflərimiz barədə məlumat verdim. Bir sözlə, hesab edirəm ki, biz bu sahədə kifayət qədər nəzərəçarpan əməkdaşlıq qura bilərik.

Müdafiə əməkdaşlığımızın mühüm sahələrindən biridir. Bu gün sənəd imzalandı və sabah cənab Prezident Azərbaycanın müdafiə imkanlarının, o cümlədən müdafiə sənayesinin bəzi elementləri ilə tanış olacaq. Hazırda nümayəndə heyətlərinin görüşü zamanı biz bu imkanları birmənalı şəkildə müzakirə edəcəyik. Azərbaycan müdafiə avadanlığının əksər hissəsini istehsal edərək güclü müdafiə sənayesi potensialını yaradıb. Həmin avadanlıq həm bizə lazımdır, həm də müasir müdafiə avadanlığına malik olan 10-a yaxın ölkənin mühüm ixracatçısına çevrilmək imkanıdır. Burada təlimlər də var, çünki İkinci Qarabağ müharibəsi və sonradan antiterror əməliyyatı hərbi qulluqçularımızın yüksək peşəkarlığını nümayiş etdirdi. Onlar altı və ya yeddi müdafiə xəttinə, müxtəlif müdafiə istehkam infrastrukturuna baxmayaraq, təxminən otuz il işğal altında olan ərazimizi çox mürəkkəb coğrafi relyef şəraitində azad edərək, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qısa müddət ərzində tam bərpa edə bildilər. Beləliklə, sabah həmçinin xüsusi təyinatlılarımız cənab Prezidentə təqdim olunacaq. Bir sözlə, düşünürəm ki, müdafiə sahəsində əməkdaşlıq, təlimlər və potensial qaydada müdafiə avadanlığının birgə istehsalı, Azərbaycandan Somaliyə onun təchizatı əməkdaşlığımızın mühüm sahələrindən biri olmalıdır.

Mən həmçinin dövlət xidmətləri sahəsində işbirliyinin əhəmiyyətini vurğulamaq istərdim. Əslində, bu gün imzalanmış razılaşmalardan biri həmin sahəni əhatə edir. Azərbaycanda artıq uğurla işləyən sistem - ASAN dövlət xidmətləri sistemi bir çox beynəlxalq mükafatlara layiq görülüb. Ən mühüm mükafat isə Azərbaycan xalqının verdiyi qiymətdir. Çünki Azərbaycanda ASAN xidmətlərin bəyənilmə reytinqi 100 faizə yaxındır. Bu, həqiqətən göstərir ki, həmin xidmət insanların həyatını daha da asanlaşdırır. Bilirəm ki, Prezidentin proqramında həmin xidmət mərkəzlərindən birinə səfər var və əgər siz qərar qəbul etsəniz, bəyənsəniz, biz sizin ölkədə oxşar sistemi qura bilərik.

Təbii ki, tərəfdaşlığımızın mühüm sahəsi beynəlxalq təsisatlarda qarşılıqlı dəstəkdir. Bilirəm ki, xarici işlər nazirlərimiz çox tədbirlərdə görüşərək həmin məsələləri müzakirə ediblər. Biz BMT, İslam Əməkdaşlığı Təşkilatı və digər beynəlxalq qurumlarda bir-birimizə dəstəyi birmənalı olaraq davam etdirəcəyik. Çünki hər iki ölkə üçün arxalanacağımız tərəfdaşlara və dostlara malik olmaq çox vacibdir.

Cənab Prezident, Azərbaycana bir daha xoş gəlmisiniz və mən sizə xoş səfər arzu edirəm.

❖ ❖ ❖

Sonra Somali Prezidenti bəyanatla çıxış etdi.

### Prezident Hasan Şeyx Mahmudun bəyanatı

- Cənab Prezident, çox sağ olun. Münasibətlərimizin tarixində ilk dəfə Azərbaycana səfər etmək, Azərbaycana səfər edən ilk Somali Prezidenti olmaq mənim üçün, həqiqətən də, böyük şərəfdir.

Qardaş Azərbaycanın paytaxtı Bakıda olmaqdan, hörmətli qardaşım və dostum Prezident İlham Əliyevlə səmərəli müzakirələr aparmaqdan böyük şərəf və qürur hissi duyuram. Səmimi qəbula və qonaqpərvərliyə görə Zati-alinizə minnətdarlığımı bildirirəm. Mənim və nümayəndə heyətimin fikrincə, bugünkü görüşümüz çox məhsuldar keçib və bu, Somali-Azərbaycan münasibətlərində yeni eranın başlanğıcı deməkdir.

Bu səfər, sadəcə, diplomatik əməkdaşlıq deyil. Bu, həqiqətən, iki qardaş ölkələrimiz arasında tərəfdaşlıq üzrə səmərəli və strateji müttəfiqliyin başlanğıcı deməkdir. Somali və Azərbaycanın inkişaf, təhlükəsizlik və tərəqqi ilə bağlı baxışları üst-üstə düşür. Bu gün biz əsasən tərəflər arasında daha sıx əməkdaşlığın dərinləşdirilməsinə sadiqliyimizi bildirdik. Mən həmçinin Azərbaycan xalqını öz suverenliyini və ərazi bütövlüyünü qoruduğuna görə təqdir etmək istərdim.

Son üç onillikdə bir çox oxşarlıqlarımız mövcuddur. Xüsusilə 1990-cı illərdə Azərbaycan müəyyən çətinliklərlə üzləşəndə, Somali də belə çətinliklərlə üzləşib. Xoşbəxtlikdən, Əlhəmdülillah, Azərbaycan xalqı dünyanın bu hissəsində sabit və firavan bir ölkə kimi qalib gəlməyə müvəffəq olub.

Biz Azərbaycanın qazandığı təcrübəni bölüşmək istərdik və Sizin praktik təcrübənizi öyrənməyə hazırıq. Cənab Prezident, qeyd etdiyiniz bütün əməkdaşlıq sahələri hər ikimiz və xüsusilə də Somali üçün çox faydalıdır. Somali çətin dövrdən çox parlaq gələcəyə keçid edən ölkədir. Somali zəngin resursları və böyük potensialı olan ölkədir. Lakin şərait inkişaf etməyə imkan verməyib. Azərbaycan kimi yaxşı tərəfdaşlarla ölkəmizin potensialı üzə çıxacaq və o, proqnozlaşdırılabilən olacaq. Azərbaycandan öyrənə biləcəyimiz digər əsas sahələr proqnozlaşdırılabilən siyasət və proqnozlaşdırılabilən inkişaf siyasətidir.

Bu gün imzaladığımız sazişlər Azərbaycanın təcrübəsindən istifadə etmək üçün strukturlu çərçivə rolunu oynayır, həmçinin ölkələrimiz və xalqlarımız üçün yeni imkanlar açır. Bu müqavilələrdən başqa, bizim bugünkü əməkdaşlığımız ölkələrimiz arasında möhkəm iqtisadi və diplomatik münasibətlərin əsasını qoyur. Somali Azərbaycanın enerji, infrastruktur, təhlükəsizlik və təhsil sahələrində liderliyini yüksək qiymətləndirir. Azərbaycanla bilik mübadiləsi və investisiya tərəfdaşlığı böyük fayda əldə edə biləcəyimiz sahələrdir.

Eynilə Azərbaycan Somaliyə Afrikanın inkişaf edən bazarlarına, xüsusilə də ticarət və logistika sahələrində qapı kimi baxa bilər. Somalinin Hind okeanında və Qırmızı dənizdə strateji olaraq yerləşməsi ölkələrimiz üçün iqtisadi faydaların paylaşıla və araşdırıla biləcəyi qiymətli strateji ərazidir.

Cənab Prezident, bu gün, sadəcə, başlanğıcdır. Somali və Azərbaycan təkcə iqtisadi artım və təhlükəsizlik üçün baxışı bölüşmür. Biz xalqlarımız üçün daha yaxşı gələcək yaratmaq naminə möhkəmlik, qətiyyət və ambisiya ruhunu bölüşürük.

Zati-aliləri cənab Prezident, mən nümayəndə heyətlərinin səfərləri, ticarət mübadiləsi yolu ilə əlaqələrimizin daha da möhkəmlənməsini arzu edirəm. Somalinin texniki heyətləri Azərbaycana səfər etməyə və Azərbaycan hökumətinə, Azərbaycanın özəl sektoruna Somalidə mövcud olan və yeni yaranan imkanları təqdim etməyə hazırdır.

Cənab Prezident, bir daha Sizə minnətdarlığımı bildirirəm və Azərbaycan hökumətinə göstərdiyi səmimi qonaqpərvərliyə görə minnətdarlığımı bildirir, xalqlarımız arasında daha möhkəm, əmin gələcəyin olmasını arzulayıram.

İnşallah, Sizi müəyyən bir vaxtda Somalidə qarşılamağa ümid edirik.

Çox sağ olun, cənab Prezident.

Somali Prezidenti Hasan Şeyx Mahmudun Azərbaycana rəsmi səfəri

# Azərbaycan - Somali dostluq münasibətlərində yeni səhifə

## Prezident İlham Əliyevin Somali Prezidenti ilə lanç əsnasında geniş tərkibdə görüşü olub



Fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud ilə lanç əsnasında geniş tərkibdə görüşü olub.

## Somali Prezidenti Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini anıb



Ölkəmizdə rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud fevralın 12-də Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb. Həmçinin tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirələri yad edilib, məzarları üstünə gül dəstələri qoyulub.

## Somalidə "ASAN xidmət" təcrübəsi tətbiq ediləcək









**Fevralın 12-də Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev qonağa Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılmış "ASAN xidmət" mərkəzləri və sosial innovasiyalar istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

Ali qonağa "ASAN xidmət" modeli ilə bağlı təqdimat edilib. Hazırda Azərbaycanın intellektual brendinin 20-dən çox ölkəyə ixrac edildiyi diqqətə çatdırılıb.

Hasan Şeyx Mahmud Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə yaradılan "ASAN xidmət"in onda yüksək təəssürat yaratdığını və əhalinin dövlət xidmətlərinə əlçatanlığının təmin edilməsində mühüm rol oynadığını vurğulayıb. Həmçinin o, "ASAN xidmət"in dövlət xidmətlərinin göstərilməsi sahəsində ən yüksək peşəkarlıq və səmərəlilik səviyyəsi olduğunu, burada vətəndaşların işlərini sürətləndirmək üçün yaxşı imkanların yaradıldığını bildirib. Somali Prezidenti Azərbaycan təcrübəsi əsasında ölkəsində dövlət xidmətləri mexanizminin yenilənməsinə və bununla bağlı verilən dəstəyə görə Azərbaycan Prezidentinə minnətdarlığını ifadə edib.

Həmçinin ali qonağa "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, Səyyar ASAN xidmət, "ABAD" publik hüquqi şəxsin fəaliyyəti ilə əlaqədar ətraflı məlumat verilib.

Qeyd edək ki, bu gün Azərbaycan Respublikası ilə Somali Federativ Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Somali Prezidenti Hasan Şeyx Mahmudun iştirakı ilə mübadiləsi mərasimi olub.

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Somali Federativ Respublikasının Prezidentinin Ofisi arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və Somali Prezident Aparatının rəhbəri Abdihakim Mohamed Yusuf mübadilə ediblər.

## *Prezident Hasan Şeyx MAHMUD*: "ASAN xidmət" dövlət xidmətləri sahəsində ən yüksək peşəkarlıq səviyyəsidir

**"ASAN xidmət" əla təcrübədir və biz onun fəaliyyəti ilə bağlı çoxlu məlumat əldə edə bildik. Bu, dövlət xidmətlərinin göstərilməsi sahəsində ən yüksək peşəkarlıq və səmərəlilik səviyyəsidir. Burada vətəndaşların işlərini sürətləndirmək üçün yaxşı imkanlar yaradılıb.**

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud deyib.



"Biz somalili olaraq azərbaycanlı qardaşlarımızın və Azərbaycan hökumətinin atdığı addımları yaxından izləmək qərarına gəldik. Azərbaycan rəhbərliyi Somaliyə öz ictimai xidmətində yeniliklər yaratmaqda dəstək verəcəyini vəd etdi. Biz bunu mümkün qədər tez etmək niyyətindəyik. Somali bərpaolunan və sürətlə inkişaf edən bir ölkədir. Bizim bu cür xidmətlərə ehtiyacımız var və ona görə də düşünürəm ki, Azərbaycanın təcrübəsindən yararlanacağıq", - deyə Hasan Şeyx Mahmud fikirlərinə yekun vurub.

## Somali Prezidenti Bakıda Zəfər parkını ziyarət edib






**Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud fevralın 12-də Bakıda Zəfər parkını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Somali Prezidenti parkdakı Zəfər abidəsinin önünə əklil qoydu.

Sonra ali qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verildi. Bildirildi ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

Xatırladaq ki, 2024-cü il noyabrın 8-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə parkın açılışı olub.

# "Mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm"

## Prezident İlham Əliyev Davosda Çinin CGTN telekanalına müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibə verib. Dövlətimizin başçısının müsahibəsi fevralın 11-də bu televiziya kanalında yayımlanıb. AZƏRTAC həmin müsahibənin geniş variantını təqdim edir.**



**Aparıcı: Cənab Prezident, Sizinlə yenidən Davosda görüşmək böyük şərəfdir.**

**Prezident İlham ƏLİYEV:** Sizi görməyə çox şadam. Mən əvvəlki görüşümüzü xatırlayıram. Sizin auditoriya ilə söhbət etmək imkanına görə sizə təşəkkür edirəm.

**Aparıcı: Siz sağ olun, Cənab Prezident. Çoxqütblü dünyada biz öz arzularımızı və planlarımızı necə görürük? Əminəm ki, daimi dəyişikliklər baş verir, ancaq təməl aspektlər də var. Siz bu məsələləri necə görürsünüz?**

**Prezident İlham ƏLİYEV:** Ölkəmiz üçün son illərin ən mühüm nailiyyəti ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası oldu. Biz bunu beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, BMT Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həyata keçirdik. Demək olar ki, 30 il ərzində bu, bizim milli ideyamız idi və biz hədəfimizə nail olmaq, ədaləti bərpa etmək üçün bütün səylərimizi səfərbər etdik. Əfsuslar olsun ki, beynəlxalq hüququn normaları işləmədi və beynəlxalq təşkilatlar yardımçı olmadılar. Çünki çoxsaylı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr, sadəcə, kağız üzərində qalmışdı. Biz bunu özümüz həll etməli, ədaləti özümüz bərpa etməli olduq. Bu, bir daha onu nümayiş etdirir ki, indi dünyanın həqiqətən də beynəlxalq öhdəliklərə tam hörmət edilməsinə ehtiyacı var.

**Aparıcı: Aydındır. Cənab Prezident, Sizcə çoxqütblü dünyada Azərbaycanın yeri haradadır?**

**Prezident İlham ƏLİYEV:** Biz ən başdan, müstəqilliyimiz bərpa ediləndən bəri olduğumuz yerdəyik. Biz güclü iqtisadiyyat, yeri gəlmişkən, özünü təmin edən iqtisadiyyat qurduq. Ümumi daxili məhsula (ÜDM) nisbətdə xarici borcun səviyyəsi çox aşağıdır, cəmi 6,9 faizdir. Buna əsaslanaraq biz regionda bağlantılar yaradan genişmiqyaslı layihələr həyata keçirmişik və aid olduğumuz Cənubi Qafqaz və Xəzər regionunda etibarlı mövqe tutmuşuq. Əlbəttə ki, milli maraqlarımızı, həyat tərzimizi və müstəqil siyasətimizi qəti şəkildə müdafiə etmişik və çoxlu uğur qazanmışıq. Mən deyərdim ki, dünya xəritəsində nisbətən yeni olan Azərbaycanın öz milli maraqlarını müdafiə edən və bütün dünyada yaxşı əlaqələr quran ölkə kimi nümunəsi onu göstərir ki, cəmiyyətdə sabitlik, birlik varsa, siz öz maraqlarınızı müdafiə edə bilərsiniz.

**Aparıcı: Cənab Prezident, Azərbaycanın hüdudlarından kənara baxdıqda ölkənizi çox proaktiv beynəlxalq oyunçu kimi görmək mümkündür. Məsələn, siz Ümumdünya Ticarət Təşkilatına üzv olmaq istəyirsiniz. Yeri gəlmişkən, bununla bağlı son vaxtlar Çinlə müzakirələr aparırsınız. Siz, həmçinin qlobal iqlim sammitinə evsahibliyi etdiniz. Bu, nəhəng bir tədbir idi və bu siyahını davam etdirmək olar. Azərbaycanın proaktiv yanaşmasını görmək olar. Əminəm ki, cənab Prezident, Sizin planlarınız var və Siz irəliləməklə bağlı ətraflı düşünürsünüz.**

**Prezident İlham ƏLİYEV:** Sözsüz ki, bizim hədəfimiz Azərbaycanın dünyanın siyasi və iqtisadi xəritəsində öz yerini tutmasından ibarət idi. Təxminən 200 ölkəni bir araya gətirən iqlim konfransına evsahibliyi etmək böyük çağırış, böyük məsuliyyət, eyni zamanda böyük nailiyyət idi. Azərbaycanın şaxələnmiş xarici siyasətinin daha bir nümayişi ondan ibarət idi ki, bizim namizədliyimiz bütün iştirakçı dövlətlər və qurumlar tərəfindən dəstəkləndi.

**Aparıcı: Təbriklər.**

**Prezident İlham ƏLİYEV:** Demək olar ki, təqribən 200 ölkə və beynəlxalq təşkilat Azərbaycanın namizədliyini yekdilliklə dəstəklədi. Bundan əvvəl biz 120 ölkəni birləşdirən, BMT Baş Assambleyasından sonra ikinci böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına 4 il ərzində uğurla sədrlik etdik. Bu onu göstərir ki, bizim dostluğa, əməkdaşlığa, heç bir ölkənin daxili işlərinə qarışmamağa əsaslanan siyasətimiz həqiqətən də beynəlxalq arenada dəstəklənir. Ona görə də biz belə qlobal, beynəlxalq bir tədbirə evsahibliyi edə bilərik.

**Aparıcı: Bir çoxları Ümumdünya Ticarət Təşkilatına daxil olmaqla bağlı müzakirələrinizi diqqətlə izləyir. Bu, böyük bir prosesdir, elə deyilmi?**

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Aparıcı: İndi elə bir vaxt gəlib çatıb ki, proteksionizm daha da intensivləşib. Siz, həmçinin bəzi iqtisadiyyatların tarif alətindən istifadə etdiyinin, hətta bəzən digər iqtisadiyyatlara qarşı vahid tariflərin tətbiqinin şahidi olursunuz, eyni zamanda qlobal təchizat zənciri müəyyən mənada pozulur. Nə üçün məhz indi Azərbaycan Ümumdünya Ticarət Təşkilatına daxil olmağın bu qədər vacib olduğunu düşünür?**

**Prezident İlham ƏLİYEV:** Əslində, bunun cavabı elə sizin sualınızdadır. Biz hələ də Ümumdünya Ticarət Təşkilatının üzvü deyilik, baxmayaraq, uzun illərdir, deyərdim, bir neçə onilliklərdir ki, danışıqların aktiv mərhələsindəyik. Bu prosesin məntiqi yekunlaşmamasının səbəbi sırf sizin dediklərinizdir. Proteksionizm, ikili standartlar, tariflər - bütün bunlar Ümumdünya Ticarət Təşkilatının təməl dəyərlərinə ziddir. Biz görürük ki, ölkələr öz bazarlarını qorumaq üçün tarifləri tətbiq edir, proteksionizm üsullarından istifadə edirlər və bu da Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə tamamilə ziddir.

Buna görə də biz danışıqlar prosesindəyik. Lakin, eyni zamanda biz üstünlükləri və zəif tərəfləri ciddi qiymətləndiririk. Bizi narahat edən məqamlardan biri bizim indi müzakirə etdiyimiz mövzudur. Digəri isə ondan ibarətdir ki, bizim sənayemiz və ixrac potensialımız bunun üçün yaxşı hazır olmalıdır. Çünki bu vaxtadək bizim ixracın əsas hissəsi qazıntı enerji növləridir. Bunun üçün Ümumdünya Ticarət Təşkilatına üzv olmaq lazım deyil. Ölkə əmtəələrini bazarda satır.

Beləliklə, bazarlarını bütün dünyaya açmaqla Ümumdünya Ticarət Təşkilatına üzv ölkələr rəqabəti artıracaq. Lakin, eyni zamanda onlar yerli istehsalçıların maraqlarına ziyan vura bilərlər. Beləliklə, biz bu prosesi balanslaşdırırıq və gələcək danışıqlar prosesində maksimum müsbət şərtləri əldə etməyə çalışırıq. Mən artıq demişəm ki, Azərbaycanın iqtisadiyyatı özünü təmin edir. Bizim ÜDM-ə münasibətdə ən aşağı səviyyəli xarici borcumuz var. Bizim konvertasiya oluna bilən valyuta ehtiyatlarımız xarici borcumuzu 14 dəfə üstələyir. Beləliklə, hər hansı əlavə bir imtiyaz lazım deyil. Biz malik olduqlarımızı itirmək istəmirik. Lakin, eyni zamanda təşkilata qoşulma ilə bağlı bütün təkliflərimiz, - istər ikitərəfli əlaqələr istiqamətində ölkələrlə danışıqlar prosesində, istərsə də ümumilikdə təşkilatla bağlı, - qəbul olunarsa, hesab edirəm ki, proses daha da rəvan gedər.

**Aparıcı: Mənim bildiyimə görə, son xəbərlərə əsasən, Azərbaycanın danışıqlar komandası Çinin danışıqlar komandası ilə təmasdadır, o cümlədən yanvar ayında. Mən hər iki tərəfdən müsbət reaksiya görürəm.**

**Prezident İlham ƏLİYEV:** Bəli, bu, həqiqətdir. Çünki bildiyiniz kimi, ötən il Çin və Azərbaycan rəsmi olaraq strateji tərəfdaş oldular. Ötən yay mənim Çinin sədri ilə görüşümdən sonra strateji tərəfdaşlıq üzrə müvafiq bəyannamə qəbul edildi və bu, bizim ikitərəfli əlaqələrdə çox mühüm siyasi addımdır. Strateji tərəfdaşlıq çox yüksəksəviyyəli qarşılıqlı etimad, əməkdaşlıq deməkdir və biz təkcə Ümumdünya Ticarət Təşkilatına deyil, müxtəlif beynəlxalq təşkilatlara qoşulma məsələsi daxil olmaqla Çin ilə tərəfdaşlığımızın genişləndirilməsini arzulayırıq.

**Aparıcı: Sizinlə artıq növbəti suala gəldik, cənab Prezident. Biz Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında müşahidəçi qismində olduğunu görürük. Bu arada Siz BRICS-in üzvü olmaq üçün fəal addımlar atırsınız. Beləliklə, təhlükəsizlik, ticarət, iqtisadi inkişaf və hər kəs üçün uduşlu bir vəziyyət nöqteyi-nəzərindən Qlobal Cənubla bağlı olan müzakirələri necə görürsünüz?**

**Prezident İlham ƏLİYEV:** Əslində, Şanxay Əməkdaşlıq Təşkilatına gəldikdə, ölkəmizin statusu müşahidəçi deyil, dialoq üzrə tərəfdaşdır. Bu, həmin beynəlxalq təşkilatla daha da yaxın olmaq üçün güclü qarşılıqlı iradənin nümayişidir. Əlbəttə ki, beynəlxalq təşkilatlarla işləyəndə və ya onlarla daha yaxın olmaq istəyəndə siz təşkilatın tərkibinə, üzv ölkələrinə nəzər salırsınız. Şanxay Əməkdaşlıq Təşkilatının və BRICS-in bütün üzv dövlətlərinin Azərbaycanla çox yaxşı və dost münasibətləri var. Bundan başqa, bizim coğrafi mövqeyimiz, Cənubi Qafqaz və Xəzər regionunda vahid məqsədlərə töhfəmiz nöqteyi-nəzərindən əhəmiyyətli olacaq. Əlbəttə ki, Çin və Mərkəzi Asiya ölkələri ilə üzərində fəal iş apardığımız məsələlər, həmçinin bağlılıq layihələridir. Çünki Azərbaycan artıq müasir nəqliyyat infrastrukturu ilə Şərqdən Qərbə gedən yol üzərində yerləşir. Beləliklə, biz praktiki nəticələr nöqteyi-nəzərindən çoxlu töhfə verə bilərik.

Əlbəttə ki, istənilən təşkilata qoşulmaq siyasi addımdır, lakin həmin iqtisadiyyat ölkələri daha da birləşdirən praktiki infrastruktur layihələri ilə dəstəklənməlidir. Qlobal Cənubun bir hissəsi olaraq biz Qlobal Cənubun maraqlarını müdafiə etmişik və yeri gəlmişkən, COP29-a qayıdaraq bizim ideyalarımızdan biri Qlobal Cənubla Qlobal Şimal arasında daha möhkəm körpülər qurmaq idi. Çünki COP29-a evsahibliyi edən ölkə kimi biz gördük ki, iqlim məsələlərinə gəldikdə, hər iki tərəf müəyyən səviyyədə bir-birinə etibar etmir və söhbət təkcə iqlimdən getmir.

**Aparıcı: Bundan əlavə, boşluq xeyli böyükdür.**

**Prezident İlham ƏLİYEV:** Elədir.

**Aparıcı: İndiyədək daha nələri müşahidə etmisiniz?**

**Prezident İlham ƏLİYEV:** Əslində, biz iqlim dəyişikliyi ilə bağlı məsələlərlə dərindən məşğul olmağa başlayanda iqlim dəyişikliyi səbəbindən ekzistensial təhlükə ilə üzləşən ölkələrdə yüksək dərəcədə narazılığın olduğunu gördük. Biz hamımız bundan əziyyət çəkirik, o cümlədən Azərbaycan. Lakin elə ölkələr var ki, - xüsusilə kiçik ada dövlətləri, - onların mövcudluğuna təhlükə var. Bəzən onların məsələsi gündəliyə daxil olmur, biz isə bunu etdik. Bakıda keçirilən COP29-da ən mühüm tədbirlərdən biri inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Zirvə görüşü idi. Orada Azərbaycan bu ölkələrə əməli dəstək göstərmək üçün çox iddialı gündəlik irəli sürdü. Aydın məsələdir ki, böyük aktorların birgə yanaşması olmadan həmin ölkələri və iqlim məsələləri ilə məşğul olmaq üçün maddi ehtiyatları olmayan ölkələri dəstəkləmək çətin olacaq. Düşünürəm ki, üzərinə bu yükü götürən ölkələrin məsuliyyəti daha çox iş görməkdir. Qlobal Cənub tamamilə obyektiv olaraq dünyanın ən zəngin ölkələrindən daha çox dəstək gözləyir.

**Aparıcı: Cənab Prezident, Sizin xüsusilə qeyd etdiyiniz kimi, maliyyədə boşluq var idi. Maliyyədəki bu boşluq, xüsusilə inkişaf etmiş iqtisadiyyata malik ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələrə bundan əvvəl verilərək yerinə yetirilməmiş vədlərlə bağlı idi. Lakin görünür ki, dünya daha çox ziddiyyətli olur, daha çox parçalanır. Bunu bəziləri etimad çatışmazlığı da adlandırırlar. Bu keçid dövründə, siyasi etimadın azala biləcəyi bir vaxtda bir Lider ölkəsi üçün necə qərar qəbul edir? Düşünürəm ki, söhbət ciddi təzyiq və ətraflı dəyərlənmədən gedir.**

**Prezident İlham ƏLİYEV:** Zənnimcə, Azərbaycanın müxtəlif mühitlərdə özünü rahat hiss etməsinin əsas amillərindən biri ondan ibarətdir ki, biz üzərimizə düşənlərlə əlaqədar artıq xeyli iş görmüşük. Biz sabit iqtisadiyyat qurmuşuq, sabit siyasi sistemimiz var, insanların yaşayış səviyyəsini yaxşılaşdıran çoxlu sosial proqramlar həyata keçiririk, yoxsulluq səviyyəsini təxminən 5 faizə endirməyə nail olmuşuq və müxtəlif beynəlxalq aktorlarla güclü tərəfdaşlıq və əlaqələrlə biz müəyyən vasitəçi rolunu oynayırıq.

Mən artıq Çinlə olan strateji tərəfdaşlıq Bəyannaməmizlə bağlı danışdım. Lakin, eyni zamanda biz Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşlıq bəyannaməsi imzalamışıq. Türkiyə, Özbəkistan və Rusiya ilə müttəfiqlik bəyannaməsi imzalamışıq. Şaxələnmiş bu xarici siyasət istiqaməti, sadəcə, siyasətə deyil, mahiyyətə əsaslanır. Hər bir sahədə bizim əməli nəticələrimiz, əməkdaşlıq proqramlarımız var. Digər ölkələr kimi bizim də xarici siyasətimiz, sadəcə olaraq, daxili siyasətimizin davamıdır. Azərbaycanın təkcə Mərkəzi Asiya, Xəzər və Cənubi Qafqazda deyil, daha geniş coğrafiyada regional sabitliyə, regional sülhə verdiyi töhfə artıq qlobal, beynəlxalq aktorlar tərəfindən yüksək qiymətləndirilir.

Bizim mövqeyimiz ondan ibarətdir ki, əgər hər bir ölkə diqqətini, sadəcə, öz gündəminə yönəltsə, başqa ölkənin işlərinə müdaxilə etməyə çalışmasa, münaqişələr, narazılıqlar, müharibələr olmaz. Bütün dünyada hələ də qeyri-sabit vəziyyətin olmasının və qan tökülməsinin yeganə səbəbi ondan ibarətdir ki, imperialist keçmişi olan ölkələr, sadəcə olaraq, müdaxilə etməyə, dominantlıq etməyə, diktə etməyə davam etmək istəyir və bu, təbii olaraq, müqavimətə gətirib çıxarır.

Biz özümüzü daxili işlərə müdaxilədən qorumağa müvəffəq olduq. Lakin heç də hər bir ölkə bunu etmək üçün potensiala malik deyil. Əgər ölkə iqtisadi cəhətdən asılıdırsa, o zaman sözsüz ki, onun müqavimət göstərmək və öz milli maraqlarını müdafiə etmək üçün daha az imkanı olacaq. İqtisadiyyat hər şeyin əsasını təşkil edir. İdeologiya, iqtisadiyyat və milli ideyalar - bunlar hamısı birlikdə Azərbaycanı bizim layiq olduğumuz yerə gətirib çıxardı.

**Aparıcı: Cənab Prezident, Siz Dünya İqtisadi Forumunun ilk günündən burada olduğunuza görə, artıq qarşıdakı bir neçə həftə və aylarla bağlı ciddi qeyri-müəyyənliyin və narahatlığın olduğunu hiss edə bilərsiniz. Məsələn, Vaşinqtonda administrasiya dəyişikliyi ilə əlaqədar insanlar onun yürüdəcəyi siyasətin necə ola biləcəyi barədə düşünürlər. Siz bununla əlaqədar qeyri-müəyyənliklərə və idarəçilik üslubuna necə baxırsınız?**

**Prezident İlham ƏLİYEV:** Mənim müşahidələrimə görə, əsas qeyri-müəyyənlik Avropa liderləri arasındadır. Azərbaycana gəlincə, bizdə heç bir qeyri-müəyyənlik yoxdur. Biz Prezident Trampın ABŞ-yə rəhbərlik etdiyi zamanı xatırlayırıq və son 4 ildə Bayden administrasiyasının Azərbaycana ədalətsiz yanaşması səbəbindən əlaqələrimizin tamamilə korlanmasından fərqli olaraq, bizim əlaqələrimiz çox uğurla inkişaf edirdi. Beləliklə, Prezident Trampla birgə işləməklə bağlı əvvəlki təcrübəmiz çox müsbət idi. Biz gözləyirik ki, ABŞ-Azərbaycan münasibətlərində itirilmiş illər hesab etdiyimiz bu 4 il artıq tarixə qovuşacaq və biz yenidən başlayacağıq.

Lakin Avropa liderləri arasında ciddi qeyri-müəyyənlik və deyərdim, ciddi narahatlıq var. Səbəbi isə çox sadədir. Biz hamımız onların bəzilərinin son 4 ildə cənab Tramp prezident olmadığı dövrdə ona necə münasibət göstərdiyini bilirik. Hamımız onların əksəriyyətinin budəfəki prezident seçkilərində kimi dəstəklədiyini bilirik. Əgər biz bunu biliriksə, sözsüz ki, Prezident Tramp bunu daha yaxşı bilir. Artıq mən deyərdim, ilk diskvalifikasiya var. Bu, Kanadanın Baş naziridir. Prezident Trampın onun barəsində dediyi cəmi bir kəlmə kifayət etdi ki, o, istefa versin.

Bu, yalnız müəyyən siyasi proseslər səbəbindən baş vermədi. Bu, ona görə baş verdi ki, bəzi Qərb liderləri Prezident Trampa qarşı çox ədalətsiz idilər və sözsüz ki, onlar narahatdırlar, indi onların buna görə cavabdeh olmasının vaxtı gəlib çatıb. Bu, mənim fikrimdir. Ola bilsin mən yanılıram. Lakin mən ABŞ-də dəyişikliklə bağlı narahat olmaq üçün başqa ciddi səbəb görmürəm. Düşünürəm ki, dünya daha təhlükəsiz ola bilər. Prezident Trampın ilk prezidentliyi dövründə ABŞ heç bir müharibəyə başlamadı. Əgər ABŞ-nin ən azı bir neçə onilliklər ərzində tarixinə nəzər salsaq, bu, nadir bir təcrübə idi. Azərbaycana gəlincə, biz əminik və nikbin fikirdəyik.

**Aparıcı: Siz, sözsüz ki, müşahidəçi kimi Çinlə ABŞ arasında qarşılıqlı əlaqələri necə görürsünüz? Cənab Trampın ABŞ-nin 47-ci prezidenti kimi andiçmə mərasimindən əvvəl Çin və ABŞ prezidentləri telefonla danışdılar. Onlar dünyanın təhlükəsizliyi və inkişafı naminə necə əməkdaşlıq edə biləcəkləri barədə danışdılar. Dünyanın böyük iqtisadiyyatına malik iki ölkəsi arasında qarşılıqlı əlaqələri necə görürsünüz?**

*Ardı 6-cı səh.*

# "Mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm"

## Prezident İlham Əliyev Davosda Çinin CGTN telekanalına müsahibə verib



*Əvvəli 5-ci səh.*

**Prezident İlham ƏLİYEV:** Bəli, bu, dünya üçün çox yaxşı bir xəbər idi ki, Çin və ABŞ rəhbərləri yenidən təmasdadırlar.

**Aparıcı: Siz onların ikisini də kifayət qədər yaxşı tanıyırsınız?**

**Prezident İlham ƏLİYEV:** Sədr Sini daha yaxşı tanıyıram, çünki onunla dəfələrlə görüşmüşəm. Prezident Trampla rəsmi görüşüm olmayıb, sadəcə, bir-birimizin əlini sıxmışıq. Bununla belə, bu, dünya, dünya iqtisadiyyatı, sabitlik üçün yaxşı bir işarə, siqnaldır. Çünki Çin və ABŞ dünyanın iki ən böyük iqtisadiyyatına malik aparıcı ölkələrdir. Əlbəttə ki, müxtəlif məsələlərdə onların arasında konsensusun olması, qarşıdurmanın deyil, əməkdaşlığın olması sözsüz ki, bütün ölkələrin xeyrinə olacaq. Ona görə də biz həmin telefon danışığı barədə xəbər aldıqda bundan məmnun olduq. Ümidvarıq ki, bu sıx tərəfdaşlıq prosesi davam edəcək.

**Aparıcı: Xatırlayıram ki, bir neçə il bundan əvvəl, elə Dünya İqtisadi Forumunda mən, Cənab Prezident, Sizin Orta dəhlizin potensialı barədə ətraflı şəkildə danışdığınız panel sessiyaya moderatorluq etmək şərəfinə nail olmuşdum. Həmin ili xatırlayırsınız, elə deyilmi?**

**Prezident İlham ƏLİYEV:** Bəli, əlbəttə.

**Aparıcı: Siz region və region hüdudlarından kənar siyasi və biznes liderləri ilə birlikdə idiniz.**

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Aparıcı: İllər keçdi və bu, baxışdan reallığa çevrilir.**

**Prezident İlham ƏLİYEV:** Doğrudur.

**Aparıcı: Sizinlə yanaşı, bir çox tərəfdaşlarınız, o cümlədən Çin bu yolun əhəmiyyətini daha da artırdı. Orta dəhlizin əhəmiyyəti Sizcə nədədir? Çin və sözsüz ki, digər tərəfdaşların da iştirakı ilə bu, bir növ regionu canlandırıb. Bu, parçalanmadan narahat olan dünyaya necə alternativ təklif edir?**

**Prezident İlham ƏLİYEV:** Bəli, bu, sözsüz ki, alternativ təklif edir. Bu, biznes imkanlar təmin edir. Çünki Azərbaycanın Orta dəhlizlə bağlı mövqeyi, sadəcə, tranzit ölkəsi olmaq və tranzitdən ödənişlər almaqdan ibarət deyil. Bizim hədəfimiz özəl sektora bundan faydalanmağa kömək etmək üçün dəhlizin keçdiyi Azərbaycan ərazisində müəssisələr yaratmaqdır. Əlbəttə ki, sizin istinad etdiyiniz paneldən bəri bu sahədə, o cümlədən Çin-Azərbaycan münasibətlərində bir çox hadisələr baş vermişdir. Artıq qeyd etdiyimiz kimi, biz strateji tərəfdaşıq, lakin, eyni zamanda Orta dəhlizin Azərbaycan seqmentinin infrastrukturu təkmilləşdirilmişdir. Hazırda biz görürük ki, bu təkmilləşdirilmiş infrastruktur gələcək 3-5 il üçün kifayət etməyəcək.

**Aparıcı: Bəli, mən görürəm, Sizin həmişə yeni məqsədləriniz var.**

**Prezident İlham ƏLİYEV:** Bəli, elədir ki, var. Çünki bizim hədəfimiz ticarət limanında 15 milyon ton yükaşırma qabiliyyətinə malik olmaq idi və bu da onilliklər ərzində yetərli olardı. Lakin indi biz ola bilsin ki, növbəti 5-6 ildə 25 milyon ton yük qəbul etməyi gözləyirik. Beləliklə, biz hazırda dəniz ticarət limanımızın və dəmir yolu infrastrukturumuzun genişləndirilməsini maliyyələşdiririk.

Biz Mərkəzi Asiyada bağlantı layihələrinin də əsasən Çin hökuməti tərəfindən maliyyələşdirildiyini bilirik. Xəzər dənizinə digər bir marşrut Azərbaycana gedən digər marşrutdur və biz buna mütləq hazır olmalıyıq. Əminəm ki, Sədr Si Cinpinin "Bir kəmər, bir yol" təşəbbüsü bütün ölkələr üçün əlavə imkanlar yaradacaq. Bir daha söhbət bağlantıdan, biznes imkanından, sabitlik və təhlükəsizlikdən gedir. Çünki biz hamımız bir-birimizdən asılı oluruq. Bizi birləşdirən vacib infrastruktur layihələri var. Bu, ölkələr arasında həm ikitərəfli, həm də çoxtərəfli əlaqələr istiqamətində bir sıra məsələlərin həlli üçün yaxşı bir mühitdir.

**Aparıcı: Çin "yaşıl texnologiya" sahəsində sürətlə inkişaf edir və əlbəttə ki, öz təcrübəsini dünya ilə bölüşür. Mən onu da anlayıram ki, Sizin çox aktiv "yaşıl gündəliy"iniz var. Məsələn, Çinlə birlikdə müəyyən elektrik stansiyalarının üzərində iş gedir. Zəngin qazıntı enerji növlərinə malik olan ölkənizin, iqtisadiyyatınızın "yaşıl enerji"yə baxışı necədir?**

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, qazıntı enerji növlərinə malik olan ölkələrin məsuliyyəti əldə etdikləri gəlirləri "yaşıl texnologiya"ya və "yaşıl enerjiyə" investisiya etməkdən ibarətdir. Biz məhz bunu edirik. Biz investorlar üçün yaxşı investisiya mühitini yaratdıq. Bizim 2027-ci ilə qədər olan hədəfimiz 2 qiqavat həcmində günəş və külək elektrik enerjisini hasil etməkdir. 2030-cu ilə qədər isə bu hədəf 6 qiqavatdır. Bu, Azərbaycanda enerji sahəsində bir inqilab olacaqdır. Onu da qeyd etmək istəyirəm ki, bu layihələrə sərmayə yatıran xarici şirkətlər olan investorlar, o cümlədən Azərbaycandan olan yerli şirkətlər Çin texnologiyasından istifadə edirlər. Günəş panelləri Çində istehsal olunur. İndi bizim heyətlərimiz enerjinin tədarükü imkanları üzərində işləyirlər və biz ən yaxşı batareyaların Çində istehsal olunduğunu müəyyən etmişik. Mən bu möhtəşəm uğur münasibətilə Çin istehsalçılarını təbrik edirəm. Çünki burada söhbət məhsulun keyfiyyəti və qiymətindən gedir. Heç kim bu rəqabəti apara bilmir.

**Aparıcı: Bu, xüsusilə Qlobal Cənub ölkələri üçün vacibdir.**

**Prezident İlham ƏLİYEV:** Bəli. İndi Çin şirkətləri təkcə xidmət və texnologiyaların təmin edilməsində yox, həmçinin Azərbaycana investisiya yatırmaqda maraqlıdırlar və bu proses artıq gedir. COP29-da biz Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında Xəzər dənizinin dibi ilə enerji kabelinin çəkilməsi barədə bir müqavilə imzaladıq. Beləliklə, biz Mərkəzi Asiya ilə Azərbaycanı və potensial olaraq Çini enerji kabeli ilə bir-biri ilə bağlayacağıq. Digər bir layihədə belə bir kabel xətti Qara dənizin dibi ilə Azərbaycandan Avropaya uzanacaq.

Bu, növbəti bir bağlantı layihəsidir. Bu, "yaşıl enerji" üçün bir dəhlizdir və onun nəhəng potensialı var. Çünki Azərbaycanın külək və günəş enerjisi potensialı artıq bəllidir və bu, bizim təsəvvürə gətirə biləcəyimizdən qat-qat artıqdır. Beləliklə, bizə bazarlar, texnologiya və əməkdaşlıq lazımdır. Çünki qonşu ölkələr arasında əməkdaşlıq olmadan bu layihələrin icrası mümkün deyil. Beləliklə, potensial buradadır və siz qeyd etdiyiniz kimi, Azərbaycan "yaşıl keçid"də çox fəal rol oynayır.

**Aparıcı: Bu necə olur, prosesin hər bir mərhələsində Azərbaycan və Çin bir-biri ilə təmasda olur. Bu heyrətamizdir, elə deyilmi?**

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Aparıcı: Hər iki ölkə həmişə bir-birini öz planlarına daxil edir.**

**Prezident İlham ƏLİYEV:** Bu, həqiqətən də ciddi geosiyasi sinerjiyə çevrilib.

**Aparıcı: İndi qeyd edilmiş strateji tərəfdaşlıq hər şeyi təkmilləşdirir.**

**Prezident İlham ƏLİYEV:** Bəli, elədir ki, var. Həmçinin bu yaxınlarda biz Çin vətəndaşlarını viza almaq tələbindən azad etdik. Beləliklə, indi Çin vətəndaşları heç elektron viza üçün də müraciət etmək məcburiyyətində deyillər. Ümidvarıq ki, tezliklə Azərbaycan vətəndaşları da bu fürsətdən yararlanacaq. Beləliklə, bu, turistlərin sayını, xalqlar arasında təmasları artıracaq və əlbəttə ki, ictimai diplomatiya öz rolunu oynayacaq. İndi biz rəsmi diplomatik kanallardan istifadə edirik - siyasi, iqtisadi, ticari, investisiya, bağlantı. Lakin ictimai diplomatiya buna çoxlu töhfə verəcəkdir.

**Aparıcı: Sonda iki sualım var. Birincisi, Çin iqtisadiyyatı ilə bağlıdır. Bildiyiniz kimi, cənab Prezident, Azərbaycan və Çin xüsusilə iqtisadi-ticari sahədə bir-biri ilə sıx əməkdaşlıq edirlər. Çin iqtisadiyyatı keçid dövrünü yaşayır. O, yeni inkişaf nöqtələrini axtarır və eyni zamanda böyük potensiala malikdir. Çin iqtisadiyyatının cari vəziyyəti haqqında nə düşünürsünüz və Qlobal Cənub iqtisadiyyatı olaraq Siz Çində bu iqtisadiyyatın xüsusiyyətində nəyi görürsünüz?**

**Prezident İlham ƏLİYEV:** Mən bildiyimə görə, - mən yeni planlar haqqında dərindən məlumatlı deyiləm, lakin bizim müşahidə etdiklərimizə əsasən, - Çin iqtisadiyyatı çox sabitdir və bu, qlobal iqtisadiyyatın mühüm bir amilidir. Qazıntı enerji növləri üzrə sabit qiymətlərə ehtiyacı olan Azərbaycan kimi ölkə üçün Çin iqtisadiyyatı da mühüm bir amildir. Çin iqtisadiyyatı sürətlə inkişaf etdikcə, qazıntı enerji növünə olan tələbat daha da artır. Odur ki, biz Çin iqtisadiyyatının həmişə inkişaf etməsi nöqteyi-nəzərindən maraqlıyıq. Lakin bu, asan deyil. Çünki iqtisadiyyatınız ildən-ilə artdıqca, müəyyən bir təməl həcmə nail olunur və ondan sonra iqtisadiyyatın artırılmasına davam etmək o qədər də asan olmur.

**Aparıcı: Gözləntilər də çox böyük olur.**

**Prezident İlham ƏLİYEV:** Bəli, gözləntilər çox böyükdür. Lakin mən əminəm ki, istedadlı Çin xalqı bir həll yolunu tapacaqdır. Əminəm ki, onlar artıq yeni inkişaf nöqtələrinə çatıblar, çünki sizin ölkəniz texnologiyada liderdir və Azərbaycanda bir çox Çin şirkətləri öz xidmətlərini və texnologiyasını təmin edir. Bizim indicə müzakirə etdiyimiz kimi, "yaşıl texnologiya" sahəsində heç kim sizinlə rəqabət apara bilməz. Dünyanın müxtəlif yerlərindən olan, müxtəlif şirkətləri təmsil edən investorlarımız bu tutumları quraşdırmaq üçün Çin texnologiyasını seçirlər.

**Aparıcı: Cavabınız üçün təşəkkür edirəm. Son sualım. Deyə bilərəm ki, dünya çox sürətlə dəyişir. Lakin cənab Prezident, hər dəfə Sizinlə danışanda mənə elə gəlir ki, ölkəniz çox güclü təməl üzərində dayanıb. Mənə maraqlıdır, bu, təkcə özünüz barədə yox, bu gün olan liderlik haqqında nəyi bildirir? Xüsusilə bütün bu dəyişikliklərin baş verdiyi bir vaxtda.**

**Prezident İlham ƏLİYEV:** Liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. Bəzən müəyyən siyasi səbəblər üzündən hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır.

Lakin bizə gəldikdə, iyirmi ildən artıq müddət ərzində mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq. Həmişə xalqıma biz ədaləti bərpa edəcəyik söyləmişəm və xalqım da mənə inanıb. 17 il hakimiyyətdə olandan sonra biz, nəhayət, vəd etdiklərimizi yerinə yetirdik və suverenliyimizi, ərazi bütövlüyünü və ləyaqətimizi bərpa etdik. Beləliklə, ictimaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə məsləhətim o olardı ki, həmişə həqiqəti söyləyin və beynəlxalq təzyiqdən, beynəlxalq mediadan asılı olmayaraq, haqqınızda nə dediklərindən, sizi necə adlandırdıqlarından, sizi necə təhqir etmələrindən asılı olmayaraq, ölkəniz üçün doğru olanı edin. Beləliklə, siz özünüz və ölkəniz uğur qazanmış olacaqsınız.

**Aparıcı: Təşəkkür edirəm, cənab Prezident. Bildiyiniz kimi, bu il Dünya-İqtisadi Forumundan dərhal sonra Çin Yeni ili qeyd olunacaq. İstərdim ki, Siz öz çinli dostlarınıza və böyük Çin xalqına bu münasibətlə ürək sözlərinizi deyərək, bizi bu şərəfə nəsib edəsiniz.**

**Çin Yeni ilidir, ona Bahar bayramı da deyilir. Bu il ilan ilidir və insanlardan çevik olmasını tələb edir. Bu, bir ənənədir.**

**Prezident İlham ƏLİYEV:** Mən Çin xalqını Çin Yeni İli münasibətilə təbrik etmək və bütün dostlarımıza tərəqqi, sülh, sabitlik və səadət arzulamaq istəyirəm. Çin və Azərbaycan 6-7 ay bundan əvvəl strateji tərəfdaş oldular. Bu, hətta bundan daha da yaxşı dost olmaq üçün bizim qarşılıqlı iradəmizi nümayiş etdirən yüksəksəviyyəli tərəfdaşlıqdır. Fürsətdən istifadə edərək, çinli dostlarımızı Azərbaycanı ziyarət etməyə dəvət edirəm. Onlara bunu etmək üçün artıq viza tələb olunmur. Sadəcə, bilet alıb gələ bilərlər və Azərbaycanın necə inkişaf etdiyini görə bilərlər və özlərinə yeni dostlar qazana bilərlər. Əminəm ki, xalqlararası təmaslar ölkələrimizi və xalqlarımızı bir-birinə daha da yaxın edəcək. Yeni iliniz mübarək olsun!

**Aparıcı: Çox sağ olun, cənab Prezident. Ümid edirəm ki, bu il Azərbaycan xalqı üçün də möhtəşəm bir il olacaqdır.**

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Aparıcı: Çox sağ olun.**

# Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin (bundan sonra - Agentlik) Aparatının işçilərinin say həddi 214 ştat vahidi, regional bölmələrinin işçilərinin say həddi 105 ştat vahidi müəyyən edilsin.

4. Müəyyən edilsin ki:

4.1. Agentlik Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra - Xidmət) hüquqi varisidir, onun bütün hüquq və öhdəlikləri, habelə əmlakı Agentliyə keçir;

4.2. Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı təsdiq edilənədək Xidmətin strukturuna daxil olmayan tabeliyindəki qurumlar fəaliyyətini davam etdirirlər və onların strukturu, işçilərinin say həddi, vəzifə maaşları, əməyin ödənilməsi sistemi, xidmətkeçmə ilə bağlı hüquq və vəzifələri bu Fərmanın 5.1-ci bəndi icra olunanadək dəyişməz qalır;

4.3. ölkədə dövlət əyar nəzarətini və qiymətli metalların, qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi, habelə emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində dövlət nəzarətini, həmçinin emal edilməmiş almazın idxalına və ixracına rəy verilməsini Agentlik bilavasitə və tabeliyindəki qurumlar vasitəsilə həyata keçirir.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Agentliyin təklifləri əsasında, onun strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanı ilə ləğv edilmiş Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidmətinin əmlakının Agentliyin balansına verilməsini üç ay müddətində təmin etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

6.1. Xidmət üçün nəzərdə tutulmuş büdcədənkənar vəsaitin qalıq hissəsinin Agentliyə verilməsini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə təmin etsin;

6.2. Agentliyin cari ildə fəaliyyətinin təşkili üçün zəruri maliyyələşməni təmin etsin;

6.3. Agentliyin fəaliyyətinin təşkili üçün tələb olunan vəsaiti hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

7. "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61 (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529) aşağıdakı dəyişikliklər edilsin:

7.1. preambuladan "əyar," sözü çıxarılsın;

7.2. 10-cu hissə ləğv edilsin;

7.3. həmin Fərmanla təsdiq edilmiş Əlavə I - "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin strukturu"nun 6-cı hissəsi ləğv edilsin;

7.4. həmin Fərmanla təsdiq edilmiş Əlavə II - "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə" üzrə:

7.4.1. 1-ci hissədə ", qiymətli metalların və qiymətli daşların istehsalı, emalı və dövriyyəsi sahələrində" sözləri "sahəsində" sözü ilə əvəz edilsin;

7.4.2. 7-ci hissə üzrə:

7.4.2.1. 7.5-ci bənd ləğv edilsin;

7.4.2.2. 7.11-ci bənddən "qiymətli metallar və qiymətli daşlara nəzarət," sözləri çıxarılsın;

7.4.3. 8-ci hissə üzrə:

7.4.3.1. 8.53-cü bənddən "ölkədə əyar nəzarəti," sözləri çıxarılsın;

7.4.3.2. 8.56-cı bənd ləğv edilsin;

7.4.3.3. 8.67-ci bənddən "qiymətli metallar və qiymətli daşlar üzrə dövlət tənzimlənməsi," sözləri çıxarılsın;

7.4.4. 9.7-ci bənd ləğv edilsin;

7.4.5. 18.5-ci bənddən ", əyar nəzarəti və qiymətli metalların və qiymətli daşların istehsalı, emalı və dövriyyəsi" sözləri çıxarılsın.

8. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1590 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturu"nun 4-cü hissəsi ləğv edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1954 (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.1-ci bənddən "inhisarçılığın qarşısının alınması, haqsız rəqabətin aradan qaldırılması, istehlakçıların hüquqlarının qorunması, dövlət vəsaiti hesabına malların (işlərin və xidmətlərin) satın alınması," sözləri çıxarılsın;

9.2. 2.0.13-cü, 2.0.19-2.0.22-ci yarımbəndlər ləğv edilsin;

9.3. 3-cü hissə üzrə:

9.3.1. 3.0.14-cü yarımbənddən ", dövlət satınalmaları" sözləri çıxarılsın;

9.3.2. 3.0.21-ci yarımbənddə "və təbii inhisar subyektlərinin məhsullarının" sözləri "məhsulların" sözü ilə əvəz edilsin;

9.3.3. 3.0.82-3.0.85-ci və 3.0.87-3.0.91-4-cü yarımbəndlər ləğv edilsin;

9.3.4. 3.0.91-5-ci yarımbənddə "qurumlar" sözü "qurum" sözü ilə əvəz edilsin;

9.4. 5.5.6-cı yarımbənddən ", Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri çıxarılsın.

10. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 665, № 7, maddə 806, № 8, maddə 938) 3-cü hissəsi ləğv edilsin.

11. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" 2009-cu il 24 iyun tarixli 116 nömrəli, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2014-cü il 20 fevral tarixli 111 nömrəli, "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2015-ci il 4 may tarixli 516 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2016-cı il 28 aprel tarixli 888 nömrəli və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 597 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 318 nömrəli Fərmanı) 1-ci hissəsində "5651" rəqəmləri "5332" rəqəmləri ilə əvəz edilsin və həmin hissədən ", Nazirlik yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Aparatının işçilərinin say həddi 214 ştat vahidi, yerli bölmələrinin işçilərinin say həddi 105 ştat vahidi" sözləri çıxarılsın.

12. "Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 avqust tarixli 190 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 8, maddə 957) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

12.1. 2.1-ci bənddən "antiinhisar, haqsız" sözləri çıxarılsın və həmin bənddə "nəzarətini və tənzimləməsini" sözləri "siyasətini və tənzimləməsini, habelə ölkədə dövlət əyar nəzarətini və qiymətli metalların, qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi, eləcə də emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində dövlət nəzarətini" sözləri ilə əvəz edilsin;

12.2. 2.3-cü bənddən hər iki halda "və strukturuna daxil olmayan tabeliyindəki qurumlar" sözləri və "(nizamnamələri)" sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2025-ci il*

# E.Ş.Bağırovun Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elnur Şəmistan oğlu Bağırov Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2025-ci il*

# III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə yaradılmış Təşkilat Komitəsinin ilk iclası keçirilib

**Fevralın 12-də Azərbaycan Prezidentinin 2024-cü il 10 iyul tarixli sərəncamı ilə yaradılan III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin ilk iclası keçirilib.**



Baş nazirin müavini, Təşkilat Komitəsinin sədri Samir Şərifovun rəhbərliyi ilə keçirilən iclasda Oyunlara hazırlıqla bağlı məsələlər ətraflı müzakirə edilib.

AZƏRTAC xəbər verir ki, iclasda qeyd olunub ki, III MDB Oyunları 23 idman növü üzrə təşkil edilməklə, "2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" olan Gəncə şəhərində və ölkəmizin digər 6 şəhərində sentyabrın 28-dən oktyabrın 8-dək müddətdə keçiriləcək. Gəncədə 8, Mingəçevirdə 4, Qəbələdə 4, Şəkidə 3, Göygöldə 2, Yevlaxda 1 və Xankəndidə 1 idman növü üzrə yarışlar təşkil ediləcək.

Oyunlarda iştirak etmək üçün MDB ölkələrinin idman heyətləri ilə yanaşı, bir sıra digər ölkələrin idmançılarının da Azərbaycan hökumətinin dəvəti əsasında iştirakları gözlənilir.

İclasda idman obyektlərinin hazırlığı, nəqliyyat və logistika məsələləri, iştirakçıların yerləşdirilməsi, könüllülərin cəlb olunması, akkreditasiya prosesi, oyunların mediada yayımı, açılış və bağlanış mərasimlərinə hazırlıq və digər məsələlər üzrə geniş təqdimatlar edilib.

Azərbaycan Prezidentinin lll MDB Oyunları ilə bağlı Tədbirlər Planının həyata keçirilməsini təmin etmək məqsədilə Təşkilat Komitəsinin qarşısında qoyduğu vəzifələrin icrası və digər aidiyyəti məsələlər üzrə müvafiq tapşırıqlar verilib, qurumlar arasında əlaqələndirmənin təmin olunması ilə bağlı konkret vəzifələr müəyyənləşdirilib.

Sonda Təşkilat Komitəsinin sədri Samir Şərifov Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın bir çox mötəbər beynəlxalq tədbirlərə, o cümlədən idman sahəsində Birinci Avropa Oyunlarına, İslam Həmrəylik Oyunlarına və digər böyük tədbirlərə yüksək səviyyədə evsahibliyini qeyd edərək, III MDB Oyunlarının da ölkəmizdə peşəkarlıqla və layiqincə keçirilməsi üçün səfərbər olmağın zəruriliyini Təşkilat Komitəsinin üzvlərinin diqqətinə çatdırıb.

# "Biznesin müflisləşməsi" işçi qrupunun növbəti iclası keçirilib

**Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Ədliyyə Nazirliyinin rəhbərlik etdiyi "Biznesin müflisləşməsi" işçi qrupunun 2024-cü ilin yekunları və 2025-ci il üzrə prioritet vəzifələrə həsr olunan geniş tərkibdə iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclasda Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Katibliyi, Ədliyyə Nazirliyinin, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının əməkdaşları, İqtisadiyyat Nazirliyi və Nazirliyin yanında Dövlət Vergi Xidməti, Vəkillər Kollegiyasının nümayəndələri və işçi qrupun digər üzvləri, o cümlədən özəl sektorun nümayəndələri iştirak ediblər.




Tədbirdə Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev çıxış edərək Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Biznesin müflisləşməsi" işçi qrupu çərçivəsində aidiyyəti qurumlarının məqsədyönlü və koordinasiyalı fəaliyyəti nəticəsində qazanılmış nailiyyətlərin ölkəmizdə biznes mühitinin daha da yaxşılaşdırılmasına və beynəlxalq reytinqlərin yüksəlməsinə xidmət etdiyini bildirib.

Daha sonra o, işçi qrupun yeni rəhbərini iclas iştirakçılarına təqdim edib. Ədliyyə nazirinin müavini, işçi qrupun rəhbəri Abiddin Hüseynov çıxış edərək 2025-ci il üzrə qarşıda duran prioritet vəzifələr və biznesin müflisləşməsi sahəsinin daha da inkişaf etdirilməsi ilə əlaqədar ötən dövrdə görülən işlər barədə məlumat verib, işçi qrupun fəaliyyəti nəticəsində əldə edilmiş əsas nailiyyətləri səsləndirib.

Qeyd olunub ki, 2024-cü il üzrə Yol xəritəsinin icrası ilə bağlı "Biznesin müflisləşməsi" işçi qrupu tərəfindən təşkilati, qanunvericilik və maarifləndirici işlər görülüb. Yol xəritəsinin fəaliyyət istiqamətləri üzrə müəyyən edilmiş tədbirlər ötən dövr ərzində əsasən müvəffəqiyyətlə icra edilib, bir sıra tədbirlərin icrası isə 2025-ci ildə də davam etdiriləcək. "Sağlamlaşdırma və müflisləşmə haqqında" yeni qanun layihəsinin hazırlanması işinin tamamlanması istiqamətində intensiv işlərin görüldüyü və həmin qanun layihəsinin ilkin versiyasının redaktəsinin yekunlaşmaq üzrə olduğu barədə məlumat verilib.

İclas zamanı, həmçinin işçi qrupun üzvləri tərəfindən Yol xəritəsində nəzərdə tutulmuş tapşırıqlar üzrə əsas nailiyyətlər təqdim olunub və 2025-ci il üçün Yol xəritəsinin hazırlanmasına dair fikir mübadiləsi aparılıb.

Tədbir iclas iştirakçılarının çıxışları və işçi qrupun fəaliyyəti ilə bağlı müzakirələrlə davam etdirilib.

Qeyd edək ki, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Biznesin müflisləşməsi" işçi qrupuna rəhbərliyi Ədliyyə Nazirliyi həyata keçirir.

# İşğaldan azad edilmiş ərazilərdə vətəndaşların peşə təhsili almaları dövlət büdcəsi hesabına maliyyələşdiriləcək

**Fevralın 12-də Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitənin sədri Anar İsgəndərov iclası açaraq müzakirəyə "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) çıxarıldığını söyləyib. Komitə sədri sənəd haqqında məlumat vermək üçün Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyevə söz verib.

Şöbə müdiri Adil Vəliyev bildirib ki, ölkə Prezidentinin müvafiq sərəncamı ilə işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafının beş milli prioritetindən biri kimi müəyyən olunub. Müzakirəyə çıxarılan qanun layihəsi də həmin ərazilərdə məskunlaşan əhaliyə münasibətdə peşə təhsili üzrə təhsil haqqının dövlət hesabına ödənilməsinin qanunvericilik əsaslarının müəyyən edilməsi üçün hazırlanıb. Belə ki, sənəddə işğaldan azad edilmiş ərazilərdə məskunlaşmış və növbəti üç tədris ili üzrə dövlət, bələdiyyə və özəl peşə təhsili müəssisələrinə qəbul olunmuş, habelə həmin təhsil müəssisələrində təhsil almaqda olan şəxslərin təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi nəzərdə tutulub. O vurğulayıb ki, qanun sözügedən ərazilərdə peşə təhsilinin stimullaşdırılmasına və dayanıqlı məşğulluğun təmin olunmasına xidmət edəcək.

Müzakirədə çıxış edən komitə sədri Anar İsgəndərov, komitə sədrinin müavini Fariz İsmayılzadə, üzvləri Bəxtiyar Əliyev, Pərvin Kərimzadə, Ceyhun Məmmədov, Şahin Seyidzadə, Elçin Mirzəbəyli, Mehriban Vəliyeva, Samir Vəliyev, Əziz Ələkbərov, Rəşad Mahmudov, Elnarə Akimova, Vasif Qafarov, Fatma Yıldırım, Tamam Cəfərova və Sevinc Fətəliyeva təklif olunan dəyişikliklərin əhəmiyyətindən danışıblar. Onlar bildiriblər ki, layihə işğaldan azad edilmiş ərazilərdə məskunlaşmış vətəndaşlarımızın peşə təhsilinin dövlət büdcəsi hesabına maliyyələşdirilməsinin hüquqi mexanizminin formalaşdırılmasına və zəruri kadr potensialının yaradılmasına xidmət edir.

Deputatlar həmin ərazilərdə məskunlaşan şəxslərin, xüsusən də gənclərin peşə təhsilinin əmək bazarının tələblərinə uyğun inkişaf etdirilməsi, regionda dayanıqlı məşğulluğun təmin olunması kimi məsələlərlə bağlı fikirlərini bölüşüblər.

Sonda qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***




# Konstitusiya və Suverenlik İli 2025



# Zəfər silsiləsi

## 2025-ci ili "Konstitusiya və Suverenlik İli" kimi təntənə ilə qeyd edəcəyik

**Azərbaycan xalqı tarixindəki ən qürurlu, şanlı günlərini yaşayır. Suverenliyimiz, ərazi bütövlüyümüz tam təmin edilib, Qarabağ və Şərqi Zəngəzur azadlığına qovuşub, yüz minlərlə vətəndaşımız məcburi köçkün adından qurtulub. İndi işğaldan azad edilmiş ərzilərimizdə nəhəng tikinti və quruculuq işləri aparılır, insanlarımız qayıdış köçləri ilə sevinclə öz yurdlarına dönürlər.**

30 il ərzində talanan, yandırılan, canlı həyata dair hər nə varsa məhv edilən Qarabağ və Şərqi Zəngəzurdan indi yeni doğulan körpələrin səsinin gəlməsi kimi möcüzələrə şahidlik edirik.

İllərdir təqvimlərimizdə qara haşiyəyə alınmış faciəvi günlərimiz al-qırmızı bayram günlərinə çevrilib. Biz Şuşanın, Xankəndinin, Xocalının, Laçının... azadlıq günlərini coşqu ilə keçirməyə başlamışıq. Zəfər Günümüz, Suverenlik Günümüz təsis olunub...

Bir sözlə, son üç onillik ərzində addım-addım gəldiyimiz çətin və keşməkeşlərdən adlayan milli yolumuzu qətiyyətlə zirvələrə daşıyaraq üçrəngli, ay-ulduzlu bayrağımızı bütöv Azərbaycanda əbədi dalğalandırmışıq.

Bu ili isə Prezident İlham Əliyevin sərəncamı ilə başdan-başa "Konstitusiya və Suverenlik İli" kimi təntənə ilə qeyd edəcəyik.

### Ulu Öndər müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir

Prezident İlham Əliyev Azərbaycanda 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında sərəncam imzalayıb.

Tədbirlər Planında 20 sentyabr-12 noyabr tarixləri ərzində Azərbaycan Dövlət Suverenliyi Gününün və Azərbaycan Konstitusiyasının qəbulunun 30 illiyinin geniş qeyd olunması, bununla əlaqədar




yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi əksini tapıb. İl ərzində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda silsilə tədbirlərin, Milli Məclisin "Suverenlik və Konstitusiya İli"nə həsr olunmuş xüsusi iclasının keçirilməsi nəzərdə tutulub.

Həmçinin il ərzində "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş forumların, konfransların, simpoziumların, "dəyirmi masa"ların, seminarların, müsabiqələrin, müxtəlif mədəni-kütləvi tədbirlərin təşkili, vətənpərvərlik mahnılarının (marşların) yazılması, beynəlxalq turizm sərgilərində Azərbaycan milli stendində "Konstitusiya və Suverenlik İli" haqqında məlumatların təqdim edilməsi, Azərbaycanın diplomatik nümayəndəlikləri tərəfindən "Suverenlik və Konstitusiya İli"nə həsr olunmuş, həmçinin Azərbaycan diaspor təşkilatları, koordinasiya şuraları, Azərbaycan evləri və həftəsonu məktəbləri tərəfindən "Suverenlik və Konstitusiya İli"nə həsr olunmuş tədbirlərin, Azərbaycanın şəhər və rayonlarında "Suverenlik və Konstitusiya İli"nə həsr olunmuş ağacəkmə aksiyalarının keçirilməsi nəzərdə tutulub.

### Yubiley medalı təsis ediləcək

Tədbirlər Planında "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi" yubiley medalının təsis edilməsi, eyni zamanda sentyabr ayında "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş poçt markalarının buraxılması da yer alıb.

Yerli və xarici mütəxəssislərin iştirakı ilə Azərbaycan dövlət suverenliyinin təmin olunmasına həsr edilmiş elmi-praktik konfransların təşkili, elmi-tədqiqat işlərinin aparılması, əsərlərin, hüquqi şərhlərin, monoqrafiyaların, məqalələrin nəşri, idman yarışlarının və beynəlxalq turnirlərin, "Zəfər yürüşü" tədbirlərinin təşkili, 20 sentyabr-12 noyabr tarixləri ərzində "Konstitusiya və Suverenlik İli" ilə bağlı ölkə ərazisində müvafiq poster və bannerlərin yerləşdirilməsi, rəqəmli bilbordlarda və monitorlarda videoçarxların nümayiş etdirilməsi, mediada sənədli filmlərin, verilişlərin, videoçarxların və digər materialların verilməsi, rəsmi qəzetlərin xüsusi buraxılışının hazırlanması, jurnalistlərin və bloqçuların işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkili də Tədbirlər Planında əksini tapıb.

"Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Azərbaycanda adsız zirvələrə, Bakı şəhərində və digər böyük şəhərlərdə prospekt, küçə, meydan və müvafiq ərazi vahidlərinə, metro stansiyalarına yeni adların verilməsi, xeyriyyə aksiyalarının keçirilməsi, Azərbaycan dövlət suverenliyinin və ərazi bütövlüyünün bərpası uğrunda şəhid olmuş şəxslərin ailələrinin və müharibə veteranlarının sosial məsələlərinin həlli istiqamətində tədbirlərin davam etdirilməsi, yeniyetmələr və gənclər üçün olimpiadaların, müsabiqələrin, marafonların, debatların və təlimlərin keçirilməsi, "Zəfərin izi ilə" layihəsi çərçivəsində məktəblilərin, tələbələrin və könüllülərin işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkili, təhsil müəssisələrində ilk dərs gününün "Konstitusiya və Suverenlik İli"nə həsr edilməsi, xüsusi dərslərin və mühazirələrin təşkili, "Konstitusiya və Suverenlik İli" ilə bağlı qrant müsabiqələrinin, "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş hərbi təlimlərin keçirilməsi nəzərdə tutulub.

### Ərazi bütövlüyümüzün təminatçısı

2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində şanlı zəfərimizin 5-ci ildönümünü nəzərə alaraq bu ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsinin böyük rəmzi mənası var. Azərbaycanın milli birliyimizin, həmrəyliyimizin nəticəsi olan qələbələrə yetməsi, suverenliyini təmin etməsi, Konstitusiyasının bütün ərazilərində qüvvəyə minməsi tarixdə qazandığı ən parlaq zəfərdir.

Ötən prezidentlik dövrü ərzində Ulu Öndər Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev ərazi bütövlüyümüzün təminatçısı kimi Azərbaycan dövlətinin və xalqının pozulmuş konstitusion hüquqlarını tam bərpa edərək bizə bütöv Azərbaycan bəxş edib.

Necə ki bunu, hələ 2003-cü il oktyabrın 31-də andiçmə mərasimindəki nitqində Xilaskar Lider İlham Əliyev qətiyyətlə söyləmişdi: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Bakıda Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası keçiriləcək

**Fevralın 18-dən 20-dək Bakıda Azərbaycanın sədrliyi ilə Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyası keçiriləcək.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr olunmuş sessiyada 30-dan çox ölkə parlamentinin və beynəlxalq təşkilatın nümayəndə heyətlərinin, o cümlədən 10-dan çox ölkə spikerinin iştirakı gözlənilir.

THE MILLI MAJLIS OF THE REPUBLIC OF AZERBAIJAN

Tədbir çərçivəsində qurumun İcraedici Şurasının, plenar sessiyasının, siyasi, iqtisadi, büdcə və sosial sahələrə dair komitələrinin iclasları keçiriləcək, müvafiq məsələlərə dair qərar layihələri müzakirə olunacaq, bir sıra təşkilati məsələlərə baxılacaq.

Sessiya dövründə tədbirdə iştirak edən nümayəndə heyətləri arasında bir sıra ikitərəfli görüşlərin keçirilməsi də nəzərdə tutulur. Görüşlərdə APA-nın bu günü və gələcək inkişaf istiqamətləri barədə fikir mübadiləsi aparılacaq.

Sessiyanın sonunda Bakı Bəyannaməsi və APA Katibliyinin yekun hesabatı qəbul ediləcək.

*"Azərbaycan"*

## Azərbaycanla BƏƏ arasında ikitərəfli humanitar əlaqələrin mövcud vəziyyətinə dair fikir mübadiləsi aparılıb

**Əbu-Dabi şəhərində Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin üçüncü iclası keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, BƏƏ tərəfindən isə xarici işlər nazirinin siyasi məsələlər üzrə müavini xanım Lana Zəki Nusseybə rəhbərlik edib.

Məsləhətləşmələr zamanı ikitərəfli siyasi, iqtisadi, enerji, humanitar əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparılıb. Çoxtərəfli formatda, xüsusilə beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlığı Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflərin Konfransı (COP) çərçivəsində qarşılıqlı koordinasiya və əməkdaşlıq yüksək qiymətləndirilib.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıblar.

BƏƏ tərəfinə regionda münaqişə sonrası mövcud vəziyyət və sülh prosesi, o cümlədən azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri, ərazilərimizin minalardan təmizlənməsi və vətəndaşlarımızın öz doğma torpaqlarına qayıdışı barədə məlumat verilib.

Səfər çərçivəsində nazir müavini BƏƏ-nin "TRENDS" Tədqiqat və Məşvərət Mərkəzində olub. Mərkəzin araşdırmalar bölməsinin rəhbəri Mohamed Salem Əl-Salemi təşkilatın fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edilən Mərkəzlə Azərbaycanın müvafiq tədqiqat mərkəzləri arasında əməkdaşlığın inkişafı məsələləri nəzərdən keçirilib.

Yalçın Rəfiyev Mərkəzin rəhbər şəxsləri və tədqiqatçıları ilə görüşündə Azərbaycanın xarici siyasəti, onun regional və beynəlxalq müstəvidə cərəyan edən proseslərlə bağlı mövqeyi və Azərbaycan-BƏƏ əməkdaşlığının inkişaf perspektivlərindən danışıb.

## Azərbaycan Ukraynaya humanitar yardımın növbəti hissəsini yola salıb

**Bu gün Ukraynaya elektrik avadanlıqlarından ibarət humanitar yardımın ikinci hissəsi Sumqayıt Texnologiyalar Parkının ərazisindən yola salınıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin 5 fevral 2025-ci il tarixli sərəncamına əsasən, sözügedən yardımın təşkili məqsədilə bir milyon dollar manat ekvivalentində vəsait ayrılıb və yardımın birinci hissəsi 7 fevralda göndərilib.

Jurnalistlərə açıqlamasında Energetika Nazirliyinin şöbə müdiri Ələsgər Həsənov bildirib ki, adıçəkilən sərəncam çərçivəsində iki hissədə göndərilmiş humanitar yükə ümumilikdə 52 min metrdən çox elektrik kabeli və naqil, habelə 17 ədəd transformator daxildir. Onun sözlərinə görə, Ukrayna tərəfindən daxil olmuş müraciətə əsasən, qeyd edilən avadanlıqlar müharibədən zərərçəkmiş ərazilərin elektrik enerjisi ilə dayanıqlı təchizatının bərpası üçün nəzərdə tutulur.

Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuri Qusevin bildirib ki, İrpen şəhərinin bərpa olunmasında, xəstəxananın və məktəbin yenidən qurulmasında Azərbaycanın böyük dəstəyi var: "Azərbaycan Prezidenti İlham Əliyevə, Energetika və Xarici İşlər nazirliyinə enerji sistemimizin bərpası üçün göstərilən humanitar yardıma görə minnətdarlığımızı bildiririk. Biz bunu çox yüksək qiymətləndiririk və Azərbaycandan aldığımız dəstəyi heç vaxt unutmayacayıq. Azərbaycandan olan dostlarımız və tərəfdaşlarımızla birlikdə yeni layihə üzərində







çalışırıq. Layihənin bu il başlayacağını gözləyirik. Bu, Laçın şəhəri ilə qardaşlaşmış şəhər olan İrpendə uşaqlar üçün incəsənət, idman məktəbi və digər sosial infrastrukturla bağlı layihədir. Ötən il İrpen şəhərinin meri Azərbaycana səfər edib və biz Azərbaycanın bəzi regionları ilə daha geniş regionlararası əməkdaşlıq edəcəyimizə ümidvarıq. Yaşasın Ukrayna, yaşasın Azərbaycan!"

Xatırladaq ki, mövcud vəziyyətlə əlaqədar Azərbaycan tərəfindən Ukraynaya göstərilmiş yenidənqurma və humanitar məqsədli yardımların ümumi məbləği 40 milyon dolları keçib. Bu günədək elektrik avadanlıqları qismində 134 ədəd transformator və komplekt transformator məntəqəsi, 70-ə yaxın generator, habelə təxminən 3,4 milyon metr elektrik kabeli və naqil humanitar yardım kimi Ukraynaya yola salınıb.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## USAID inkişafa dəstək adı altında bəzi ölkələrdə sabitliyi pozmaqla məşğul olub

### Donald Trampın qərarı bu təşkilatın lazımsız olduğunu sübut etdi

**"ABŞ-nin yeni Prezidenti Donald Trampın USAID-in bağlanması ilə bağlı verdiyi qərar çox təqdirəlayiqdir. Bu qərarın verilməsi həm də böyük cəsarət tələb edirdi".**

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, Donald Tramp böyük təpkilərə baxmayaraq, qərarını verdi, 90 gün müddətinə bu təşkilatın fəaliyyəti dayandırıldı. İndi bu təşkilatın xərclədiyi maliyyələrin istiqamətləri təhlil olunur. Düzdür, ABŞ-də müxtəlif səviyyələrdə USAID-in fəaliyyətindən milyonlar qazananlar narahat olublar və konqres, məhkəmələr səviyyəsində Trampın qərarlarını ləğv etməyə çalışırlar. Amma Tramp qərarların icrasında israrlıdır. "Onun yaratdığı və İlon Maskın rəhbər təyin olunduğu Hökumət Səmərəliliyi Departamenti bir çox istiqamətlərdə araşdırmalara başlayıb. İlon Mask USAID-i cinayətkar şəbəkə adlandırıb. USAID 42 milyard dollardan çox büdcəsi ilə ən böyük rəsmi agentliklərdən biridir və bu məbləğ ABŞ-nin bütün xarici yardımlarının yarısından çoxunu təşkil edir. USAID Amerikanın ilk xarici yardım təşkilatı kimi yaradılaraq, əsas işi uzunmüddətli sosial-iqtisadi inkişafa yönəldilən proqramlara dəstək vermək idi. Bu təşkilat 100-dən çox ölkədə agentliklərini yaradıb fəaliyyətini genişləndirmişdi. Amma USAID-in əsas məqsədi müxtəlif inkişaf proqramları adı altında milyonlarla dollar vəsaitləri mənimsəmək olub. Belə ki, mətbuatda verilən məlumatlara əsasən, USAID-in həyata keçirdiyi proqramların dəyəri süni olaraq dəflərlə şişirdilib və istiqamətləndirilən vəsaitlərin böyük bir hissəsi geri qaytarılıb. Bu sxem ABŞ vətəndaşlarının ödədikləri vergilər hesabına müəyyən şəxslərin kifayət qədər varlanmasına yol açıb", - deyə deputat əlavə edib.

A.Badamov qeyd edib ki, ABŞ prezidenti seçildiyi ilk gündən insanların iki cinsdə tanınması ilə bağlı fikri USAID-in fəaliyyəti ilə uyğun gəlmirdi. Çünki bu təşkilat LGBT-nin təbliği məqsədilə milyonlar xərcləyirdi. USAID-in fəaliyyəti demokratiyaya dəstək adı altında bir çox ölkədə



sabitliyin pozulmasına və milli dövlətlərin məhv edilməsinə yönəlmişdi. Belə ki, onun dəstəyi ilə milli dövlətlərdə süni müxalifət liderləri yetişdirilir, onlara müvafiq təlimlər verilir və ölkələrdə siyasi etiraz dalğalarının genişləndirilməsi maliyyələşdirilirdi. Məsələn, Latın Amerikası ölkələrində baş verən bütün çevrilişlərdə USAID-in əli olub. Gürcüstan, Ukrayna, Ermənistan, ərəb ölkələrində rəngli inqilabların təşkil olunmasına bu təşkilat milyardlarla vəsait sərf edib. Hətta Gürcüstanda keçirilən son seçkilərdə qeyri-hökumət təşkilatlarına dəstək adı altında 41,7 milyon dollar, 2022-2024-cü illərdə Ukraynaya dəstək adı altında 38 milyard dollar vəsait xərcləyib. Həm də ayrılan bu vəsaitlərin bir hissəsi geri qayıdıb və çirkli pulların yuyulmasına yol açıb.

Deputat vurğulayıb ki, USAID inkişafa dəstək adı altında regionlarda sabitliyin pozulmasına dəstək verib: "Belə ki, 2024-cü ildə Ermənistana ayrılan vəsaiti iki dəfə artıraraq 250 milyona çatdırmasının kökündə də bu ölkənin hərbiləşdirilməsinə dəstək verilməsi dayanırdı. USAID-in rəhbəri Samanta Pauerin İrəvana səfəri çərçivəsində veriləcək dəstək ətrafında geniş müzakirələr aparılmışdı. USAID-in Azərbaycanla bağlı da çirkin planları olub, amma istəyinə çatmayıb. Çünki ölkəmiz təşkilatla əməkdaşlığını dayandırmışdı".

A.Badamov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın vaxtında atdığı bu addımın nə qədər düzgün olduğu indi daha yaxşı görünməkdədir. Trampın qərarı da USAID-in necə lazımsız təşkilat olduğunu sübut etdi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Ermənistanın müharibəyə hazırlaşdığını faktlar təsdiqləyir

### Bu ölkənin xaricdən silah alması, döyüş mövqelərini möhkəmləndirməsi, kəşfiyyat işləri aparması göz önündədir

**Ermənistan hər zaman olduğu kimi, yenə manipulyasiyalarla məşğuldur. Avropa İttifaqı missiyasının müddətinin uzadılması, sürətlə silahlanmaq siyasəti yürüdən Ermənistan rəhbərliyi yenə gözdən pərdə asmaq üçün özünü sülhpərvər göstərməyə çalışır. Belə ki, Azərbaycanı yeni müharibəyə hazırlaşmaqda ittiham edir və bunun Qərbi Azərbaycan İcmasının məqsədləri ilə bağlı olduğunu iddia edir.**

Halbuki Azərbaycan dəfələrlə bəyan edib ki, qərbi azərbaycanlıların öz dədə-baba torpaqlarına qayıtması onların tam haqqıdır, amma biz bunu sülh şəraitində istəyirik.

Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə açıqlama verən Milli Məclisin deputatı Pərvanə Vəliyeva qeyd edib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın "Armenpress"də dərc olunan məqaləsi növbəti manipulyasiya cəhdidir. Paşinyan bu iddiaları söyləməklə, əslində, reallığı təhrif edir. "Birincisi, Azərbaycan sülh müqaviləsini imzalamağa təşəbbüs edən tərəfdir və onun mətni də ölkəmiz tərəfindən hazırlanıb. Digər tərəfdən, Ermənistanın silahlandırılması uzun müddətdir ki, Qərb tərəfindən davam etdirilir. Ötən il iyulun 22-də Avropa İttifaqı Şurası Avropa Sülh Fondundan (EPF) Ermənistan Silahlı Qüvvələrinə 10 milyon avro dəyərində



yardım paketini qəbul edib. Fransa Silahlı Qüvvələr Nazirliyinin Parlamentə təqdim etdiyi 9 sentyabr 2024-cü il tarixli hesabata əsasən, 2023-cü ildə Fransa tərəfindən Ermənistana 11milyon 500 min avroluq hərbi təyinatlı məhsul verib. Hindistandan hərbi yardım da eynilə davam etdirilir. Cənab Prezidentin dediyi kimi, kimisi silah verir, kimisi həm silah, həm siyasi dəstək verir və Ermənistanı revanşizm ideologiyası ilə bəsləyirlər", - deyə deputat əlavə edib.

Siyasətçi bildirib ki, bütün bu faktlar Ermənistanın müharibəyə hazırlaşdığını göstərir. Məqalədə yer alan Qərbi Azərbaycan İcmasının məqsədləri ilə bağlı iddialar isə bir daha Ermənistan tərəfinin bu məsələdə qeyri-konstruktiv mövqeyini nümayiş etdirir.

P.Vəliyeva vurğulayıb ki, XX əsrdə 300 mindən çox azərbaycanlı Ermənistan ərazisindən dörd böyük deportasiyaya məruz qalıb. İnsanların öz yurdlarından zorla çıxarılması tarixi faktdır. Kifayət qədər sübutlar var ki, Ermənistanda etnik təmizləmə baş verib. Beynəlxalq sənədlər qaçqınların öz vətənlərinə qayıtmaq hüququnu təmin edir. Bu hüquq Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda və Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyasında təsbit olunub. Ermənistan rəhbərliyi tərəf olduğu konvensiyaların və beynəlxalq hüququn tələblərinə zidd olaraq indiyədək azərbaycanlıların öz tarixi yurdlarına reinteqrasiyası ilə bağlı adekvat cavab verməyib. Halbuki bu məsələdə dialoqun qurulması və kommunikasiyanın təmin edilməsi olduqca vacibdir. Qərbi azərbaycanlılar öz torpaqlarına sülh yolu ilə qayıtmaq istəyirlər. Deputat qeyd edib ki, Qərbi Azərbaycan İcması olaraq bu tələbimizlə Ermənistanın ərazi bütövlüyünü və suverenliyini sual altına almırıq. Bizim məsələmiz insan hüquqları ilə bağlıdır. Ermənistan hökumətini icmamızla dialoqa başlamağa, qayıdış məsələsini müzakirə etməyə, bizim doğulduğumuz və yaşadığımız torpaqlara sülh, təhlükəsizlik və ləyaqətlə geri dönməyimizi təmin etməyə və tarixi faktları təhrif etməməyə çağırırıq.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "Maskaları çıxarın! Azərbaycanda USAID-in fəaliyyətinə yer yoxdur"

### Ölkəmizin bir il öncə USAID-lə bağlı tutduğu mövqeyi belə idi

**ABŞ-də USAID-lə bağlı müzakirələr səngimək bilmir. Bir neçə gün əvvəl ABŞ Dövlət Departamentinin mətbuat xidməti tərəfindən yayılan bəyanatda qeyd edilirdi ki, USAID öz ilkin təyinatından çoxdan kənara çıxıb: "İndi tam aydındır ki, USAID-in maliyyələşməsinin əhəmiyyətli hissəsi Birləşmiş Ştatların əsas milli maraqları ilə bağlı deyil".**

Sahibkar Mario Nafal "X" səhifəsində USAID-in sabiq rəhbəri Samanta Pauerin sərvətinin üç il ərzində 23,3 milyon dollar artdığını qeyd edərək bildirmişdir ki, hansıki qurumun başçısının əməkhaqqısı ildə 180 min dollardır.

ABŞ Prezidenti Donald Tramp USAID-də islahatlarla bağlı qərarların geri dönməz olduğunu vurğulayaraq təşkilatdakı korrupsiyanın görünməmiş səviyyəyə çatdığını bildirmişdir.

Uzun illərdir ki, dünyanın ayrı-ayrı bölgələrində qarışıqlıq salmaqla, müstəqil xarici siyasət yürüdən dövlətlərin daxili işlərinə müdaxilə etməklə tanınan ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin (USAID) nəhayət ki, fəaliyyəti dayandırıldı. ABŞ-nin yeni hökuməti artıq USAID-in fəaliyyətini araşdırmağa başlayıb.




Bir neçə gün əvvəl "federal hökumətdə fırıldaqçılıq nəticəsində itkilər bütün ödənişlərin həcminin demək olar ki, 10 faizini təşkil edir ki, bu da ildə təxminən 700 milyard dollara bərabərdir. Maskın hesablamalarına görə, ödənişlərin ən azı 15 faizi təxminən 1 trilyon dollar Amerika rəsmiləri tərəfindən mənimsənilir" açıqlaması ilə məşhurlaşan ABŞ hökumətinin Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin (DOGE) rəhbəri İlon Mask "X" sosial şəbəkəsində etdiyi paylaşımında vurğulayıb ki, USAID seçkilərə təsir etmək üçün "şübhəli vasitələrdən" istifadə edib: "USAID-in gördüyü işlərin çoxu seçkilərə təsir etmək, yoxlamalara tab gətirməyən şübhəli üsullarla seçkilərə təsir etmək məqsədi daşıyırdı. Agentlik səriştəsiz və çox korrupsionerdir".

Yanlış və qərəzli siyasət yürüdən USAID müxtəlif yollarla ələ keçirdiyi mediaları saxlamaq və genişləndirmək üçün hər il milyardlarla pul xərcləyirdi. Eyni zamanda müxtəlif ölkələrdə rəngli inqilablara sponsorluq etməsi artıq sirr deyil.

USAID-in maliyyələşdirdiyi "xeyriyyə" tədbirlərinin sırasında Nyu Yorkun meri və Prezident D.Trampın kibertəhlükəsizlik üzrə keçmiş müşaviri R.Culianiyə qarşı kompromatın tapılması üçün OCCRP-yə 20 milyon dollar qonorar verməsi, bu qurumun Əfqanıstanda heroinin yetişdirilməsinə maliyyə dəstəyi göstərməsi, Soros tərəfindən maliyyələşən prokurorlar qrupuna 27 milyon dollar ayırması, bu vəsaitlər müqabilində hansı vətəndaşlar və siyasətçilərin təqib olunmasına dair istiqamətlər verməsi, USAID-in xarici hökumətləri devirmək üçün Latın Amerikasında QİÇS-in qarşısının alınması üzrə saxta seminarlar təşkil etməsi barədə faktlar da var. ABŞ Konqresinin Tədqiqat Xidmətinin məlumatına görə, ötən il USAID təxminən 40 milyard dollar məbləğində vəsaitə sərəncam verib.

USAID-in Misirdə, Ukraynada və sair ölkələrdə inqilablara pul ayırmasını, Gürcüstanda destruktiv fəaliyyət göstərməsini, Samanta Pauerin R.Vardanyanla "dostluğu"nu S.Pauerin və USAID-in faktiki Azərbaycanın ərazi bütövlüyünə qarşı fəaliyyətini heç cür inkar etmək mümkün deyil.

Milyarder İlon Maskın rəhbərlik etdiyi Dövlət İdarəetməsinin Səmərəliliyi Departamenti agentliyin məxfi məlumatlarının olduğu bütün kompüter sistemlərini nəzarətə götürüb.

Mətbuatda qeyd olunur ki, Maskın köməkçilərindən ibarət kiçik qrup Ronald Reyqan binasına gələrək agentliyin ofislərinə, o cümlədən məxfi məlumatların saxlanıldığı otağa girişin təmin edilməsini tələb edib. O da qeyd olunur ki, agentliyin ofisinə gəldikdən sonra qrupla binanın mühafizəçiləri arasında münaqişə yaranıb, onlar məxfi sənədlərin saxlanıldığı otağa girişə icazə vermək istəməyiblər. Qrup binanın bir neçə mərtəbəsini gəzərək bəzi kabinetləri yoxlaya bilib. Nəticədə departament əməkdaşları "axtardıqları bəzi şeylərə" çıxış əldə ediblər.

Xatırladaq ki, ötən ilin fevralında Azərbaycan rəhbərliyi USAID-in fəaliyyətindəki arzuolunmaz məqamları həm təşkilatın, həm də ABŞ rəhbərliyinin diqqətinə çatdırmışdı. Təəssüflər olsun ki, o zaman Bakının narahatlığına ciddi yanaşılmadı. Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında 21.11.2023-cü il tarixində paylaşdığı postu yenidən yada salıb: "Maskaları çıxarın! Azərbaycanda USAID-in fəaliyyətinə yer yoxdur".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*




## Qazaxıstanda USAID nümayəndəliyinin bağlanmasını tələb edən petisiya açılıb

**Qazaxıstanda "epetition.kz" platformasında ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) bu ölkədəki ofisinin bağlanmasını tələb edən petisiya dərc olunub.**

AZƏRTAC-ın "Kazinform" agentliyinə istinadla verdiyi xəbərə görə, müraciətin müəllifləri USAID xətti ilə qrant alan qurumların fəaliyyətinin yoxlanılmasını, habelə LGBT təşkilatlarının və əxlaqsızlığın təbliği ilə məşğul olan strukturların fəaliyyətinə qanunvericiliklə qadağa qoyulmasını tələb edirlər.

Petisiya xarici fond və təşkilatların ölkədəki ictimai-siyasi proseslərə təsiri ilə bağlı son müzakirələr fonunda açılıb. Son vaxtlar Qazaxıstanda xaricdən maliyyə alan QHT-lərin fəaliyyətinin tənzimlənməsi ilə bağlı suallar meydana çıxır.

Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAID) ABŞ hökumətinin rəsmi beynəlxalq humanitar və inkişaf agentliyidir.

Bundan əvvəl ABŞ Prezidenti Donald Tramp digər ölkələrin inkişafına yardım proqramlarını 90 gün müddətinə dayandıran sərəncam imzalayıb.

## USAID-in işi əsasən seçkilərə təsir etmək məqsədi daşıyıb

**Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAID) seçkilərə təsir göstərməkdə çox fəal iştirak edib.**

"Report" xəbər verir ki, bunu ABŞ hökumətinin Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin (DOGE) rəhbəri İlon Mask bəyan edib.

Mask vurğulayıb ki, USAID seçkilərə təsir etmək üçün "şübhəli vasitələrdən" istifadə edib:

"USAID-in gördüyü işlərin çoxu seçkilərə təsir etmək, yoxlamalara tab gətirməyən şübhəli üsullarla seçkilərə təsir etmək məqsədi daşıyırdı. İnvestisiya gəliri baxımından deyərdim ki, ümumiyyətlə, həmişə çox yaxşı olmayıb. Agentlik səriştəsiz və çox korrupsionerdir".

O, təfərrüatları açıqlamayıb və söhbətin hansı ölkələrdən getdiyini bildirməyib.

## Venesuelanın baş prokuroru: "Müxalifət çevriliş hazırlamaq üçün USAID-in vəsaitindən istifadə edib"

**Sağçı müxalifət Venesuela hökumətinə qarşı çevriliş cəhdi hazırlamaq üçün ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə vəsaitindən istifadə edib.**

"Report" xəbər verir ki, bu barədə ölkənin baş prokuroru Tarek Uilyam Saab "Cable a Tierra" radiostansiyasına müsahibəsində bildirib.




"USAID-dən pul alan venesuelalı sağçı ekstremistlər həmin vəsaitdən qanuni hökumətə qarşı sui-qəsd hazırlamaqda istifadə etdiklərinə görə təhqiqat altındadırlar", - Saab vurğulayıb.

Onun sözlərinə görə, hazırda özünü prezident elan etmiş Xuan Quaydonun qondarma müvəqqəti hökumətinin USAID-in vəsaitlərindən qeyri-qanuni istifadəyə imkan verən korrupsiya sxemləri ilə bağlı araşdırmalar aparılır.

Saab həmçinin qeyd edib ki, 2023-cü ildə aktivlərin oğurlanması, hakimiyyəti qəsb etmək, sui-qəsd, terror aktlarına köməklik etmək və dövlətə xəyanət ittihamları ilə Quaydo və onun tərəfdaşlarının həbsi və Venesuela ədliyyəsinə təhvil verilməsi üçün İnterpola sorğu göndərilib.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

**Rəsmi İrəvan regional geosiyasi proseslərin fırtınalı dinamikasında özünü çox narahat hiss edir. Son günlər erməni siyasi rəhbərliyinin xarici səfərlərdə apardıqları müzakirələr də bunu sübut edir.**

Ermənistanın "Alternativ layihələr" qrupunun üzvü Vahe Ovannisyan mətbuata açıqlamasında bildirir ki, bizi hər yerdən gözləyən fəlakətlər barədə xəbərdar edirlər: Bakıdan, Moskvadan, Ankaradan, Tehrandan, Minskdən, Vaşinqtondan, Parisdən... hər yerdən!.. "

Daha sonra Vahe Ovannisyan dəyişən dünya düzəni fonunda Ermənistanın tamamilə gücsüz qaldığını bildirir. Əlbəttə, bu, Ermənistan siyasi palitrasının dünyanın hansı qütbündən baxsan görünən tərəfidir.

Aydın mənzərə ondan ibarətdir ki, Brüssellə Vaşinqtonun saxta və şirnikləndirici vədlərinə inanan Ermənistan hakimiyyəti ölkəni gərgin qütblərarası mübarizənin məkanına çevirmək üzrədir. SSRİ dağıldıqdan sonra Ermənistan Rusiya orbitində öz təhlükəsizlik arxitekturasını formalaşdırmağa çalışsa da, bu, alınmır, tədricən Paris, Brüssel və Vaşinqtonun vassalına çevrilir.

O da sirr deyil ki, Nikol Paşinyanın son günlər böyük həvəslə ermənilərin dəstəkçisi axtarışına çıxması və ölkə sərhədlərini kənar Qərb qüvvələrinə açması region dövlətlərini narahat edir. Artıq Moskva, Tehran, Bakı, Ankara öz narahatlıqlarını ifadə ediblər. Çünki Qərbin niyyəti Ermənistanı dəstəkləmək yox, ondan bölgə dövlətlərinə qarşı alət kimi istifadə etməkdir. Ermənistan hakimiyyətinin bu tip mövqe sərgiləməsi isə birmənalı qarşılanmır. Politoloqların və ünlü ekspertlərin fikrincə, rəsmi İrəvanın yeganə çıxış yolu Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaqdır.

Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan hesab edir ki, hakimiyyətin səriştəsizliyinə görə Ermənistanın zəifliyinin dərinləşməsi təhlükəsi yaranıb. "Ermənistan demarkasiya prosesində Azərbaycana yeni ərazilər qaytaracaq. Ümumiyyətlə, Ermənistanın sərhədləri dəyişəcək, Sünikin (Zəngəzur) bir hissəsi Azərbaycana veriləcək. Bununla yanaşı, konstitusiya dəyişdiriləcək, 300 minə yaxın azərbaycanlı da Ermənistana gələcək".





## Qərbi Azərbaycan məsələsinin hərbi təhdid kimi təqdim edilməsi tamamilə qəbuledilməzdir

### Nikol Paşinyan reallıqdan çıxış etmək əvəzinə, əsassız bəyanatlar səsləndirir

Qəribəsi odur ki, baş nazir Nikol Paşinyan reallıqdan nəticə çıxarmaq əvəzinə istər xarici ölkələrə səfərlərində, istərsə də Ermənistan ictimaiyyətinə Qərbi Azərbaycan mövzusuna dair yanlış, əsassız və zərərli fikirlər söyləməkdə davam edir. Onun fevralın 10-da bu ölkənin "Armenpress" xəbər agentliyində dərc olunmuş məqaləsi buna əyani sübutdur. Baş nazirin Qərbi Azərbaycan məsələsini hərbi təhdid kimi təqdim etməsi tamamilə qəbuledilməzdir.

Qərbi Azərbaycan İcması bununla bağlı dünya ictimaiyyətinə və Ermənistan hökumətinə ünvanlanan bəyanat yayıb. Bəyanatda deyilir: "İlk olaraq vurğulamaq istərdik ki, Qərbi Azərbaycan İcması Azərbaycan və Ermənistan arasında sülhün bərqərar edilməsi istiqamətində aparılan siyasi prosesləri dəstəkləyir. Hesab edirik ki, iki dövlət arasında sülhün bərqərar olması və qərbi azərbaycanlıların öz evlərinə qayıtması bir-birini tamamlayan məqsədlərdir. Sülh prosesinin 2020-ci il Vətən müharibəsindən sonra məhz Azərbaycan Respublikası hökumətinin təşəbbüsü ilə başlandığını qeyd edərək, Azərbaycan tərəfinin sülhpərvər səylərini təqdir edirik.

Eyni zamanda icmamız Ermənistan hökumətinin sülhə və insan hüquqlarına qarşı fəaliyyətindən ciddi şəkildə narahatdır. Ermənistanın apardığı irimiqyaslı silahlanma proqramı, dövlət səviyyəsində həyata keçirdiyi irqçilik siyasəti və bu çərçivədə qərbi azərbaycanlıların qayıdış hüququnu danması regionda vəziyyəti gərginləşdirir.

Baş nazirin iddiasının əksinə olaraq, qeyd edilməlidir ki, Ermənistana qarşı heç bir hərbi təhdid yoxdur. Bunu, eləcə də Ermənistanın təcavüzkar keçmişini, hərbi gücdən məsuliyyətlə istifadə edə bilmədiyini, Azərbaycana qarşı törətdiyi hüquq pozuntularına görə məsuliyyətini etiraf etmədiyini və səmimi peşmançılığını ifadə etmədiyini, siyasi dairələrində və cəmiyyətində revanşist əhvali-ruhiyyənin hökm sürdüyünü nəzərə alsaq, onun kütləvi şəkildə silahlanmasının Azərbaycana qarşı hücum niyyətindən xəbər verdiyini tam əminliklə söyləmək olar.

Baş nazir Paşinyanın məqaləsində Qərbi Azərbaycan məsələsini hərbi təhdid kimi təqdim etməsi tamamilə qəbuledilməzdir. Baş nazirin bu mövzuda söylədikləri, o cümlədən guya icmanın əsas sənədlərində Ermənistan ərazisinin 60 faizinə iddia əks olunduğuna dair fikirləri əsassızdır. Azərbaycanlıların paytaxt İrəvan daxil olmaqla, Ermənistanın bütün bölgələrində yaşamış olduqlarını və vaxtilə orada etnik üstünlüyə malik olduqlarını xatırlatmaqla bərabər, bir daha vurğulayırıq ki, Qərbi Azərbaycan İcması Ermənistandan zorla çıxarılmış azərbaycanlıların beynəlxalq hüquq çərçivəsində, Ermənistanın ərazi bütövlüyünə hörmət etməklə, sülh yolu ilə, ləyaqətlə və təhlükəsiz şəkildə öz evlərinə qayıtması uğrunda mübarizə aparır.

Qərbi Azərbaycan İcması olaraq biz, Ermənistan hökumətindən sülhə və insan hüquqlarına zidd addımlarına, o cümlədən hərbi canilərin qəhrəmanlaşdırılmasına son qoymağı, silahlanma proqramını dayandırmağı, aldığı hücum xarakterli ağır və müasir silahları geri qaytarmağı və qərbi azərbaycanlıların qayıdışına şərait yaratmağı tələb edirik".

Ermənistan ictimaiyyəti, o cümlədən vaxtilə öz dədə-baba yurdlarından məcburi qovulan, 1945-ci və 1953-cü illərdə deportasiya yolu ilə köçürülən azərbaycanlıların evlərində hazırda ermənilər yaşayır. Birini biz xatırladaq, qalanını özləri yada salarlar: İrəvanın mərkəzindəki Təpəbaşı məhəlləsi göz önündədir. Buradakı məscidi İrəvan şəhər idarəsinin (upravasının) üzvü, İrəvan xanlarının nəslindən olan Abbasqulu xan İrəvanski tikdirmişdir. Onun evi də həmin məhəllədə olmuşdur. Hazırda erməni ailələrinin yaşadığı Abbasqulu xanın evini hələ də ermənilər "Xanın evi" adlandırırlar.

Təpəbaşı yaşayış massivində yerləşən məscidin minarəsi 1960-cı ildə uçurulmuşdur. Divarlarının qalınlığı 1,5 metr olan məscidin içərisindəki imamın otağında hazırda bir erməni ailəsi yaşayır. Məscidin ətrafında bir çayxana da var idi ki, müsəlmanlar yığışıb çay içərdilər. Hazırda məscidin həyətində və ətrafında ermənilər gecəqondular inşa etmişlər.

Sual olunur: bu mülkün varisləri niyə öz dədə-baba yurdlarında yaşamamalıdır?

Görünən odur ki, ermənilərin yeganə çıxış yolu xəstə təfəkkürlərindən əl çəkmələridir. Qonşu ölkələrlə sülh şəraitində yaşamalıdırlar, onların ərazilərindən əl çəkməli və ən əsası, Qərbi Azərbaycan İcmasının tövsiyə etdiyi kimi, böyük dövlətlərin və güc mərkəzlərinin əlində alət rolu oynamaqdan imtina etməlidirlər. Bu baş verməyincə, Ermənistan on illərlə asılı və müharibə şəraitində yaşayacaq. Bunun ən böyük ziyanını Ermənistan cəmiyyəti çəkəcək. Paşinyanın hakimiyyətdən getməsi və ya başqa birinin hakimiyyətə gəlməsi isə heç nəyi dəyişməyəcək. Ermənilər başa düşməlidir ki, həm Azərbaycanla, həm də Türkiyə ilə əbədi olaraq bir qonşu kimi sülh şəraitində yaşamalıdırlar.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

## 12 şəhər, 18 qəsəbə, 895 kənd...

### Ümumilikdə 925 yaşayış məntəqəsinin işğalı zamanı Ermənistan Azərbaycana 37 min 168 əmlak üzrə 19 milyard manatdan artıq maddi ziyan vurub

**Otuz il ərzində torpaqlarımızı işğal altında saxlayan erməni vandalları Qarabağ və Şərqi Zəngəzurda yurdlarımızı talayıb, infrastrukturumuzu dağıdıb, sərvətlərimizi qeyri-qanuni istismar edib, ekoloji terrora əl atıb, ərazilərimizi mina tarlasına çeviriblər.**

Bir sözlə, azərbaycanlıların qanına susayaraq soyqırımlar, qətliamlar törədən, yüzminlərlə vətəndaşımızı yurdlarından didərgin salan erməni vandalları həm də xalqımıza, ölkəmizə külli miqdarda ziyan vurublar. Erməni caniləri elə hesab ediblər ki, törətdikləri bütün bu cinayət əməlləri cəzasız qalacaq. Ancaq 30 illik işğalçılıq siyasətinin qisasını döyüş meydanında alan Azərbaycan xəstə ideologiyalara qapılıb xalqımıza qarşı faşist əməlləri törədənlərdən indi hesab sorur. Eyni zamanda işğalçı və təcavüzkar Ermənistanın ölkəmizin maddi sərvətlərini, dövlətimizin və əhalimizin mülklərini talaması kimi cinayət əməlləri həm yerli, həm də beynəlxalq məhkəmələrdə faktlarla ortaya qoyulur. İşğalçı ölkənin törətdiyi bədnam əməllərinə görə cavab verməsi tələb olunur.

Hələ 2020-ci ildə Qarabağa zəfər səfəri edən zaman Prezident İlham Əliyev Cəbrayılda Ermənistanın onilliklər ərzində işğal altında saxladığı ərazilərimizdə apardığı talanın, vurduğu ziyanın hesabını mütləq verəcəyini qətiyyətlə bəyan etmişdi: "Mən demişəm, bir daha demək istəyirəm, beynəlxalq qurumlar, ekspertlər gələcək, bütün ziyan hesablanacaq, 30 il ərzində bizə vurulmuş zərər nəzərə alınacaq və onlara qarşı təzminat iddiası qaldırılacaq".



#### Azərbaycanın suveren əraziləri uzun illər ərzində işğal altında saxlanılıb

Əllərini Azərbaycan xalqının qanına bulamış 15 erməniəsilli təqsirkar hazırda məhkəmə qarşısında mühakimə olunur, törətdikləri əməllərə görə cavab verirlər.

Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayət törətməkdə təqsirləndirilən Ermənistan vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesi davam etdirilir.

Məhkəmədə dövlət ittihamçıları Ermənistan tərəfindən aparılan təcavüzkar müharibə nəticəsində Azərbaycanın suveren ərazilərinin işğal olunması ilə bağlı cinayət əməlləri üzrə epizodları elan edib.

Ermənistan silahlı qüvvələrinin və qanunsuz silahlı birləşmələrinin apardığı təcavüzkar müharibə nəticəsində Azərbaycanın suveren əraziləri olan 12 şəhər, 18 qəsəbə, 895 kənd, ümumilikdə 925 yaşayış məntəqəsi işğal olunub və uzun illər ərzində işğal altında saxlanılıb, bununla da xüsusi və dövlət mülkiyyətində olmuş ümumilikdə 37 min 168 əmlak üzrə 19 milyard manatdan artıq maddi ziyan vurulub.

#### Əhalinin bütövlükdə və ya qismən məhv edilməsi faktları

Bundan başqa, ittiham aktında qeyd edilib ki, təcavüzkar müharibə nəticəsində ümumilikdə Azərbaycanın mədəni sərvətinə aid olmaqla dəymiş zərərin qiymətləndirilməsi mümkün olan ən azı 697 tarix və mədəniyyət abidəsi hücum obyektinə çevrilməklə, hərbi əməliyyatların dəstəklənməsi üçün istifadə edilməklə, qəsdən böyük həcmdə yandırılmaqla, artilleriya qurğularından atəşlər açıb partladılmaqla və sair fiziki üsullarla qismən və tamamilə dağıdılmaqla, eləcə də oğurluq, soyğunçuluq, vandalizm aktları törədilməklə Azərbaycan Respublikasına və Azərbaycan xalqına 906 milyon manatdan artıq maddi ziyan vurulub.

Eyni zamanda Azərbaycanın suveren ərazilərinin işğal olunması nəticəsində didərgin salınmış dinc sakinlərin sosial təminatı və maddi-məişət şəraitinin təmin olunmasına sərf edilmiş vəsaitlər nəzərə alınmaqla Azərbaycan dövlətinə ümumilikdə 8,8 milyard manatdan artıq maddi ziyan vurulub.

Təcavüzkar müharibə gedişində Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı, habelə soyqırımı əlamətləri olmadan əhalinin bütövlükdə və ya qismən məhv edilməsi faktları açıqlanıb.

Bildirilib ki, Xocalı rayonunun ərazisində yaşayan azərbaycanlı əhalini kütləvi şəkildə milli-etnik mənsubiyyətinə görə bir qrup kimi məhv etmək niyyəti ilə onları öldürmək, sağlamlığına ağır və əqli qabiliyyətinə ciddi zərər vurmaq məqsədilə rayona və ətraf yaşayış məntəqələrinə silahlı basqınlar edilib, azərbaycanlıların baş dərisinin soyulması, qulaq, burun, cinsiyyət üzvlərinin kəsilməsi, gözlərinin çıxarılması, diri-diri yandırılması, cinayətkar fəaliyyətinin qarşısının alınması üçün zərərsizləşdirilmiş erməniəsilli şəxslərin qəbirləri üzərində başlarının qurbanlıq kimi kəsilməsi, qadına, qocaya və uşağa da fərq qoymadan qəddarlıqla müxtəlif işgəncələr verilməsi ilə ümumilikdə 613 şəxs qəsdən öldürülüb məhv edilməklə Xocalı soyqırımı törədilib.

#### Təcavüzkar ölkə cavab verəcək

Azərbaycan Ermənistanın soydaşlarımızın insan hüquqlarını məqsədyönlü şəkildə pozmasına cavab olaraq, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiya (CERD) çərçivəsində təcili tədbirlər görülməsi məqsədilə Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edib.

Qeyd edək ki, 12 noyabr 2024-cü ildə Beynəlxalq Ədalət Məhkəməsi azərbaycanlılara qarşı törədilən kütləvi insan hüquqları pozuntuları ilə əlaqədar Azərbaycanın Ermənistana qarşı davam edən beynəlxalq hüquqi iddiaları üzrə qərar qəbul edib. Ermənistanın onilliklər boyunca Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisini işğalda saxladığı müddətdə həyata keçirdiyi etnik təmizləmə və digər qeyri-qanuni əməllər bundan sonra məhkəmə tərəfindən mahiyyəti üzrə ətraflı şəkildə araşdırılacaq.

Bundan əlavə, məhkəmə haqlı olaraq Ermənistanın mina və gizli mina tələləri yerləşdirməsi təcrübəsinə dair iddiaların qərarda istisna olunması cəhdlərini rədd edib.

BƏM-in sözügedən tarixdəki qərarı ilə bağlı mətbuat məlumatında Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki, Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın Ermənistana qarşı iddia qaldırdığı yeganə hüquqi platforma deyil. Azərbaycan həmçinin digər beynəlxalq hüquqi forumlarda Ermənistanın işğal dövrü zamanı ətraf mühitin və enerji infrastrukturunun dağıdılması da daxil olmaqla, bir sıra digər sahələrdə beynəlxalq hüququ pozmasına dair kompensasiya və maliyyə təzminatının qarşılanması istiqamətində fəaliyyət göstərir: "Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin onilliklər boyu işğalı və əlaqədar münaqişələr zamanı beynəlxalq insan hüquqlarının çoxsaylı pozuntularına görə Ermənistanın məsuliyyətə cəlb edilməsi üçün səylərimizi davam etdirəcəyik".

Sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlərdə təqsirləndirilən erməniəsilli şəxslərin məhkəməsində dövlət ittihamçılarının elan etdiyi epizodlar da Ermənistanın işğalçı siyasətinin mənəvi əzab və məhrumiyyətlərlə yanaşı, ölkəmizə, xalqımıza vurduğu və milyardlarla ölçülən külli miqdarda maddi zərər və ziyanı bir daha gözlər önünə sərdi.

Bütün bunlar göstərir ki, Azərbaycan Ermənistanın törətdiyi cinayət əməllərini fakt, dəlil və sübutlarla hüquq müstəvisində ifşa etməyə davam edir və bununla da təcavüzkar ölkənin cavab verməsini təmin edəcək.

Bu isə heç şübhəsiz ədalətin qələbəsi olacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

**Məzahir Pənahovun sədrliyi ilə fevralın 12-də Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Komissiyanın 10 fevral tarixli iclasının protokolu təsdiq edilib.



Sonra 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Maraqlı subyektlərin də qatıldığı iclasda müraciətlərlə bağlı aparılan müzakirələr zamanı əvvəlcə ərizəçilərin özlərinin bilavasitə iştirakı ilə reallaşdırılan hərtərəfli, obyektiv və şəffaf araşdırma prosesi barədə ətraflı məlumat verilib. Qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada iclasa çıxarılan müraciətlərin geniş müzakirəsi nəticəsində Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin tələblərinə uyğun müvafiq qərarlar qəbul edib.

Media mənsublarının da iştirak etdiyi iclasda, həmçinin cari məsələlərə də baxılıb.

## QƏRAR № 11/57

### Mərkəzi Seçki Komissiyasının 2025-ci il 10 fevral tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2025-ci il 10 fevral tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*12.02.2025*

## QƏRAR № 11/58

### 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 fevral 2025-ci il tarixli 45 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 115 saylı Şəki kənd seçki dairəsindən Kiçik Dəhnə bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Qasımov Mahir Təmraz oğlu 2025-ci il fevralın 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 1 fevral 2025-ci il tarixli 9/16 saylı Qərarını mübahisələndirərək, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılıb və bu barədə müvafiq rəy verilərək Komissiyanın iclasında baxılıb.

Araşdırma ilə bağlı müraciət etmiş namizədlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. Namizəd əlavə sənəd və materialların olmadığını bildirmiş, eləcə də dəvət olunsa da araşdırma və Komissiyanın iclasında iştirak etməmişdir.

Qeydə alınmış namizəd M.T.Qasımov müraciətində 115 saylı Şəki kənd seçki dairəsinin Kiçik Dəhnə bələdiyyəsinə seçki keçirilən 32, 34 və 35 saylı seçki məntəqələrində səsvermə prosesi başa çatdıqdan sonra səslərın hesablanmasında qanun pozuntularına yol verildiyini iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini xahiş etmişdir. Ərizəçi tərəfindən müraciətə 1 akt, 2 elektron məlumat daşıyıcısında 1 videogörüntü və 2 audioyazı əlavə edilmişdir.

Müəyyən edilmişdir ki, qeydə alınmış namizəd M.T.Qasımov dairə seçki komissiyasına müraciət edərək 32, 34 və 35 saylı seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyini, o cümlədən səslərin düzgün hesablanmadığını iddia etmiş, qeyd edilən seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini tələb etmişdir. Həmin müraciətdə iddia edilən pozuntular dairə seçki komissiyası tərəfindən araşdırılmış, komissiyanın 1 fevral 2025-ci il tarixli 9/16 saylı qərarı ilə müraciət əsassız hesab olunaraq təmin edilməmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

Mərkəzi Seçki Komissiyasında aparılmış tam, hərtərəfli, obyektiv araşdırma zamanı 115 saylı Şəki kənd seçki dairəsi dairə seçki komissiyasının sədrindən, üzvlərindən və namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini, səslərin hesablanmasını və protokolların tərtib edilməsini müşahidə etmiş müşahidəçilər, qeydə alınmış, lakin seçilməmiş digər namizədlər, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri tərəfindən verilmiş izahatlarla səslərin seçki məntəqəsində hesablanmaması iddiası öz təsdiqini tapmamışdır. Araşdırma ilə əlaqədar belə nəticəyə gəlinmişdir ki, məntəqə seçki komissiyaları tərəfindən səsvermənin nəticələrinə dair protokollar Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada və müddətdə tərtib edilərək 115 saylı Şəki kənd seçki dairəsinin dairə seçki komissiyasına çatdırılmışdır. Təqdim edilmiş videogörüntünün və audioyazıların araşdırılması zamanı səsvermə günü seçki məntəqəsində hər hansı qanun pozuntusu müşahidə edilməmişdir.

Bundan əlavə nəticələri mübahisələndirilən 34 saylı seçki məntəqəsində quraşdırılmış veb-kamera görüntülərinə baxış keçirilmiş, səsvermə prosesində və səslərin hesablanmasında hər hansı qanun pozuntusu müşahidə olunmamışdır.

Araşdırma ilə müəyyən edilmişdir ki, 115 saylı Şəki kənd seçki dairəsi dairə seçki komissiyası mübahisələndirilən qərarla düzgün hüquqi nəticəyə gəlmiş, namizədin səsvermə günü baş verdiyi ehtimal edilən qanun pozuntuları ilə əlaqədar müraciətinə qanunla nəzərdə tutulmuş qaydada və müddətdə baxmış, o cümlədən Seçki Məcəlləsinin normalarını düzgün tətbiq etməklə əsaslandırılmış qərar qəbul etmişdir.

Beləliklə, 115 saylı Şəki kənd seçki dairəsindən Kiçik Dəhnə bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd M.T.Qasımovun müraciəti əsassız olduğundan təmin edilməməli və həmin seçki dairəsi dairə seçki komissiyasının 1 fevral 2025-ci il tarixli 9/16 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilən bələdiyyə seçkilərində 115 saylı Şəki kənd seçki dairəsindən Kiçik Dəhnə bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Qasımov Mahir Təmraz oğlunun 10 fevral 2025-ci il tarixli 45 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 1 fevral 2025-ci il tarixli 9/16 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*12.02.2025*

## QƏRAR № 11/59

### 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 fevral 2025-ci il tarixli 44 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 111 saylı Zaqatala-Balakən seçki dairəsindən Zaqatala bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd İsmayılov Mübariz İsaq oğlu 2025-ci il fevralın 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) teleqramla müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının onun şikayətini araşdırmadığını, qərarın giriş və qərar hissələrinin fərqli olduğunu, protokolun doldurulmasında iştirakına imkan verilmədiyini, sənədlərlə tanış edilmədiyini iddia etmiş və bələdiyyəyə keçirilmiş seçkilərdə bülletenlərin onun iştirakı ilə sayılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı namizəd M.İ.İsmayılovla əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. İclasda iştirak etmək üçün dəvət edilsə də gəlməyəcəyini bildirmişdir.

Müəyyən edilmişdir ki, qeydə alınmış namizəd M.İ.İsmayılov səsvermə günü 111 saylı Zaqatala-Balakən seçki dairəsinin Zaqatala bələdiyyəsinə səsvermə keçirilən seçki məntəqələrində yol verilməsi iddia edilən pozuntularla əlaqədar həmin seçki dairəsinin dairə seçki komissiyasına ərizə ilə müraciət etmiş, ərizədə iddia edilən pozuntular dairə seçki komissiyası tərəfindən araşdırılmış, komissiyanın 7 fevral 2025-ci il tarixli 4/10 saylı qərarı ilə müraciət əsassız hesab olunaraq təmin edilməmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

Namizəd M.İ.İsmayılov dairə seçki komissiyasına təqdim etdiyi ərizəsində Zaqatala bələdiyyəsinə seçkilər keçirilən 12 məntəqə seçki komissiyasının hamısında bu və ya digər şəkildə seçki qanunvericiliyinin pozulmasını, o cümlədən seçki məntəqələrində səsvermə başlayana qədər bülletenlərin sayılmadığını, yalnız iki seçki məntəqəsində seçicilərin barmaqlarının işarələndiyini, namizədlərin və müşahidəçilərin seçki məntəqələrinə buraxılmadığını, 10 saylı seçki məntəqəsində minlərlə seçicinin qanunazidd səs verdiyini, seçki qutularında olan bülletenlərin seçicilər siyahısında olan imzaların sayından çox olduğunu, seçki qutularının hamısının müvafiq qaydada kilidlənmədiyini iddia edərək Zaqatala bələdiyyəsinə keçirilən seçkilərdə səsvermənin nəticələri haqqında dairə seçki komissiyasının protokolunun ləğv edilməsini xahiş etmişdir.

Dairə seçki komissiyası tərəfindən müvafiq qaydada və müddətdə aparılmış araşdırma prosesində Zaqatala bələdiyyəsinə seçkilər keçirilən 12 seçki məntəqəsinin sədrlərindən, katiblərindən, komissiya üzvlərindən və həmin seçki məntəqələrində müşahidə aparılmış 29 müşahidəçidən, həmçinin səsvermənin nəticələrinə görə bələdiyyə üzvü seçilməmiş 9 namizəddən alınmış izahatlarla namizəd M.İ.İsmayılovun iddia etdiyi pozuntuların baş verməsi öz təsdiqini tapmamışdır.

Səsvermə günü şikayətçi M.İ.İsmayılovla birlikdə seçki məntəqələrində olmuş və səsvermənin nəticələrinə görə bələdiyyə üzvü seçilməmiş qeydə alınmış namizəd Hacıyev Nazim Nəsir oğlu izahatında səsvermə günü şikayətçi ilə birlikdə 12 seçki məntəqəsində müşahidə apardıqlarını, onlara hər hansı bir maneə yaradılmadığını, şikayətçinin göstərdiyi pozuntu hallarını müşahidə etmədiyini bildirmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, minlərlə seçicinin qanunazidd səs verdiyi iddia olunan 10 saylı seçki məntəqəsində seçicilər siyahısında 1381 seçici qeydə alınmış, səsvermə günü 397 seçici səsvermə bülleteni almışdır.

Araşdırma nəticəsində namizədin müraciətinin təmin edilməməsi barədə dairə seçki komissiyasının qərarının giriş və nəticə hissələrinin fərqli olması təsdiqini tapmamışdır.

Namizədin müraciətilə bağlı təkrar araşdırma prosesində səsvermə günü 111 saylı Zaqatala-Balakən seçki dairəsinin Zaqatala bələdiyyəsini əhatə edən 1, 2, 5, 6, 7, 8, 9 və 11 saylı məntəqə seçki komissiyalarında quraşdırılmış vebkameraların görüntülərinə baxış keçirilmiş və həmin görüntülərdə də seçki qanunvericiliyinin pozulması halları müəyyən edilməmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, namizəd M.İ.İsmayılovun 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində müşahidəçisi, vəkil edilmiş şəxsi və səlahiyyətli nümayəndəsi qeydə alınmamış, namizədin özü isə səsvermə günü müxtəlif seçki məntəqələrində qısa müddətdə müşahidə aparmış, iddia etdiyi pozuntularla bağlı müvafiq seçki komissiyalarına müraciət etməmişdir.

Ərizəçinin araşdırmada iştirak etməsinin və sənədlərlə tanış olmasının dairə seçki komissiyası tərəfindən təmin edilməməsi ilə bağlı iddiası həmin dairə seçki komissiyasının sədrindən, katiblərindən, üzvlərindən alınan izahatlarla təsdiqini tapmamışdır. Müəyyən olunmuşdur ki, namizəd M.İ.İsmayılov araşdırmaya və komissiyanın iclasına dəvət olunmuş, o, yalnız komissiyanın iclasında iştirak etmişdir.

Namizəd M.İ.İsmayılovun bələdiyyə seçkilərində səslərin onun iştirakı ilə sayılmasına dair tələbi ilə bağlı qeyd edilməlidir ki, mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokollarının araşdırılması nəticəsində və müxtəlif seçki subyektləri tərəfindən verilmiş izahatlar əsasında səslərin təkrar hesablanması üçün zərurət olmadığı müəyyən edilmişdir. Belə ki, məntəqə seçki komissiyaları tərəfindən səsvermənin nəticələrinə dair protokollar Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada və müddətdə tərtib edilərək dairə seçki komissiyasına çatdırılmışdır.

Araşdırma ilə müəyyən edilmişdir ki, dairə seçki komissiyası düzgün hüquqi nəticəyə gələrək 7 fevral 2025-ci il tarixli 4/10 saylı qərarı ilə namizəd M.İ.İsmayılovun müraciətini əsassız hesab edərək təmin etməmişdir.

Göstərilənlərə əsasən namizəd M.İ.İsmayılovun müraciətinin təmin edilməsi və dairə seçki komissiyasının qərarının ləğv edilməsi üçün hüquqi əsaslar yaranmamışdır.

Beləliklə, 111 saylı Zaqatala-Balakən seçki dairəsindən Zaqatala bələdiyyəsinə qeydə alınmış namizəd M.İ.İsmayılovun 10 fevral 2025-ci il tarixli 44 saylı müraciəti əsassız olduğundan təmin edilməməli, həmin dairə seçki komissiyasının 7 fevral 2025-ci il tarixli 4/10 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 111 saylı Zaqatala-Balakən seçki dairəsindən Zaqatala bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd İsmayılov Mübariz İsaq oğlunun 10 fevral 2025-ci il tarixli 44 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 7 fevral 2025-ci il tarixli 4/10 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*12.02.2025*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



## QƏRAR № 11/60

### 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 fevral 2025-ci il tarixli 47 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsindən Şıxmahmud bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Eyvazov Mətləb Hökumət oğlu 2025-ci il fevralın 11-də Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək seçkilərdə qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bunanla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112.1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin onu təqdim edmiş şəxsə geri qaytarılması barədə rəy vermişdir.

Belə ki, Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci və 112.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsindən Şıxmahmud bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Eyvazov Mətləb Hökumət oğlunun 11 fevral 2025-ci il tarixli 47 saylı müraciəti şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan onu təqdim edən şəxsə geri göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.02.2025*

## QƏRAR № 11/61

### 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2025-ci il tarixli 48 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 80 saylı Lerik-Astara seçki dairəsi üzrə Vizəzəmin bələdiyyəsinə keçirilmiş seçkilərlə əlaqədar seçici Hüseynov Araz Balahüseyn oğlu 2025-ci il fevralın 12-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsinin Vizəzəmin bələdiyyəsi üzrə səsvermə günü qanun pozuntularının baş verdiyini iddia etmiş və bununla bağlı müvafiq tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci və 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 80 saylı Lerik-Astara seçki dairəsindən Vizəzəmin bələdiyyəsi üzrə keçirilmiş seçkilərlə əlaqədar seçici Hüseynov Araz Balahüseyn oğlunun 2025-ci il 12 fevral tarixli 48 saylı müraciəti şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan onu təqdim edən şəxsə geri göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.02.2025*

## QƏRAR № 11/62

### 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 fevral 2025-ci il tarixli 46 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 58 saylı Xaçmaz kənd seçki dairəsindən Xudat bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Əliyev Həsən Cabbar oğlu 2025-ci il fevralın 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək, səsvermə günü Xudat bələdiyyəsini əhatə edən seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü 28.2-ci, 112-ci və 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 58 saylı Xaçmaz kənd seçki dairəsindən Xudat bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Əliyev Həsən Cabbar oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 fevral 2025-ci il tarixli 46 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxsə geri göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.02.2025*

## QƏRAR № 11/63

### 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2025-ci il tarixli 49 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsindən Müşviqabad bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Məmmədov Samir Adil oğlu, Qarayev Babək Mətləb oğlu, Məmmədov Tural Müzəffər oğlu, Ələkbərov Rəhim Rafiq oğlu və Nəzərli Rəşad Zaman oğlu 12 fevral 2025-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin hüdudlarında Müşviqabad bələdiyyəsinə seçki keçirilən 47 və 48 saylı seçki məntəqələrinin yaradılmasını və dairə seçki komissiyasının 6 fevral 2025-ci il tarixli 9/23 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini və müvafiq tədbirlər görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı müraciət etmiş namizədlərlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. Qeydə alınmış namizədlər S.A.Məmmədov, B.M.Qarayev və T.M.Məmmədovun araşdırmada və Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Qeydə alınmış namizədlər müraciətdə 47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsindən Müşviqabad bələdiyyəsinə seçki keçirilən 47 və 48 saylı seçki məntəqələrinin yaradılması və harada yerləşməsi barədə məlumatsız olmalarını bildirərək, bunu öz hüquqlarının pozulması kimi qiymətləndirmiş və buna görə də seçki dairəsinin həmin seçki məntəqələri üzrə səslərin etibarsız sayılmasını və səsvermənin nəticələrinin ləğv edilməsini tələb etmişlər. Müraciətə bir ədəd CD-R disk əlavə olunmuşdur.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

Müraciətə əlavə edilmiş bir ədəd CD-R diskdə olan 2 videogörüntüyə araşdırmada iştirak edən namizədlərlə birgə baxış keçirilmiş və dairə seçki komissiyasında 29 yanvar 2025-ci ildə çəkilməsi iddia olunan həmin videogörüntülərdə hər hansı qanun pozuntusu müşahidə olunmamışdır. Belə ki, həmin videogörüntülər dairə seçki komissiyasının elanlar lövhəsində Seçki Məcəlləsinin 35.5-ci maddəsinə əsasən səsvermə gününə azı 5 gün qalmış yaradılan seçki məntəqələrinə dair müvafiq məlumatın olmaması faktını göstərmək məqsədilə çəkilmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, seçki dairəsi üzrə 47 və 48 saylı seçki məntəqələri 47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsi dairə seçki komissiyasının 4 yanvar 2025-ci il tarixli 2/8 saylı qərarı ilə Seçki Məcəlləsinin 35.5-ci maddəsinin tələblərinə uyğun yaradılmış, bu barədə dairə seçki komissiyasının qərarı müvafiq qaydada dərc edilərək ictimailəşdirilmişdir. Həmin seçki məntəqələrinin yaradılması barədə qərarın ictimailəşdirilməsi Müşviqabad bələdiyyəsi üzvlüyünə qeydə alınmış, lakin şeçilməmiş digər namizədlərin izahatları ilə də öz təsdiqini tapmışdır.

Həmçinin dairə seçki komissiyasının sədri, katibləri və üzvlərinin izahatları ilə müəyyən edilir ki, səsvermə günü ərəfəsində digər seçki sənədləri ilə yanaşı mübahisələndirilən seçki məntəqələrinin yaradılması barədə dairə seçki komissiyasının qeyd edilən qərarı da məlumat lövhəsindən çıxarılmışdır.

Beləliklə, 47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsinin dairə seçki komissiyası namizədlər S.A.Məmmədov və digərlərinin müraciətinin təmin edilməməsi ilə bağlı düzgün nəticəyə gəldiyindən 47 və 48 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin və dairə seçki komissiyasının 6 fevral 2025-ci il tarixli 9/23 saylı qərarının ləğv edilməsi üçün hüquqi əsaslar yaranmamışdır.

Bununla da, namizədlər S.A.Məmmədov və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2025-ci il tarixli 49 saylı müraciəti təmin edilməməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 35.5-ci, 112-ci və 112.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsindən Müşviqabad bələdiyyəsi üzvlüynə qeydə alınmış namizədlər Məmmədov Samir Adil oğlu, Qarayev Babək Mətləb oğlu, Məmmədov Tural Müzəffər oğlu, Ələkbərov Rəhim Rafiq oğlu və Nəzərli Rəşad Zaman oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2025-ci il tarixli 49 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 6 fevral 2025-ci il tarixli 9/23 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*12.02.2025*




# Afrika ölkələri də Azərbaycanla əməkdaşlığa maraq göstərir

## Somali bu sırada ilk dövlətlərdəndir

**Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmudun Azərbaycana rəsmi səfəri iki ölkə arasında əlaqələrin genişlənməsinə, o cümlədən iqtisadi əməkdaşlığın inkişafına yeni təkan verəcək. Bu həm də onu göstərir ki, Azərbaycan, ümumiyyətlə, Afrika ölkələri üçün yeni əməkdaşlıq perspektivləri açır.**

ölkələri ilə əlaqələrimizin gücləndirilməsinə töhfə verib və bu əməkdaşlığın inkişafı prioritetlərimizdən biridir.

Sözügedən səfər çərçivəsində Somalinin xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin Sumqayıt Kimya Sənaye Parkının fəaliyyəti ilə tanış olması da deyilənləri təsdiqləyir. Həmin görüş çərçivəsində sənaye sahəsində qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub, sənaye zonası modelinin tətbiqinin üstünlükləri diqqətə çatdırılıb. Qonaqlar Sumqayıt Kimya Sənaye Parkında görülmüş işlərlə, sənaye parkının rezidenti "Azerfloat" QSC-nin vərəqə şüşə istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olublar.





Əvvəla xatırladaq ki, Somali Federativ Respublikası Şərqi Afrikada, Afrika buynuzu deyilən coğrafi bölgədə yerləşən bir ölkədir. Vətəndaş müharibəsi və separatistlərin fəaliyyəti nəticəsində Somali bir neçə hissəyə parçalanmışdır. Ölkənin qərbində Cibuti, Efiopiya və Keniya, şərqində Hind okeanı yerləşir. Paytaxtı Mogadişu şəhəridir. Somali 1960-cı il sentyabrın 20-dən BMT-nin üzvüdür.

Azərbaycanla Somali arasında diplomatik əlaqələr 2004-cü il mart ayının 22-də qurulmuşdur. Deməli, diplomatik münasibətlərin artıq 21 illik tarixi var. Ölkələrimiz arasında təmasların xüsusilə son illər ərzində intensivləşməsi əməkdaşlıq perspektivlərinin artmasında faydalı rol oynayır. Azərbaycan və Somali arasında siyasi məsləhətləşmələr haqqında imzalanmış sazişə uyğun olaraq, əməkdaşlığın genişləndirilməsində bu mexanizmdən istifadə vacib əhəmiyyət daşıyır. Bu baxımdan keçənilki və builki görüşlər xüsusi qeyd olunmalıdır. Belə ki, 2024-cü il iyulun 25-də iqtisadiyyat naziri Mikayıl Cabbarovun Somali Federativ Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Ahmed Moallim Fiqi ilə görüşündə ikitərəfli iqtisadi əlaqələrin təşviqi və energetika sahəsində potensial tərəfdaşlıq imkanları müzakirə olunub. Tərəflər iki ölkə arasında qarşılıqlı faydalı iqtisadi əlaqələrin yaradılmasının, əlaqələrin inkişafına dəstək məqsədilə hüquq-müqavilə bazasının genişləndirilməsinin, eləcə də qarşılıqlı maraq doğuran sahələrdə təcrübə mübadiləsinin həyata keçirilməsinin məqsədəuyğunluğunu vurğulayıblar.

Növbəti gün isə ölkəmizdə rəsmi səfərdə olan Ahməd Moallim Fiqi ilə xarici işlər naziri Ceyhun Bayramov görüşüb. Nazirlər arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib. Görüşdə iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf perspektivləri, bu istiqamətdə atılacaq gələcək addımlar, habelə cari regional vəziyyət müzakirə olunub. Bir sıra istiqamətlər, o cümlədən kənd təsərrüfatı, balıqçılıq, neft və qaz sənayesi, "yaşıl enerji", humanitar, təhsil sahələri üzrə əməkdaşlığın inkişafı üçün potensialın mövcudluğu, bu istiqamətdə qarşılıqlı təmasların və təcrübə mübadilələrinin aparılmasının əhəmiyyəti qeyd edilib.

Ölkələrimizin beynəlxalq və regional təşkilatlar, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı hörmət, dəstək və həmrəyliyə əsaslanan əməkdaşlığı məmnunluq doğurur. Somalinin 2025-2026-cı illər üzrə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü müddətində beynəlxalq sülh və təhlükəsizlik səyləri tərəfimizdən dəstəklənir. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövrü Afrika

Bu il fevralın 4-5-də respublikamızın xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin rəhbərliyi ilə hökumət missiyasının Somaliyə səfəri əlaqələrin inkişafı üçün növbəti addım kimi dəyərləndirilir. Səfər zamanı nümayəndə heyətinin bir sıra qurumların yüksəkvəzifəli şəxsləri ilə görüşləri keçirilib, o cümlədən Türkiyə Maarif Fondunun Somali nümayəndəliyinə tanışlıq səfəri təşkil edilib. Əməkdaşlığın inkişafı üçün potensialın mövcud olduğu və müvafiq sahələrdə ikitərəfli hüquq-müqavilə bazasının yaradılmasının vacibliyi vurğulanıb.

Səfər çərçivəsində həmçinin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Somali Federativ Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrin ilk iclası keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Somali tərəfindən isə xarici işlər və beynəlxalq əməkdaşlıq üzrə dövlət naziri Ali Mohamed Omar Balad rəhbərlik edib. Siyasi məsləhətləşmələr zamanı ikitərəfli siyasi və iqtisadi məsələlər, BMT, Qoşulmama Hərəkatı, İƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Somali Prezidentinin Azərbaycana rəsmi səfəri ilə ölkələrimiz dostluq və əməkdaşlıq münasibətlərinin yeni və mühüm bir mərhələsinə qədəm qoyur. Bunu fevralın 12-də Azərbaycan Respublikası ilə Somali Federativ Respublikası arasında imzalanmış sənədlər də təsdiqləyir. Belə ki, həmin gün "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Somali Federativ Respublikasının Prezidentinin Ofisi arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Somali Federativ Respublikasının Energetika və Su Ehtiyatları Nazirliyi arasında "yaşıl enerji" sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Somali Federativ Respublikasının Təhsil, Mədəniyyət və Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq haqqında Saziş" imzalanıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*









# Görüş yeri Qarabağdır

## İşğaldan azad edilmiş ərazilərdə 400-dən çox müəssisə fəaliyyət göstərir

**İşğaldan azad olunmuş ərazilərimizdə həyat sürətlə öz axarına dönür. 30 il düşmən tapdağında inləmiş yurdumuzun başı üzərində indi mavi səma açıq-aydın görünür. Bu aydınlıqda Qarabağ və Şərqi Zəngəzur dirçəlir, inkişaf edir.**

Artıq 4 ildir ki, Böyük qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda şəhər və kəndlər yenidən tikilir, müasir infrastruktur qurulur, istehsal müəssisələri yaradılır, keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına dönürlər. Görülən bu işlər təbii ki, Prezident İlham Əliyevin birbaşa tapşırığı və nəzarəti ilə həyata keçirilir. Dövlət başçısının tez-tez Qarabağa və Şərqi Zəngəzura səfər etməsi bölgədə həyata keçirilən quruculuq və bərpa işlərinin sürətlənməsinə təkan verir.

Hələ 2020-ci ildə Prezidentin sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradılmışdır. Qurumun vəzifəsi regionda sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələləri həll etmək, eləcə də bu istiqamətdə görülən işləri əlaqələndirməkdir.

Prezident Administrasiyasının və Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı ilə qurumun növbəti iclası Xankəndi şəhərində keçirildi. Samir Nuriyev iclasda Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinin geniş vüsət aldığını qeyd etdi: "Dövlətimizin başçısının təsdiq etdiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən irimiqyaslı layihələr çərçivəsində müasir infrastruktur qurulur, keçmiş məcburi köçkünlərin rahat şəkildə öz yurdlarına qayıtmaları və məskunlaşmaları üçün yaşayış məntəqələri salınır, ərazilərdə zəruri şərait yaradılır".

Bəli, bu gün işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış prioritet vəzifədir. Bu prosesin vaxtında və keyfiyyətli şəkildə həyata keçirilməsi, eləcə də infrastruktur layihələrinin başa çatdırılması böyük əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev də yanvarın 7-də yerli telekanallara verdiyi müsahibəsində bunu vurğulamışdır: "Biz əsas infrastruktur layihələrini yəqin ki, bir-iki ilə başa çatdıracağıq. Ən çox vəsait bu layihələrə gedir. Çünki 60 kilometrdən çox tunel, körpü, elektrik stansiyaları, su anbarları inşa edilir. Biz artıq orada 30-dan çox su-elektrik stansiyasını işə salmışıq, dəmir yolları çəkmişik. Yəni bütün bunlar əsas maliyyə yükü götürür. Təqribən 2-3 ildən sonra əsas infrastruktur layihələri başa çatacaq və ondan sonra yaşayış fondunun yaranmasına istiqamətləndiriləcək məbləğ daha böyük olacaq".

Böyük qayıdış proqramı çərçivəsində 2022-ci ilin iyul ayında Zəngilanın Ağalı kəndinə başlanan köç hazırda sürətlə davam edir. 30 ildən artıq məcburi köçkünlük həyatı yaşamış soydaşlarımız böyük sevinc və qürur hissi ilə doğma yurd-yuvalarına dönürlər. Adıçəkilən iclasda bu məsələ barəsində də danışılmış və təkliflər səsləndirilmişdir. Qeyd olunmuşdur ki, bu gün işğaldan azad olunmuş ərazilərdə 40 minə yaxın insan yaşayır və fəaliyyət göstərir.

Məlumdur ki, işğaldan azad edilmiş ərazilərin bərpası, regionun sənaye potensialının reallaşdırılması, ölkə iqtisadiyyatına reinteqrasiyası, əhalinin məşğulluğunun təmin edilməsi üçün dövlət başçısının müvafiq sərəncamları ilə Ağdam şəhərində Ağdam Sənaye Parkı, Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Həmin sənaye parklarında sahibkarlar üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Ağdam Sənaye Parkında artıq 9 müəssisə fəaliyyət göstərir. Bu müəssisələr elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyaların, dam və fasad örtüklərinin, havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatlarının, divar kağızlarının, müxtəlif növ ayaqqabıların, avtomatlaşdırma və telemexanika sistemlərinin, məsaməli hörgü bloklarının istehsalı ilə məşğul olurlar. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında isə logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnika təmiri məntəqələrinin yaradılması planlaşdırılır. O da qeyd olunmuşdur ki, işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında 400-dən çox müəssisə fəaliyyət göstərir. Hətta Ağdam Sənaye Parkındakı müəssisələrdə istehsal edilən məhsulların ixracına da başlanılıb.

Bütün bunlar Əlaqələndirmə Qərargahının iclasında bir daha xatırlanmış, eləcə də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının aqrar, sənaye və turizm sahələrinin inkişafı baxımından böyük imkanları olduğu qeyd edilmiş, məskunlaşma prosesi ilə yanaşı, istehsal və emal, ticarət, xidmət, sənaye müəssisələrinin qurulduğu, müxtəlif iqtisadi fəaliyyət sahələrinin yaradıldığı, dövlətimizin başçısının sərəncamlarına uyğun olaraq ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün maliyyə resurslarına çıxış imkanlarının genişləndirildiyi, vergi və gömrük güzəştlərinin, həmçinin digər stimullaşdırıcı mexanizmlərin tətbiq olunduğu diqqətə çatdırılmışdır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Paytaxtda daha bir yerüstü piyada keçidinin inşası yekunlaşıb

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi piyadaların avtomobil yolunu keçməsində problem yaşanan daha bir ərazidə - Hava Limanı-Mərdəkan-Zuğulba avtomobil yolunun 3-cü km-də yeni piyada keçidinin inşasını yekunlaşdırıb.**

Layihə üzrə keçidin ümumi uzunluğu 51, daxili eni 3,5, pilləkənlərin eni 3 metrdir. Yol səviyyəsindən hündürlüyü 5,8 metr olan keçid orta dayaqdan ibarət, metal konstruksiyalıdır.

İki giriş-çıxışdan ibarət olan keçiddə lift sistemləri quraşdırılıb, keçidin istismarına nəzarət edən işçilər üçün nəzarət otağı qurulub, təhlükəsizlik kameraları quraşdırılıb, keçidin ətrafında abadlaşdırılma işləri görülüb.

Yeni yerüstü piyada keçidi inşa edilən ərazidə piyadaların avtomobil yolunu rahat və təhlükəsiz şəraitdə keçməsini təmin edəcək.



# Bakıda növbəti "Kənddən şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq

**Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən fevralın 15-16-da Bakıda növbəti "Kənddən şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq.**

Yarmarkada ümumilikdə 20-dən artıq rayondan 50-dən çox fermerin iştirakı gözlənilir. Fermerlər 150-dən artıq çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər.

Yarmarka Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metrostansiyasının çıxışı, Atatürk parkının qarşısı) ünvanında keçirilir və burada satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edir. Vətəndaşlar yarmarkada fəaliyyət göstərəcək Səyyar Qida Laboratoriyasının xidmətlərindən də faydalana biləcəklər.

Yarmarkanın keçirilməsində əsas məqsəd yerli fermerlər üçün alternativ satış kanalı yaratmaq, həmçinin şəhər sakinlərini təbii və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

# Dövlət Əmək Müfəttişliyi Xidməti Böyük Britaniyada keçirilən müsabiqədə 2 mükafata layiq görülüb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti Böyük Britaniyanın "Global Financial Market Review (GFM)" beynəlxalq jurnalının "Global Financial Market Review - Awards 2025" müsabiqəsində uğur qazanıb.**

Müsabiqəyə DƏMX-nin son bir ildəki fəaliyyəti və "Əmək və Məşğulluq" altsistemi ilə bağlı məlumatlar təqdim edilib. Münsiflər heyəti qurumun fəaliyyət sahələrində aparılan islahatları, habelə elektron həllərin tətbiqi ilə bağlı son illər əldə etdiyi uğurlu təcrübəni yüksək dəyərləndirib.

Beləliklə, Dövlət Əmək Müfəttişliyi Xidməti "İlin Rəqəmsal İnnovasiyası" və "İlin Ən Yaxşı Texnoloji Həllər Tənzimləyicisi" nominasiyaları üzrə mükafatlara layiq görülüb.

Müsabiqədə Azərbaycanla yanaşı, ABŞ, Birləşmiş Krallıq, Fransa, İtaliya, Almaniya, Türkiyə və digər 100-ə yaxın ölkədən maliyyə-kredit, bank, pensiya, sığorta və investisiya qurumları, regional və beynəlxalq maliyyə korporasiyaları iştirak edib.

# Ötən ay 3,9 min şəxsə əlillik təyin edilib

**Bu ilin yanvar ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 3,9 min şəxsə əlillik təyin edilib.**

Onlardan 1,7 mininə ilkin, 2,2 mininə isə təkrar əlillik təyinatı aparılıb. Əlillik təyinatından sonra e-sistem üzərindən həmin şəxslərə əlilliyə görə proaktiv qaydada sosial ödənişlər (pensiya, müavinət, təqaüd) təyin olunub.

# Azərbaycan nefti bahalaşıb

**AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,11 dollar və ya 1,4 faiz artaraq 78,98 dollar olub.**



Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

**Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin ƏSASNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra - Agentlik) rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət siyasətini və tənzimləməsini, habelə ölkədə dövlət əyar nəzarətini və qiymətli metalların, qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi, eləcə də emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanılma xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi, büdcədənkənar vəsait və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Bakı şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət, ölkədə dövlət əyar nəzarəti və qiymətli metalların, qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi, habelə emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində (bundan sonra - müvafiq sahə) dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və həmin siyasətin həyata keçirilməsini təmin etmək;

2.1.2. rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət tənzimləməsini həyata keçirmək;

2.1.3. müvafiq sahədə dövlət nəzarətini və əlaqələndirməni həyata keçirmək;

2.1.4. aidiyyəti dövlət orqanları ilə birlikdə dövlətin qiymət-tarif siyasətinin həyata keçirilməsində iştirak etmək;

2.1.5. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

2.1.6. müvafiq sahənin inkişafı üçün tədbirlər görmək.

**3. Agentliyin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.1.2. müvafiq sahədə inkişaf konsepsiyalarının və dövlət proqramlarının hazırlanmasını və həyata keçirilməsini aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə təmin etmək;

3.1.3. müvafiq sahədə dövlət tənzimləməsi mexanizmlərinin təkmilləşdirilməsinə dair təklifləri aidiyyəti üzrə təqdim etmək;

3.1.4. rəqabət qanunvericiliyinin tələblərinə riayət olunmasına dövlət nəzarətini həyata keçirmək, inhisarçılıq və haqsız rəqabət fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması, təsərrüfat subyektləri və müştərilərin mənafelərinin pozulmasına gətirib çıxaran və ya gətirib çıxara bilən hərəkətlərin qarşısının alınması ilə bağlı rəqabət qanunvericiliyi ilə səlahiyyətlərinə aid edilmiş tədbirlər görmək;

3.1.5. rəqabət qanunvericiliyində nəzərdə tutulmuş hallarda və qaydada hüquqi şəxslərin, o cümlədən dövlətə və bələdiyyəyə məxsus olan hüquqi şəxslərin yaradılmasına, yenidən təşkilinə və ləğv edilməsinə razılıq vermək;

3.1.6. iqtisadi təmərküzləşmələrlə bağlı müvafiq ərizələri rəqabət qanunvericiliyinə uyğun olaraq araşdırmaq, araşdırmanın nəticələrinə əsasən təmərküzləşmələrə şərtli və ya şərtsiz razılıq vermək, yaxud razılıq verilməsindən imtina etmək;

3.1.7. rəqabətin vəziyyətini araşdırmaq, təsərrüfat subyektlərinin hökmran mövqeyini müəyyən etmək və müvafiq bazarda payı qanunvericiliklə müəyyən edilmiş həddən çox olan hökmran mövqe tutmuş təsərrüfat subyektlərinin fəaliyyətində rəqabətli mühitin təmin edilməsi üçün təkliflər vermək;

3.1.8. dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, habelə tənzimləyici qurumlar tərəfindən iqtisadiyyatın müəyyən sahələrində fəaliyyət göstərən təsərrüfat subyektlərinə subsidiya və digər dövlət yardımlarının verilməsini və tənzimləmə tədbirlərinin rəqabətə təsirini mütəmadi olaraq qiymətləndirmək;

3.1.9. təsərrüfat subyektləri ilə xarici ölkələrin hüquqi və fiziki şəxsləri arasında bağlanılan sazişlərin, təmərküzləşmələrin və (və ya) həmin subyektlərin xaricdəki fəaliyyətinin daxili bazarda rəqabəti məhdudlaşdırmasına gətirib çıxardığı hallarda tədbirlər görmək;

3.1.10. qiymət manipulyasiyası, qiymət ayrı-seçkiliyi və qiymətlərin dempinqinə qarşı rəqabət qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.11. rəqabət qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada, bazar subyektləri tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti metodlarını (araşdırma və yoxlama) həyata keçirmək, təhlil və monitorinqlər aparmaq, o cümlədən qiymət artımına təsir göstərən inhisarlaşma, rəqabətin məhdudlaşdırılması, bazarların bölüşdürülməsi, razılaşdırılmış qiymətlərin tətbiq edilməsi hallarının qarşısının alınması məqsədilə hər bir məhsul bazarı üzrə monitorinqlər aparmaq;

3.1.12. rəqabət qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması barədə verilmiş qərarlar və göstərişlər icra olunmadıqda, həmin qərar və göstərişlərin məcburi icrasını təmin etmək məqsədilə məhkəmədə iddia qaldırmaq;

3.1.13. rəqabət qanunvericiliyini pozan bazar subyektləri maliyyə sanksiyasını vaxtında ödəmədiyi və ya qismən ödədiyi halda maliyyə sanksiyasının, yaxud onun ödənilməmiş hissəsinin məcburi qaydada ödənilməsi üçün tələbin məcburi icraya yönəldilməsi haqqında qərar qəbul etmək;

3.1.14. rəqabət qanunvericiliyinin pozulmasına yol verilməklə bağlanılmış sazişlərin və müqavilələrin ləğvi və ya dəyişdirilməsi, həmçinin bazarın digər subyektləri ilə sazişlərin və müqavilələrin məcburi qaydada bağlanılması, habelə razılıq alınmadan həyata keçirilən və rəqabəti məhdudlaşdıran təmərküzləşmələrə yol vermiş təsərrüfat subyektlərinin (maliyyə institutlarına münasibətdə Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə razılaşdırmaqla) bölünməsi haqqında göstəriş icra edilmədikdə, onların tam və ya qismən etibarsız hesab edilməsi (etibarsızlığının təsdiq edilməsi) və nəticələrinin tətbiq edilməsi, yaxud məcburi qaydada bağlanılması barədə iddia ilə məhkəməyə müraciət etmək;

3.1.15. Agentlik tərəfindən aparılan araşdırmalar və yoxlamalar zamanı bazar subyektləri tərəfindən rəqabət qanunvericiliyinin pozulması əlamətləri müəyyən edildikdə, həmin subyektlər barəsində rəqabət qanunvericiliyinin tələblərinə uyğun olaraq iş qaldırmaq, işin nəticələrinə uyğun olaraq maliyyə sanksiyaları tətbiq etmək və icrası məcburi olan göstərişlər vermək;

3.1.16. rəqabət, istehlakçıların hüquqlarının müdafiəsi, texniki tənzimləmə, metrologiya, uyğunluğun qiymətləndirilməsi, standartlaşdırma və akkreditasiya haqqında qanunvericiliyin pozulması ilə əlaqədar təsərrüfat subyektinə verilmiş lisenziyanın və ya icazənin qüvvəsinin dayandırılması üçün onu vermiş dövlət orqanına (qurumuna) təqdimat göndərmək;

3.1.17. təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək, onların müştərilərin mənafeyinə və rəqabətə mənfi təsir göstərə bilən hərəkətlərinin qarşısının alınması və aradan qaldırılması üçün rəqabət qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.18. təbii inhisar subyektlərinin fəaliyyətinin rəqabət qanunvericiliyinə müvafiq olaraq həyata keçirilməsinin monitorinqini aparmaq və təbii inhisar subyektlərinin siyahısına dair təkliflər vermək, bu məqsədlə təsərrüfat subyektlərindən texniki-iqtisadi və digər göstəriciləri almaq, iqtisadi və hüquqi əsaslandırmaları əldə etmək, eləcə də təsərrüfat subyektlərinin təbii inhisar subyektlərinin siyahısına daxil edilmələri ilə bağlı müraciətlərinə baxmaq;

3.1.19. təbii inhisar subyektləri tərəfindən qiymətləri tənzimlənməyən məhsullar üzrə rəqabət qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə uyğun gəlməyən və iqtisadi cəhətdən əsaslandırılmamış qiymətlərin real iqtisadi göstəricilərə uyğunlaşdırılması barədə göstərişlər vermək;

3.1.20. təbii inhisar subyektlərinin dövlət nəzarətində olan hərəkətlərinin həyata keçirilməsinə və sosial xarakterli fövqəladə mühit rejiminin mövcudluğu səbəbindən təbii inhisar subyektlərinin müraciəti əsasında müəyyən ərazidə, yaxud dövrdə digər bazar subyektinin müvəqqəti fəaliyyət göstərməsinə razılıq vermək;

3.1.21. təbii inhisar sahəsində dövlət tənzimləməsini həyata keçirmək, o cümlədən təbii inhisar subyektlərinin hər biri üçün tətbiq edilməli olan tənzimləmə üsullarını rəqabət qanunvericiliyinə uyğun müəyyənləşdirmək və tətbiq etmək;

3.1.22. dövlət tərəfindən qiymətləri tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısına, o cümlədən təbii inhisar subyektlərinin məhsullarının qiymətlərinin tənzimlənməsinə, habelə tənzimlənən qiymətlərin formalaşdırılmasına dair təkliflər vermək, daxil olmuş təkliflərə rəy vermək, onların tətbiqi qaydalarına nəzarət etmək;

3.1.23. "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada antidempinq, kompensasiya və mühafizə tədbirləri üzrə araşdırmanı həyata keçirmək;

3.1.24. maliyyə-sənaye qruplarının fəaliyyətinə "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada nəzarət etmək;

3.1.25. maliyyə-sənaye qruplarının yaradılmasına dair müqavilələrə, həmin müqavilələrin şərtlərində və ya qrup iştirakçılarının tərkibində edilən dəyişikliklərlə bağlı müraciətlərə rəqabət qanunvericiliyinin tələblərinə uyğunluq barədə rəy vermək;

3.1.26. "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun və texnikinormativ hüquqi aktların tələblərinə cavab verməyən, insanların həyat və sağlamlığı, ətraf mühit üçün təhlükə yaradan malların (işlərin, xidmətlərin) istehsalının, idxalının, satışa çıxarılmasının, satışının (yerinə yetirilməsinin), realizə edilməsinin və ya istifadəsinin qarşısının alınması ilə bağlı tədbirlər görmək;

3.1.27. istehlakçıların hüquqlarını məhdudlaşdıran şərtlərin müqaviləyə daxil edilməsinin qarşısının alınması ilə bağlı tədbirlər görmək;

3.1.28. istehlakçıların çəkidə (ölçüdə), qiymətdə, hesablaşmalarda aldadılması, mallar barədə istehlakçılara tam və düzgün məlumat verilməməsi, satış şərtlərinin pozulması barədə alıcıların müraciətlərinə baxmaq və tədbirlər görmək;

3.1.29. özgənin əmtəə və ya xidmət etmə nişanlarından, əmtəənin mənşə yerinin adından və ya eynicinsli əmtəələrin adına oxşar adlardan qeyri-qanuni istifadə olunmasına qarşı qanunla səlahiyyətlərinə aid edilmiş tədbirlər görmək, o cümlədən aşkar edilmiş nöqsanların aradan qaldırılması ilə bağlı aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdimat vermək;

3.1.30. qida məhsulları, həmçinin baytarlıq və fitosanitar nəzarətində olan yüklər istisna olmaqla, malların saxlanılması və ya satışı zamanı mal qonşuluğuna, temperatur rejiminə, satılmış malların dəyişdirilməsi və ya geri qaytarılması qaydalarına əməl olunmasına nəzarət etmək;

3.1.31. qiymət intizamına, o cümlədən qiymətləri dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) təqdim olunması zamanı qiymət intizamına riayət edilməsinə və qiymətlərin düzgün tətbiqinə nəzarət etmək;

3.1.32. dövlət satınalmaları zamanı rəqabət qanunvericiliyinin tələblərinə riayət olunmasına nəzarət etmək, bütün təchizatçıların satınalmalarda iştirakı üçün bərabər rəqabət mühitinin yaradılması məqsədilə tədbirlər görmək;

3.1.33. dövlət satınalmaları zamanı maliyyə vəsaitindən səmərəli və qənaətlə istifadə edilməsi, dövlət satınalmalarının "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində nəzərdə tutulmuş prinsiplər əsasında həyata keçirilməsi, dövlət satınalmaları haqqında qanunvericiliyin pozulmasının qarşısının alınması üçün tədbirlər görmək;

3.1.34. maliyyə vəsaiti hesabına satınalma predmetinin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satın alınmasına və satınalma müqavilələrinin icrasına nəzarət etmək, mübahisəli məsələləri araşdırmaq və nəticəsindən asılı olaraq həmin Qanunda nəzərdə tutulmuş qaydada tədbirlər görmək;

3.1.35. dövlət satınalmalarının vahid internet portalının operatoru funksiyalarını yerinə yetirmək;

3.1.36. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada satınalan təşkilatın qərarlarını təsdiq etmək;

3.1.37. satınalma müqaviləsi qalib təchizatçı tərəfindən imzalananadək satınalma komissiyası əvvəlcədən şərtlər toplusunda göstərmişdirsə, satınalma predmetinin hər vahidinin qiymətini və xüsusiyyətlərini (göstəricilərini) dəyişdirməmək, həmçinin ehtimal olunan qiyməti keçməmək şərtilə satınalma predmetinin həcminin (miqdarının) "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq artırıb-azaldılmasına razılıq vermək;

3.1.38. dövlət satınalmaları üzrə illik hesabatları hazırlamaq;

3.1.39. açıq məkanda reklam istisna olmaqla, reklam subyektlərinin fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək;

3.1.40. dövlət ilkin kəmiyyət vahidləri etalonlarını və dövlət kəmiyyət vahidlərinin etalonlarını təsdiq etmək, habelə onların əldə olunmasını, qorunub saxlanılmasını, dövlət ilkin kəmiyyət vahidləri etalonlarından kəmiyyət vahidlərinin və dövlət kəmiyyət vahidi etalonlarından kəmiyyət vahidlərinin ötürülməsini təşkil etmək;

3.1.41. keçirilən sınaqların müsbət nəticələri əsasında standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında qərar qəbul etmək, bu barədə sertifikatlar vermək, tipi təsdiq edilmiş standart nümunələrin və ölçmə vasitələrinin dövlət reyestrini aparmaq;

3.1.42. dövlət metroloji nəzarəti, habelə ölçmə vasitələrinin kalibrlənməsi fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.43. müqavilə əsasında ölçmə vasitələrinin kalibrlənməsi işlərini aparmaq, kalibrlənmə haqqında sertifikat vermək və ya kalibrlənmə nişanı vurmaq hüququ vermək;

3.1.44. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq standartlaşdırma üzrə normativ sənədlərin vahid dövlət reyestrinin aparılmasını və nəşrini təmin etmək;

3.1.45. standartların hazırlanmasını, qəbulunu, tətbiqini və standartların tətbiqi ilə bağlı əlaqəli xidmətləri təşkil etmək;

3.1.46. "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya üzrə prinsip və qaydalara riayət edilməsini, uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiyanı həyata keçirmək, habelə uyğunluğu qiymətləndirən qurumların dövlət reyestrini aparmaq;

3.1.47. texniki tənzimləmə sahəsində malların sınağı üçün laboratoriya sisteminin inkişafı ilə bağlı təkliflər vermək;

3.1.48. "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədilə texniki reqlamentlərin layihəsinin ekspertizasını həyata keçirmək;

3.1.49. insanların həyat və sağlamlığına, ətraf mühitə, əmlaka və dövlətin maraqlarına yaratdığı təhlükənin dərəcəsindən asılı olaraq, malların (işlərin, xidmətlərin) yüksək, orta, aşağı risk qruplarının təyin edilmiş meyarlar üzrə təsnifatını müəyyənləşdirmək;

3.1.50. uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin reyestrini aparmaq, habelə texniki reqlamentdə müəyyən edilmiş əsas tələblərin təmin edilməsi məqsədilə istinad edilmiş standartların siyahısını təsdiq və dərc etmək;

3.1.51. tanınmış xarici mənşəli uyğunluq sənədlərinin reyestrini aparmaq;

3.1.52. dövlət əyar nəzarəti, qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi sahəsində qanunla müəyyən edilmiş hallarda və qaydada yoxlamalar aparmaq;

3.1.53. emal edilməmiş almazın ixracına və idxalına rəy vermək;

3.1.54. malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertizalar keçirmək və belə ekspertizaların nəticələrinə uyğun olaraq, malın mənşə ölkəsini təsdiq edən sertifikat vermək;

3.1.55. daxili ticarət və xidmət sahələrində dövlət siyasətinin formalaşdırılmasında, habelə daxili ticarətin və istehlak bazarının inkişafı ilə bağlı tədbirlər görülməsində aidiyyəti dövlət orqanları ilə birlikdə iştirak etmək;

3.1.56. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə aparılan araşdırmalar, monitorinqlər, yoxlamalar, ekspertizalar və onların nəticələri ilə bağlı görülən işlərə dair məlumatları təhlil etmək və vahid informasiya bankı yaratmaq;

3.1.57. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri aşkarlandıqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.58. sahibkarlıq fəaliyyəti (ictimai iaşə, turizm və mehmanxana (o cümlədən mehmanxana tipli digər obyektlər) fəaliyyəti istisna olmaqla) subyektləri və onların vəzifəli şəxsləri tərəfindən epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirmək;

3.1.59. Agentliyin fəaliyyət istiqamətləri üzrə göstərilən xidmətlərin rəqəmsallaşdırılmasını təmin etmək;

3.1.60. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək, pozulmasının qarşısını almaq;

3.1.61. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.1.62. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.63. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.64. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.65. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək və Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.66. Agentliyin strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən fəaliyyət istiqamətləri üzrə daxil olan təklifləri ümumiləşdirmək və tədbirlər görmək;

3.1.67. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.68. Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.69. müvafiq sahəyə ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə istifadə olunmasını təmin etmək;

3.1.70. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.71. fəaliyyətinin nəticələri barədə, o cümlədən ölkədə istehlakçıların hüquqlarının müdafiəsi vəziyyəti haqqında ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə hesabat təqdim etmək;

3.1.72. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Agentliyin hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

4.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.2. müvafiq sahədə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

4.1.3. beynəlxalq tədbirlərdə, o cümlədən forumlarda, konfranslarda, sərgilərdə və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda keçirilməsini təşkil etmək;

4.1.4. müvafiq sahədə beynəlxalq və xarici əməkdaşlığı həyata keçirmək, danışıqlar aparmaq və ya danışıqlar aparılmasında iştirak etmək, beynəlxalq müqavilələrin layihələrini hazırlamaq və ya hazırlanmasında iştirak etmək, verilmiş səlahiyyətlərə uyğun olaraq onları imzalamaq, imzalandıqdan sonra icrası üçün tədbirlər görmək, həmin təşkilatlarda müəyyən edilmiş qaydada ölkəni təmsil etmək, xarici dövlətlərin təcrübəsini öyrənmək;

4.1.5. fəaliyyət istiqamətləri ilə bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrasına nəzarət etmək və həmin müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün tədbirlər görmək;

4.1.6. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək, onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.7. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair rəy vermək, təhlillər, ümumiləşdirmələr, monitorinqlər, araşdırmalar, yoxlamalar, ekspertizalar və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq;

4.1.8. strukturuna daxil olmayan tabeliyində qurumların yaradılması, yenidən təşkil və ləğv edilməsi üçün təkliflər vermək;

4.1.9. müstəqil ekspert və mütəxəssisləri, məsləhətçi təşkilatları, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, ictimai əsaslarla işçi qruplar və komissiyalar yaratmaq;

4.1.10. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.11. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə qeyri-normativ metodiki və təlimat xarakterli göstərişlər, məsləhətlər və izahlar vermək;

4.1.12. maliyyə-sənaye qruplarından, təbii inhisar subyektlərindən fəaliyyətləri haqqında qanunla müəyyən edilmiş hesabat və məlumatları, o cümlədən təbii inhisar subyektlərinin investisiya layihələrini almaq;

4.1.13. dövlət satınalmaları sahəsində elmi-texniki, iqtisadi və normativ hüquqi məlumat bazalarını yaratmaq, məsləhət xidmətlərinin göstərilməsini təşkil etmək;

4.1.14. vəzifə və hüquqlarının həyata keçirilməsi ilə bağlı məhkəməyə müraciət etmək və məhkəmədə öz adından iştirak etmək;

4.1.15. fəaliyyət istiqamətlərinə aid məsələlərlə əlaqədar müqavilələr bağlamaq, strukturuna daxil olmayan tabeliyindəki qurumların fəaliyyət istiqamətləri üzrə göstərdiyi xidmətlərə görə alınan xidmət haqlarından daxil olan vəsaitdən istifadəni təmin etmək;

4.1.16. fəaliyyət istiqamətləri üzrə aidiyyəti dövlət orqanlarına (qurumlarına) təkliflər vermək;

4.1.17. istifadəsində olan dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;

4.1.18. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Agentliyin fəaliyyətinin təşkili**

5.1. Agentliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.) Agentliyin vahid sistemini təşkil edir. Agentlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Agentliyin strukturu, onun Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Agentliyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən sədr rəhbərlik edir. Sədr Agentliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır və Azərbaycan Respublikasının Prezidenti qarşısında hesabatlıdır.

5.4. Sədrin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən birinci müavini və 3 (üç) müavini vardır. Sədrin birinci müavini və müavinləri vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyırlar.

5.5. Sədr:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, habelə Agentliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Agentliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və elmi-texniki şurasının əsasnamələrinin, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrini (və ya əsasnamələrini) təsdiq edir, həmçinin bu Əsasnamənin 5.11-ci bəndində Agentliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.5.4. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu, ştat cədvəlini, ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

5.5.5. Agentliyin Aparatının işçilərini (sədrin müavinləri istisna olmaqla), habelə strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini və müavinlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.6. Agentlik sədrinin müavinləri istisna olmaqla, Agentliyin digər işçilərinə, strukturuna daxil olan qurumların rəhbərlərinə və onların müavinlərinə dövlət qulluğunun baş müşaviri və ondan aşağı olan ixtisas dərəcələri verir, habelə xüsusi fərqlənmiş əməkdaşlara Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət mükafatları ilə təltif olunması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

5.5.7. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin sərəncamçısı olaraq maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla Agentlik işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.8. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.9. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Agentlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.10. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxsləri, habelə beynəlxalq təşkilatlarla münasibətdə Agentliyi təmsil edir, danışıqlar aparır və verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.11. Agentliyin səlahiyyətlərinə aid edilən məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.12. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir;

5.5.13. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

5.5.14. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.15. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsini təmin edir.

5.6. Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.7. Sədr öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti olaraq icrasını birinci müavininə və ya müavinlərindən birinə həvalə edə bilər.

5.8. Agentlikdə sədrdən (Kollegiyanın sədri), onun birinci müavini və müavinlərindən, Agentliyin digər rəhbər işçilərindən ibarət Kollegiya yaradılır. Agentliyin Kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilər.

5.9. Kollegiya üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

5.10. Agentliyin Kollegiyası öz iclaslarında Agentliyin fəaliyyəti ilə bağlı məsələlərə baxır və müvafiq qərarlar qəbul edir.

5.11. Agentliyin Kollegiyası qərar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Agentliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktlar;

5.11.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Agentliyə tapşırılmış konkret normativ hüquqi aktlar;

5.11.3. bir neçə qurumun fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktlar;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktlar;

5.11.5. sədrin təşəbbüsü ilə Agentliyin Kollegiyasının müzakirəsinə çıxarılan, bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktlar;

5.11.6. bu Əsasnamənin 5.11.1-5.11.5-ci yarımbəndlərinə uyğun olaraq Agentliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişikliklərin edilməsi.

5.12. Agentliyin Kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Agentliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Agentliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Agentliyin Kollegiyasının üzvləri və sədr arasında fikir ayrılığı yarandıqda, sədr bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verərək öz qərarını həyata keçirir. Agentliyin Kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Prezidentinə çatdıra bilərlər.

5.14. Agentliyin Kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının), habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.

5.15. Agentlikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün ictimai əsaslarla fəaliyyət göstərən elmi-texniki şura yaradıla bilər.

5.16. Agentlikdə sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin öz sahibkarlıq fəaliyyəti ilə bağlı Agentliyin və ya onun struktur (yerli) qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərinə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

**Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin STRUKTURU

1. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Aparatı (şöbələr və sektorlar).

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin regional bölmələri.





# Ədəbiyyat





● Elm xadimlərimiz

# Yeni tipli ədəbiyyatşünaslıq məktəbinin yaradıcısı

**Tarix üçün uzun sayılmaya bilər. Ancaq bir insan ömrü üçün böyük zamandır. Ədəbiyyatşünas, tənqidçi, filologiya elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi Əziz Mirəhmədov iyirmi üç ildir ki, həyatda yoxdur.**



O, yüz beş il qabaq - 1920-ci il fevralın 11-də Bakı şəhərində dünyaya gəldi. Hələ alimin sağlığında çap olunmuş "Əziz Mirəhmədov: Alim ömrü" adlı monoqrafiyasında Əziz müəllimin uşaqlıq illərindən də bəhs olunub. Qeyd edək ki, monoqrafiyanın müəllifi filologiya elmləri doktoru, professor Zaman Əsgərli Əziz Mirəhmədovun aspirantı olmuşdu. Yazdıqlarının əksəriyyətini müəlliminin özündən eşitmişdi. Zaman Əsgərli yazırdı: "Onun babası Mirdadaş əslən bakılı idi. Qafqazda ən mahir zərgər kimi tanınmışdı. Şəhərin mərkəzi küçəsində emalatxanası vardı. Oğulları Mirəhməd, Mirmöhsün, Mirfeyzulla və Mirmehdi də Mirdadaşın yanında zərgərlik öyrənmişdilər. Amma 1896-cı ildə Mirdadaşın ölməsi uşaqları bu sahədən uzaqlaşdırmışdır. Onlar atadanqalma emalatxana-dükanı satıb, hərə özünə iş tapmalı olmuşdur".

Əziz müəllimin atası Mirfeyzulla əvvəlcə Bayıl neft mədənində qaravolçu, sonra Bazar küçəsində dükançı işlədi. Qazancı yaxşı oldu. 1916-cı ildə o, Xanımana Ağası bəy qızı ilə evləndi. Dörd övlad - iki oğul, iki qız atası oldu. Sonbeşiyi - Adil kiçik yaşlarında dünyasını dəyişdi. Ailədə üç övlad - Səkinə, Davud və Əziz böyüdü.

Əziz Mirəhmədov səkkiz yaşında şəhərdəki 40 saylı məktəbin birinci-ikinci siniflərində, sonra 38 (25) saylı məktəbdə təhsil aldı. Elə şagird ikən seçildi. Bütün dərslərini yaxşı oxuyurdu. Ancaq ədəbiyyata münasibəti xüsusilə fərqlənirdi. Elə bu münasibət onun gələcək yolunu müəyyənləşdirdi. Ədəbiyyata sevgisi Əziz Mirəhmədovu Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) Filologiya fakültəsinə apardı.

1930-cu illərin repressiya kabusu Əziz Mirəhmədovun da həyatına qara kölgətək düşdü. Sevdiyi, əsərlərini oxumaqdan doymadığı Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq kimi şairlər həbs olundular. Əziz Mirəhmədovun əmisi Mirmöhsün də həbs olundu. O, Paris Stomatoloji Məktəbini bitirdiyinə görə dövlətin nəzərində "etibarsız adam" sayılırdı, 1937-ci ildə ailəsi ilə birlikdə Qazaxıstana sürgün edildi.

Yaxın qohumları "xalq düşməni" adlandırılan, həbs, sürgün olunanların hamısı qorxu içərisində yaşayırdılar. Əziz Mirəhmədovun da günləri ağır, səksəkəli keçirdi. Ancaq o, gözəl bir elmi-pedaqoji mühitə düşdü. Müəllimləri Məmməd Arif, Həmid Araslı, Əli Sultanlı, Mir Cəlal, Əkrəm Cəfərli və başqaları Əziz Mirəhmədovun həyatında, yaradıcılığında özünəməxsus yer tutdular.

1938-ci il mayın 13-də Əziz Mirəhmədovun ilk məqaləsi "Müəllim qəzeti"ndə işıq üzü gördü. O vaxt tələbə idi. Ali məktəbi 1941-ci ildə başa vurdu. Pedaqoji fəaliyyətə başladı. 1942-ci ildə Mərdəkandakı 156 nömrəli məktəbdə müəllim, 1943-1948-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutun "Azərbaycan ədəbiyyatı" kafedrasında baş müəllim işlədi.

Hələ 1940-cı illərin əvvəllərində o, iki cildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin (1943-1944) hazırlanmasında yaxından iştirak etdi. Bu, gənc Əziz Mirəhmədov üçün həm də ilk təcrübə oldu.

Oxuduqca, öyrəndikcə və öyrətdikcə mənəvi dünyasında yeni üfiqlər açılırdı. Tariximizin, ədəbiyyatımızın çox səhifələrinin işıq üzünə çıxarılmadığını, xalqına, vətəninə böyük sevgi ilə bağlı, təəssübkeş və cəfakeş tədqiqatçılarını gözlədiyini görürdü. Əziz Mirəhmədov məhz belə araşdırıcı olacaqdı. Arxivlərin saralmış səhifələrinin tozunu siləcək, Azərbaycanın neçə-neçə böyük şəxsiyyətinin - ictimai, siyasi xadiminin, yazıçısının, publisistinin fəaliyyətini, yaradıcılığını ilk dəfə o, araşdıracaqdı...

Çox keçmədi ki, onu tanıyan, istedadına, zəhmətsevərliyinə yaxşı bələd olan müəllimləri Həmid Araslı və Məmməd Arif Əziz Mirəhmədovu Nizami adına Ədəbiyyat və Dil İnstitutuna (indiki Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu) dəvət etdilər.

Böyük həvəslə, məsuliyyətlə elmin çətin yolları ilə irəlilədi. "Cəlil Məmmədquluzadə və XX əsrin əvvəllərində Azərbaycan mətbuatının inkişaf mərhələləri" mövzusunda dissertasiyasını müdafiə edib elmlər doktoru adını aldı. 1980-ci ildə indiki Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçildi.

O, ədəbiyyat tarixi və nəzəriyyəsi, mətbuat tarixi, mətnşünaslıq, biblioqrafiya və kitab mədəniyyətinə, eləcə də müasir ədəbi prosesin əsas istiqamətləri, imzaları haqqında çoxsaylı tədqiqatların müəllifi oldu. "Molla Nəsrəddin" jurnalının 25 illik nömrələrinin transliterasiyası, 12 cilddə çapa hazırlanması və birinci cildin nəşr edilməsi işini başa çatdırdı. Əziz Mirəhmədov üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin (1958-1960) əsas müəlliflərindən, nəşri planlaşdırılmış yeddicildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin aparıcı müəlliflərindən biri oldu. Cəlil Məmmədquluzadənin əsərlərinin ikicildliyi (1951-1954), üççildliyi (1966-1967) və altıcildliyinin (1981-1985) çapa hazırlanması, nəşri Əziz Mirəhmədovun böyük zəhmətinin bəhrəsi idi. Həmin nəşrlərin hər birinə o, müqəddimə, izah və şərhlər yazdı.

Yorulmaz tədqiqatçı 18 kitabın, 500-dən artıq elmi məqalənin müəllifidir. Onun "M.F.Axundov" (1953), "Abdulla Şaiq" (1956), "Sabir" (1958), "Məhəmməd Hadi" (1962 və 1981), "Azərbaycan Molla Nəsrəddini" (1980), "Satirik gülüşün qüdrəti" (1981), "Ağlar güləyən" (1989) monoqrafiyaları, "XX əsr Azərbaycan ədəbiyyatında satiranın inkişafına dair", "Zakir və XIX əsr Azərbaycan satirası", "XX əsrin əvvəllərində ədəbi hərəkat: tənqidi realizm" və digər məqalələri bir sıra faktların ilk dəfə üzə çıxarılması, tədqiq olunması baxımından olduqca əhəmiyyətlidir.

Əziz Mirəhmədovun Azərbaycan ədəbiyyatşünaslığına ən böyük xidmətlərindən biri də elmi rəhbəri olduğu, yetişdirdiyi, istiqamət verdiyi alimlər oldu. Əksəriyyəti müəllimlərini özlərinə həm insan, həm də alim kimi örnək seçdilər. Onlardan biri filologiya üzrə fəlsəfə doktoru, dosent Elmira Qasımova Əziz Mirəhmədovun böyük insan və alim, ədəbiyyatımızın müdrik və vicdanlı tədqiqatçısı, yeni tipli ədəbiyyatşünaslıq məktəbinin yaradıcısı olduğunu deyir: "Əziz müəllim sıradan bir alim - ədəbiyyatşünas deyildi. O, ədəbiyyat və mətbuat tarixi bilicisi, mənbəşünas, nəzəriyyəçi, mətnşünas, tənqidçi, kitabşünas, ensiklopedist... idi". Elmira Qasımovanın fikrincə, Əziz Mirəhmədovun həmin sahələrlə bağlı arxiv sənədlərinə, elmi-biblioqrafik mənbələrə, dövri mətbuatdan gətirilən yeni-yeni fakt bolluğuna, nəzəriyyəyə əsaslanan tədqiqatlarının hər abzası iri-həcmli bir işin tezisi idi. Müəllimini "elmin umacaqsız, təmənnasız təəssübkeşi, yorulmaz cəfakeşi, fədaisi" adlandıran Elmira Qasımova onun ümumi işin xeyrinə bildiyini kimsədən əsirgəməyən, hamıya yol göstərən, işindən zövq alan bir ziyalı olduğunu qeyd edir.

Əziz Mirəhmədovun həyatının ayrı-ayrı dövrlərini əks etdirən, sözlə çəkilmiş iki portreti diqqətimizi çəkir. Onlardan birində Əziz müəllim hələ gəncdir, aspirantdır. Əziz Mirəhmədovun o zamanların tələbəsi olmuş Xalq şairi Bəxtiyar Vahabzadənin xatirələrinə belə köçmüşdü: "Xəyalım ilk tanışlığımıza - 1943-cü ilin sentyabrına getdi. Bu o gün idi ki, gənc, ucaboy, qarayanız aspirant Əziz Mirəhmədov bizə dərs deyirdi. Gənc olmasına baxmayaraq, onda çılğınlığın, ötkəmliyin əlaməti belə yox idi. Çox asta və təmkinlə danışar, izah etmək istədiyi mətləbi yalnız faktlarla bizə dərk etdirməyə çalışardı".

İllər sonra, artıq tanınmış, nüfuzlu alim olduğu vaxtlarda aspirantı olmuş Elmira Qasımova isə Əziz Mirəhmədovu belə təsvir edir: "Fitrətində əslindən, nəcabətindən gələn bir kübarlıq, ağayanalıq, amiranəlik var idi. Hökmlü, qürurlu idi Əziz müəllim. Zəhmli - eyni zamanda rəhmli idi. Sərt idi, amma qəlb incidən deyildi. Kövrək və təvazökar idi. Biz onun tələbkarlığından çəkinir, savadının isə vurğunu idik". Elmira xanım bildirir ki, Əziz müəllim işdə son dərəcə ciddi, tələbkar idi, güzəşt etməyi bacarmazdı, prinsipial idi: "O, Elmi Şuralarda özündən yaşca böyük alimlərdən sonra danışardı, ancaq çox halda Əziz müəllimin danışdığı şuranın qərarı olardı. Z.Bünyadov, Q.Məmmədli, H.Məmmədzadə, A.İmanquliyeva, V.Aslanov, T.Məhərrəmov, N.Y.Makeyev, R.Əliyev, X.Məmmədov, Moskvadan Q.Əliyev kimi bir çox şərqşünas, dilçi, etnoqraf, tarixçi alimlər məsləhətləşmək üçün tez-tez şöbəyə gələr, bu söhbətlərdən biz də qənimət kimi çox şey öyrənməyə çalışardıq". Elmira Qasımova deyir ki, biz hamımız ona oxşamaq istədik, ondan öyrəndik, amma heç birimiz Əziz müəllim olmadıq.

Əziz Mirəhmədov həm şəxsiyyət, həm də alim kimi hər zaman bənzərsiz oldu.

Onun hər bir əsəri bu gün də ədəbiyyatımızın tarixinin öyrənilməsində ən etibarlı mənbələrdən hesab olunur. Tədqiqatçılar yeri gəldikcə, alimin əsərlərinə istinad edirlər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Ədəbi simalarımız

# Romantik şair, nasir, dramaturq və tərcüməçi

## Abdulla Şaiqin əsərləri hər zaman maraqla oxunur və sevilir

**Özündən sonra Azərbaycan xalqı üçün olduqca zəngin bədii irs qoymuş Abdulla Şaiq Talıbzadənin əsərləri bütün dövrlərdə, bütün zamanlarda sevilə-sevilə oxunub. Onun qələmindən çıxmış könülləri, ürəkləri fəth edən bir-birindən dəyərli əsərlər bu gün də böyük maraqla oxunur və sevilir. Abdulla Şaiqin adı Azərbaycanın ədəbiyyat və fikir tarixinə romantik şair, nasir, dramaturq, ədəbiyyatşünas-alim, tərcüməçi və müəllim kimi həkk olunub. Əsərlərinin ideya gücü, bədii dəyəri, yüksək sənət nümunəsi, dilinin sadəliyi, mövzu rəngarəngliyi bütün zamanlarda Abdulla Şaiqin yaradıcılığına ümumxalq məhəbbəti qazandırıb.**



Ədəbiyyat adamı olmayan insanlar belə, onun əsərlərindən kiçik də olsa parçaları əzbər bilir. Yaratdığı ölməz əsərlərinə, ədəbiyyatımızın inkişafı üçün gördüyü misilsiz işlərə, dəyərli fikir və ideyalara görə Abdulla Şaiq ədəbiyyat tariximizdə A.Bakıxanov, İ.Qutqaşınlı, M.F.Axundzadə, Z.Marağalı, Ə.Talıbov, N.Nərimanov, C.Məmmədquluzadə, H.Cavid, M.Ə.Sabir, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, S.S.Axundov və başqa söz ustaları ilə eyni səviyyədə dayanan sənətkarlarımızdan biridir.

Abdulla Şaiq 1881-ci il soyuq qış günlərinin birində, fevralın 24-də Tiflisdə Axund Mustafa Talıbzadənin ailəsində anadan olub. Onun atası Axund Mustafa dövrünün tanınmış ziyalılarından biri idi. 7 yaşına çatanda Abdulla Şaiq yaşıdları ilə bərabər məktəbə getmişdi. Gələcəyin böyük romantik şairi, dramaturqu, nasiri dörd il bu məktəbdə oxumuşdu. Arxada qalan dörd il onun üçün çox səmərəli olmuşdu. Abdulla Şaiq bu illər ərzində fars, rus və ərəb dillərini öyrənmişdi. Öyrəndiyi bu dillər onun gələcək həyatında, fəaliyyətində və yaradıcılığında böyük rol oynamışdı. 1893-cü ildə anası Mehri xanım Şaiqi qardaşı ilə Xorasana aparmışdı. Onlar 6 il burada yaşamışdılar. Bu illər ərzində Abdulla Şaiq fars dilini daha mükəmməl öyrənmişdi.

Fars dilini mükəmməl mənimsədikdən sonra ilk olaraq rus yazıçısı Krılovun "Sazəndələr" təmsilini rus dilindən fars dilinə çevirmişdi. Sonra utana-utana onu müəlliminə göstərmişdi. Müəllimi ilk tərcüməsini diqqətlə nəzərdən keçirəndən sonra ondan: "De görüm, sən farssan, ya azərbaycanlı?" sualı onun həyatında dönüş nöqtəsi olmuşdu. Sonralar Abdulla Şaiq öz üzərində xeyli işləyərək dilləri mənimsəməyi daha da inkişaf etdirmişdir. Rus dilini dərindən öyrənmişdir. Krılovun uşaqlar üçün yazdığı təmsillərin böyük əksəriyyətini məhz Abdulla Şaiq dilimizə çevirmişdir. Bir müddətdən sonra isə Avropa klassiklərinin əsərlərindən parçalar tərcümə etməyə başlamışdır. O, Şekspirin "Maqbet" pyesini, Conatan Sviftin "Qulliverin səyahəti" romanını, Puşkinin, Lermontovun, Qorkinin, Nekrasovun və başqa yazıçı və şairlərin əsərlərini Azərbaycan dilinə çevirmişdir.

Altı ildən sonra 1900-cü ildə Abdulla Şaiq anası ilə Tiflisə qayıtmışdı. Bir müddətdən sonra isə böyük qardaşı ilə Bakıya köçmüş, imtahan verərək müəllimlik hüququ almışdı. Bununla da onun həyatının yeni mərhələsi, ən dəyərli dövrü başlamışdı. Sanki qarşısında onu uğurlu gələcəyə aparan işıqlı və geniş yollar açılmışdı. Abdulla Şaiq uzun illər müəllim işləmiş, həm də bir-birindən dəyərli əsərlər yazmışdır. Böyük ustad müəllimlik peşəsinə daha çox üstünlük verərək demişdir: "Mən müəllimliyimlə bədii yaradıcılığımdan da ziyadə iftixar edirəm!" Ömrünün xeyli hissəsini Azərbaycan təhsilinin inkişafına həsr edən Abdulla Şaiq bunun üçün çox böyük işlər görmüşdür. "Əlifba" kitabı ilə yanaşı, müxtəlif dərsliklər və dərs proqramları da hazırlamışdır.

Uşaq ədəbiyyatı incilərinin yazılmasında, yaradılmasında da Abdulla Şaiqin müstəsna xidmətləri olmuşdur. O, 1906-cı ildən başlayaraq yazdığı silsilə şeirləri ilə, dünya ədəbiyyatının seçmələrini tərcümə etməsi ilə milli uşaq ədəbiyyatının bünövrəsini qoymuşdur. Abdulla Şaiqin yazdığı bir sıra şeirlər dövrünün tanınmış "Dəbistan" və "Məktəb" uşaq-gənclər toplularında işıq üzü görmüşdü. Məqsəd və məramına çatmaq üçün üzləşdiyi bütün çətinliklərə sinə gərmiş, qarşılaşdığı bütün problemlərin həllinə nail olmuşdur. Abdulla Şaiqin yazdığı "Xoruz", "Bənövşə", "Keçi", "Quzu", "Qızılgül", "Qərənfil" və digər şeirləri, "Tülkü həccə gedir", "Tıq-tıq xanım" kimi pyesləri uşaqlar tərəfindən bu gün də böyük maraqla oxunur. Ədib 1910-cu ildə qələmə aldığı "Gözəl bahar" pyesi ilə milli uşaq teatrının əsasını qoymuşdur.

Xalq ədəbiyyatının həm toplanmasında, həm də araşdırılmasında, həmçinin Azərbaycanın böyük klassiklərinin və dünya ədəbiyyatının nadir incilərinin oxuculara çatdırılmasında da Abdulla Şaiq böyük işlər görmüşdür. Onun Nizami, Füzuli, Nəsimi, Vaqif, Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məhəmməd Hadi kimi böyük ədəbi simalar haqqında söylədiyi fikirlər bu gün də qiymətini itirməyib və heç vaxt da itirməyəcək.

Ötən əsrin əvvəllərində ədəbiyyata gələn Abdulla Şaiqin yaradıcılığı xalqımızın ziddiyyətli, mürəkkəb tarixi keçmişinin bədii salnaməsidir. Görkəmli mütəfəkkirin yaradıcılığının birinci mərhələsi 1917-ci il inqilabından əvvələ, ikinci mərhələsi isə keçmiş sovet dövrünə düşür. Abdulla Şaiq yaradıcılığının hər iki mərhələsində müxtəlif janrlarda bir-birindən dəyərli sənət nümunələri qələmə almışdır. Onun yazdığı əsərlər yaşadığı dövrün ədəbi prosesinin gedişi ilə yanaşı, inkişaf istiqamətlərinə də təsirsiz ötüşməmişdir. Yazıçının bədii irsini yüksək qiymətləndirən Mehdi Hüseyn onun nəsr tarixindəki yeri haqqında danışarkən çox haqlı olaraq yazırdı ki, Abdulla Şaiq lirik nəsrimizin təməl daşını qoymuşdur.

Görkəmli ədib müəllimliyi, yaradıcılığı ilə yanaşı, Bakının ictimai-siyasi, ədəbi-mədəni mühitində fəal iştirak edirdi. Azərbaycanın görkəmli şair və yazıçıları Səməd Vurğun, Yusif Vəzir Çəmənzəminli, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Mikayıl Müşfiq, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Sultan Məcid Qənizadə, Məhəmməd Hadi, Hüseyn Cavid, Üzeyir bəy Hacıbəyli kimi ziyalılarla ilk tanışlığı sonralar möhkəm dostluğa çevrilmişdi. Bu ziyalılar tez-tez onun evinə yığışar, şeir-sənət məclisləri təşkil edərdilər. Abdulla Şaiq ürək, qəlb yoldaşları ilə gecədən səhərə kimi müxtəlif dərsliklər üzərində çalışırdı. Adlarını çəkdiyimiz bu yazıçı və şairlərlə olan söhbətlər bir müddət keçdikdən sonra bir-birindən dəyərli əsərlərə çevrilirdi.

XX əsrin əvvəllərində neft bumu, Bakı fəhlələrinin acınacaqlı həyatı, onların yaşam tərzi, çəkdikləri əziyyət və çətinliklər Abdulla Şaiqə yazacağı bədii əsərlərinə dəyərli və zəngin faktlar verirdi. Görkəmli ədib neft mədənlərində çörək pulu üçün gecə-gündüz çalışan insanların ağrı-acısını, risklərlə üz-üzə qalmış həyatlarını öz dərdi kimi hiss edirdi. "Məktub yetişmədi" hekayəsində, "Əsrimizin qəhrəmanları" və "Araz" romanlarında bu hisslər öz bədii əksini parlaq şəkildə tapmışdır.

Ədəbiyyat nümunələrini dilimizə çevirən mahir sənətkar Abdulla Şaiq iki dəfə keçmiş SSRİ Ali Sovetinin deputatı seçilmiş, dövlət mükafatları ilə, orden və medallarla təltif olunmuş, "Əməkdar incəsənət xadimi" adına layiq görülmüşdür. Həyatını, ömrünü xalqına həsr etmiş böyük ədib 24 iyun 1959-cu ildə Bakıda vəfat etmişdi. Fəxri xiyabanda dəfn olunmuşdur.

Şair, yazıçı, dramaturq, publisist, Əməkdar incəsənət xadimi Abdulla Şaiqin əziz xatirəsi xalqımızın qəlbindən heç vaxt silinməyəcək. Görkəmli ədibin yazdığı bir-birindən dəyərli əsərləri təkcə bugünkü nəsillər deyil, gələcək nəsillər də böyük maraqla oxuyacaq və sevəcək. Çünki Abdulla Şaiq bütün zamanların şairi, yazıçısı, dramaturqu, sənətkarı və fədaisidir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Tanınmış şair İslam Səfərlinin anadan olmasının 102-ci ildönümü tamam olur

**O, cəmi 51 il ömür sürmüş mənalı həyat yoluna böyük sənətkar irsini sığışdıraraq yaddaşlarda əbədi qaldı. Şairin poetik nümunələrinə 200-ə yaxın mahnı bəstələnib, pyesləri dəfələrlə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında və Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnəyə qoyularaq tamaşaçı rəğbəti qazanıb.**



AZƏRTAC xəbər verir ki, tanınmış şair İslam Səfərlinin anadan olmasının 102-ci ildönümü tamam olur.

İslam Səfərli 1923-cü il fevralın 12-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Şəkərabad kəndində dünyaya gəlib. Naxçıvandakı 1 nömrəli məktəbi bitirdikdən sonra könüllü olaraq 1941-1945-ci illər müharibəsində iştirak edib. Müharibə mövzusu gənc şairin poemalarında da öz əksini tapıb. İslam Səfərli dramaturq kimi də böyük uğur qazanıb. O, həm də oçerk, novella, libretto və kinossenari, məqalələr müəllifi kimi tanınıb. Həmçinin tərcüməçilik fəaliyyəti ilə məşğul olub. A.S.Puşkin, M.M.Svetlov, S.Marşak, M.Kərim, M.Tursunzadə, K.Koladze, Y.Dolmatovski kimi tanınmış sənətkarların əsərlərini müvəffəqiyyətlə tərcümə edib.

Tanınmış şairin adını əbədiləşdirmək məqsədilə Xəzər dənizində üzən gəmilərin birinə "İslam Səfərli" adı verilib, Bakının mərkəzi küçələrindən biri şairin adını daşıyır, Bakıda yaşadığı binaya (Həsən Seyidbəyli, 30) onun barelyefi-xatirə lövhəsi vurulub. Həmçinin Naxçıvanda oxuduğu 1 nömrəli məktəb onun adını daşıyır.

Böyük istedad sahibi olan İslam Səfərli ustadı kimi qəbul etdiyi Səməd Vurğun məktəbi ənənələrinə yaradıcı münasibət bəsləyib.

18 kitabı işıq üzü görən İslam Səfərlinin şeirlərində ictimai motivlərdən çox təbiiliyi, səmimiyyəti, duyğu və düşüncələri - lirikanı ön mövqeyə çəkməsi diqqəti cəlb edib. Professor Əkbər Ağayev bu barədə yazıb: "Vətən də, onun təbiəti də İslam Səfərlinin tərənnümündə tam bir poeziyadır, incədir, xəfifdir, gözəldir".

*"De, nə vardır dünyada,*
*Ana südündən təmiz.*
*Doğulduğun torpaqdan,*
*Olduğun evdən əziz?!"*

- deyən İslam Səfərli 1974-cü il noyabrın 6-da uzunsürən xəstəlikdən sonra əbədiyyətə qovuşub və Fəxri xiyabanda dəfn olunub.

# Gənclər biznesə təşviq olunurlar

**Daşkəsən rayonunda "Gənclərin məşğulluğunun təmin edilməsi və biznes gələcəyi" mövzusunda tədbir keçirilmişdir.**



Müxtəlif sahələrdə karyera qurmaq istəyən gənclərin iştirakı ilə keçirilən tədbirdə rayon icra hakimiyyəti başçısının müavini Vüqar Məmmədov çıxış edərək gənclərin uğurlu karyera qurması üçün hansı addımları atmalı olduqları barədə danışmışdır.

Daşkəsən KOB dostunun əməkdaşı Orxan Abbasov isə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən elan edilən qrant müsabiqəsi, KOBİA-nın dəstək mexanizmləri, gənclərə öz biznesini qurmağın yolları, startap layihələrinə qoşulmaq imkanları, eləcə də "KOB" İnvestisiya Platforması barədə məlumat vermişdir.

Görüşdə gənclərin iş imkanları və sahibkarlıqla bağlı sualları cavablandırılmışdır. Tədbirin sonunda gənclər çıxış edərək gələcək karyera və biznes planlarının qurulmasında belə tədbirlərin əhəmiyyətli olduğunu qeyd etmişlər.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

# Baş Prokurorluq: Beynəlxalq axtarışa verilmiş daha 7 şəxs ölkəmizə ekstradisiya edilib

"Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 2002-ci il 7 oktyabr tarixli Konvensiyanın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının vətəndaşları Əliyev Səid Azər oğlu, Orucov Artur Şair oğlu, Əliyev Emil Əhliman oğlu, Dehqani Zaur Əhməd oğlu, Səfərli Nahid Rasim oğlu, Mikayıllı Ədil Natiq oğlu və Məmmədov Elmir İmamverdi oğlunun ekstradisiyaları haqqında Baş Prokurorluğun vəsatətləri Rusiya Federasiyasının Baş Prokurorluğu tərəfindən təmin edilib.

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, həmin şəxslərin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulmuş cinayət əməllərini törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən, barələrində təqsirləndirilən şəxs qismində cəlbetmə haqqında qərarlar qəbul olunub və istintaqdan qaçıb gizləndiklərinə görə beynəlxalq axtarışa veriliblər.

Həmin şəxslər Rusiya Federasiyasının ərazisində saxlanılaraq Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Azərbaycana gətiriliblər.

# Arıqlama çayları və qəhvələri sağlamlığa təhlükə yaradır

**Bir neçə gün əvvəl Səhiyyə Nazirliyi və Dövlət Gömrük Komitəsi ölkəyə gətirilən arıqlama çayları və qəhvələri ilə bağlı əhaliyə müraciət edib. Məlumatda bildirilib ki, son dövrlər elektron ticarət yolu ilə kütləvi formada "arıqlama çayı və qəhvələri" adı altında müxtəlif markalı qəhvə və çayların Azərbaycana gətirilməsi artmaqdadır. Gömrük orqanlarında aparılan araşdırmalar nəticəsində həmin məhsulların tərkibində güclü təsirə malik "sibutramin" maddəsinin olduğu aşkar edilib.**



## Vətəndaşlara diqqətli olmaları tövsiyə edilir

Sibutramin maddəsi Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş "Güclü təsir edən maddələrin və onların külli miqdarının siyahısı"na daxildir və bu tərkibdə malların ölkəyə gömrük sərhədindən nəzarətdən kənar və ya ondan gizli, sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə, yaxud bəyan və ya düzgün bəyan etməməklə keçirilməsi cinayət məsuliyyəti yaradır.

Eyni zamanda Səhiyyə Nazirliyi Farmakoloji və Farmakopeya Ekspert Şurasının Protokoluna əsasən, piylənmə əleyhinə vasitə kimi istifadə olunan "sibutramin" tərkibli məhsulların insan orqanizmi üçün təhlükəli olduğu və sağlamlığa göstərdiyi ciddi təsirləri nəzərə alınaraq, dövlət qeydiyyatdan çıxarılması barədə qərar qəbul olunub. Bu maddənin Avropa Səhiyyə Təşkilatı tərəfindən qeydiyyatdan çıxarılması və beynəlxalq səviyyədə istifadəsinin qadağan olunması da təsbit olunub. Buna görə də vətəndaşlara onlayn sifariş zamanı diqqətli olmaları tövsiyə edilir.

Sibutramin təsiredici maddəsinin ümumilikdə 10 min 92 əlavə təsiri haqqında məlumatlar mövcuddur. Adıçəkilən maddənin əlavə təsirləri kimi baş ağrısı, yuxusuzluq, ağızda quruluq, başgicəllənmə, qəbizlik, qan təzyiqinin yüksəlməsi, depressiya, narahatlıq, yorğunluq, qusma, ishal, boğazda quruluq, miqren, miokard infarktı, hallüsinasiyalar, ürək-damar xəstəliklərinin kəskin ağırlaşması və ciddi risklərinin meydana gəlməsi, astma, koma, nitq qabiliyyətinin itməsi, qəfil ölüm və sairəni göstərmək olar. Bu səbəblərdən "sibutramin" tərkibli məhsulların qeydiyyata alınması Azərbaycandan başqa, Avropa İttifaqı ölkələrində, həmçinin ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya, Sinqapur, Misir və digər dövlətlərdə də qadağan olunub.

## "Davamlı toxluq hissi istifadəçiləri həvəsləndirsə də, bir müddət sonra onun fəsadları ilə üzləşirlər"

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən dietoloq Ülkər Vəliyeva bildirib ki, tərkibində "sibutramin" maddəsinin olub-olmamasından asılı olmayaraq, ümumiyyətlə, heç bir arıqlama çay və qəhvələrinin istehlak edilməsi tövsiyə edilmir: "Əksəriyyətinin üzərində "yüz faiz təbiidir" yazılsa da, bu, qətiyyən həqiqəti əks etdirmir. İnsanlar sosial şəbəkələrdə, televiziya ekranlarında qarşılarına çıxan "aclıq hissini yox edir", "bədəndəki yağları azaldır", "toksinləri təmizləyir" kimi vədlərə aldanıb arıqlama məhsullarını əldə edirlər. Bu da onları ağır fəsadlara sürükləyir. Düzdür, arıqlama çayı və qəhvələri mərkəzi sinir sisteminə təsir edərək burada olan toxluq mərkəzini qıcıqlandırır. Lakin bu hiss müvəqqətidir. Metabolizmanın sürətlənməsi, kalorinin az olması, davamlı toxluq hissi istifadəçiləri həvəsləndirsə də, bir müddətdən sonra bu məhsulların fəsadları ilə üzləşirlər".

Mütəxəssisin sözlərinə görə, çəki atmaq üçün nəzərdə tutulmuş çay və qəhvələrin fəsadları fərdə görə, onun xroniki xəstəliklərinə görə dəyişə bilər: "Yaşı 18-dən aşağı və 65-dən yuxarı olan şəxslər, hamilələr, xroniki xəstəlikləri olanlar bu məhsullardan, ümumiyyətlə, istifadə etməməlidirlər. Arıqlama çay və qəhvələri ürək ritminin pozulmasına, ağız qurumasına və təzyiqin yüksəlməsinə səbəb olur, qaraciyər və böyrəyə ciddi zərər verir, su və əzələ itkisi mineral və vitaminlərin sovrulmasını ləngidir, allergik reaksiyalar yaradır".

Arıqlamaq üçün sağlam həyat tərzi, düzgün qidalanma, fiziki aktivlik kimi elmi cəhətdən təsdiq olunan üsullara üstünlük verilməsinin vacibliyini qeyd edən dietoloq sağlamlığa ziyan gətirən məhsulların istifadəsindən uzaq durmağı tövsiyə edib.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*


Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az



OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Hava arabir yağıntılı olacaq

**Azərbaycanda fevralın 13-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Günün birinci yarısında bəzi yerlərdə havanın arabir yağıntılı olacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 1-3°, gündüz 5-8° isti olacağı ehtimal edilir. Atmosfer 771 millimetr civə sütunundan 767 millimetr civə sütununa enəcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecə və səhər bəzi şərq rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti, dağlarda gecə 11-16° şaxta, gündüz 0-5° şaxta olacaq. Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşamdan bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 6-11° şaxta, gündüz 5-10° isti olacaq. Gecə və səhər bəzi yerlərdə yollar buz bağlaya bilər.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi yerlərdə çiskinli yağış yağacağı gözlənilir. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8° şaxta, gündüz 0-5° isti olacağı proqnozlaşdırılır. Bəzi yerlərdə yolların buz bağlama ehtimalı var.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2-5° şaxta, bəzi yerlərdə 11°-dək şaxta, gündüz 0-5° isti olacağı bildirilir. Bəzi yerlərdə yollar buz bağlaya bilər.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 5-10° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi şərq rayonlarında çiskin olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 3-5° isti, dağlarda gecə 11-16° şaxta, gündüz 0-5° şaxta olacağı gözlənilir. Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Arabir duman olacaq. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-9° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 0-5° isti olacaq. Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları iş yoldaşları Xətai Müzəffəri-Həqiqiyə əzizi **DİLBƏR MÜZƏFFƏRİ-HƏQİQİNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Şamil Zabitova atası **MİRKAZIM ZABİTOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Amil Malahova bacısı **MƏTANƏT İBRAHİMOVANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3414
Sifariş 317

Qiyməti 60 qəpik